ELNUR ALLAHVERDİYEV

# ETİBARLI ƏRZAQ TƏMİNATINDA İDXALƏVƏZLƏYİCİ İSTEHSALIN ARTIRILMASI

MONOQRAFİYA



**ELNUR ALLAHVERDİYEV**

# ETİBARLI ƏRZAQ TƏMİNATINDA İDXALƏVƏZLƏYİCİ İSTEHSALIN ARTIRILMASI

M O N O Q R A F İ Y A

"Kooperasiya" nəşriyyatı
Bakı – 2021

Azərbaycan Kooperasiya Universitetinin Elmi Şurasının 14 may 2021-ci il tarixli qərarı ilə (protokol № 3) çapa tövsiyə edilir.

**Elmi redaktor:** **Bəyalı Xanalı oğlu Ataşov**
Azərbaycan Kooperasiya Universitetinin elm və innovasiyalar üzrə prorekroru, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor

**Rəyçilər:** **İsa Hüseyn oğlu Alıyev**
AMEA-nın İqtisadiyyat İnstitutunun “Aqrar islahatlar və ərzaq təhlükəsizliyi” şöbəsinin müdiri, iqtisad elmləri doktoru, professor;

**Ramiz Kamal oğlu İsgəndərov**
Azərbaycan Texniki Universitetinin “İqtisadiyyat və Statistika” kafedrasının professru, iqtisad elmləri doktoru;

**Nizami Cəlal oğlu Qafarov**
Azərbaycan Kooperasiya Universitetinin “Aqrar sahənin və sənayenin iqtisadiyyatı” kafedrasının dosenti, iqtisad elmləri namizədi

**Elnur Qara oğlu Allahverdiyev.** “Etibarlı ərzaq təminatında idxaləvəzləyici istehsalın artırılması”. Monoqrafiya. Bakı, “Kooperasiya” nəşriyyatı, 2021, 160 səh.

*Monoqrafiyada Azərbaycan Respublikasında əhalinin etibarlı ərzaq təminatında idxaləvəzləyici istehsalın rolunun artırılmasının istiqamətləri, kənd təsərrüfatında istehsal və resurs potensialının konseptual əsaslar, prinsiplər və meyilləri, ixrac potensialını şərtləndirən amillər, idxal və ixracyönlü kənd təsərrüfatının formalaşmasının iqtisadi mühiti, kənd təsərrüfatının ixrac potensialının artırılması imkanlarının qiymətləndirilməsinin metodoloji aspektləri, Azərbaycanda ərzaq məhsulları istehsalının mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsinə dair müvafiq nəticələr çıxarılmışdır.*

*Kitabda eyni zamanda, ərzaq təminatında idxaldan asılılığın qiymətləndirilməsi, ərzaq məhsulları ilə təminat səviyyəsinin müqayisəli təhlili, idxaləvəzləyici ərzaq məhsulları istehsalının artırılması prioritetləri, yerli ərzaq məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri və idxalı əvəzləyən ərzaq məhsulları istehsalının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsinə dair dəyərli tövsiyələr irəli sürülür.*

*Monoqrafiya aktuallığı baxımından əhəmiyyətli olmaqla, elmi işçilər, aparıcı mütəxəssislər, ərzaq təhlükəsizliyini araşdıran tədqiqatçılar və magistrlər tərəfindən istifadə edilə bilər.*

A $\frac{0503229412-199}{124-2021}$

© “Kooperasiya” nəşriyyatı - 2021
© Elnur Allahverdiyev

## MÜNDƏRİCAT

Giriş........................................................................ 5

**FƏSİL I. KƏND TƏSƏRRÜFATININ İSTEHSAL VƏ İXRAC POTENSİALININ FORMALAŞMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**

1.1. Kənd təsərrüfatında istehsal və resurs potensialının təşəkkülü: konseptual əsaslar, prinsiplər və meyillər..... 8
1.2. İxrac potensialını şərtləndirən amillər, idxal və ixracyönlü kənd təsərrüfatının formalaşmasının iqtisadi mühiti.............................................................. 20
1.3. Kənd təsərrüfatının ixrac potensialının artırılması imkanlarının qiymətləndirilməsinin metodoloji aspektləri...................................................................... 35

**FƏSİL II. ÖLKƏDƏ ƏRZAQ MƏHSULLARI İSTEHSALININ VƏ ƏRZAQ TƏMİNATINDA İDXALDAN ASILILIĞIN MÖVCUD VƏZİYYƏTİ**

2.1. Azərbaycanda ərzaq məhsulları istehsalının mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi..................... 46
2.2. Ərzaq təminatında idxaldan asılılığın qiymətləndirilməsi......................................................... 62
2.3. Ərzaq məhsulları ilə təminat səviyyəsinin müqayisəli təhlili.......................................................... 76

**FƏSİL III. ƏHALİNİN ETİBARLI ƏRZAQ TƏMİNATINDA İDXALƏVƏZLƏYİCİ İSTEHSALIN ARTIRILMASI YOLLARI**

3.1. İdxaləvəzləyici ərzaq məhsulları istehsalının artırılması prioritetləri............................................................... 88

3.2. Yerli ərzaq məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri.................... 101
3.3. Ərzaq təminatının yerli istehsal hesabına ödənilməsinin artırılması istiqamətləri........................... 113
3.4. İdxalı əvəzləyən ərzaq məhsulları istehsalının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi...... 124

İstifadə edilmiş ədəbiyyat............................................... 139

## GİRİŞ

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi əhalinin fəal və sağlam həyatı üçün prioritet məsələdir. “2008-2015-ci illərdə Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramında etibarlı ərzaq təminatı” proqramı hər bir ölkənin iqtisadi sabitliyinə və sosial sabitliyinə töhfə verən amil kimi nəzərdən keçirilir və əsasını təşkil edir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Yol Xəritəsi”ndə göstərildiyi kimi, həyata keçirilməsi nəzərdə tutulan 9 strateji məqsəddən biri də bu sahədə mühüm yer tutur. ölkədə davamlı inkişaf prinsipləri əsasında kənd təsərrüfatı məhsullarının, ərzaq məhsullarının istehsalı və emalı üzrə onun təhlükəsizliyini, dayanıqlığını artıran, idxalı əvəz edən istehsalın artan rolunu əks etdirən rəqabətqabiliyyətli sektorun yaradılması üçün əlverişli şərait yaradılmış, çünki bu, yerli istehsalın artımından asılıdır. O cümlədən Azərbaycan üçün əsas modernləşmə strategiyası. Bu istiqamətdə həllini gözləyən əsas məsələlərdən biri idxalın yerli məhsullarla daha geniş şəkildə əvəzlənməsidir. İdxalın əvəzlənməsi dedikdə, ilk növbədə, bəzi malların, xüsusən də qida istehsalının təşkili ilə bağlı olan malların ölkəyə idxalının qadağan edilməsi və ya dayandırılması nəzərdə tutulur. Belə olan halda kənd təsərrüfatına himayədarlıq aqrar siyasətin mühüm istiqamətidir.

Kənd təsərrüfatının əsas istehsal vasitəsi torpaq resurslarıdır. Müasir kənd təsərrüfatının inkişaf etdirlməsi innovativ texnologiyalardan səmərəli istifadə etməklə torpaq resurslarının qorunmasını, keyfiyyətinin yaxşılaşdırılmasını, istehsalın intensivləşdirilməsini təmin etmək, yüksək məhsul istehsalına nail olmaq istehsalçının əsas vəzifəsi və məqsədidir. Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və yerli sahibkarların səmərəli fəaliyyətinin genişləndirilmə-

si aqrar sahədə ərzaq məhsullarının istehsalının artırılmasını şərtləndirir.

İdxaləvəzləyici istehsalın artırılması və etibarlı ərzaq təminatı probleminin həlli həm bitkiçilik, həm də heyvandarlıq sahəsində istehsalı innovativ texnologiyaları tətbiq etmədən və əsaslı şəkildə intensivləşdirmədən mümkün deyil. Aqrar islahatların həyata keçirilməsi nəticəsində bu sahədə ciddi dönüş yaransa da, ölkədə dayanıqlı və davamlı inkişaf prinsiplərinə əsaslanmaqla kənd təsərrüfatında rəqabətqabiliyyətli ərzaq məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq, eyni zamanda daxili istehsal hesabına Ümumdünya Səhiyyə Təşkilatının müəyyən etdiyi adambaşına istehlak normalarına uyğun şəkildə qidalanmanı təmin etmək, yüksək məhsuldalığa malik istehsala və təsərrüfatların inkişafına nail olmaq, elmi tədqiqatların aparılmasına və elmi əsaslara söykənən istehsala sahib olmaq üçün yeni təklif və tövsiyələrin hazırlanması zərurəti yaranır.

Respublika əhalisinin kənd təsərrüfatında istehsal olunan əsas ərzaq məhsullarından olan buğdaya tələbatı 1990-cı ildə cəmi 1219,5 min ton olmuş və daha sonrakı beşilliklərdə bu göstəricidəki fərq 100 min ton artımla müşahidə olunmuşdur. 2019-cu ildə isə bu məhsula tələbat 2940,0 min ton, ərzaq üçün 2251,2 min ton, özünütəminetmə səviyyəsi isə 52,9% olmuşdur. 2019-cu ildə tələbatı ödəmək üçün 1599,9 min ton buğda idxal olunmuşdur ki, bu da istehsalın 88,9%-ni təşkil edir. Maraqlıdır ki, 2019-cu ildə 2011-ci ilə nisbətən buğda istehsalının artımı 12,9% təşkil etdiyi halda, həmin məhsulun idxalı göstərilən müddətdə 37% olmuşdur.

Digər əsas ərzaq məsulları üzrə əhalinin tələbatını ödəmək üçün 2019-cu ildə 41,7 min ton bütün növ mal-qara və quş əti, 288,5 min ton süd və süd məhsulları, 19057 min ədəd yumurta, 191,2 min ton kartof, 61,2 min ton bütün növ tərəvəz və s. idxal olunmuşdur. Hansı ki, ölkəmizdə mövcud olan təbii-iqlim şəraiti idxaldan asılılıq səviyyəsini xeyli azaltmağa və ixrac potensialını

artırmağa imkan verir.

İdxaləvəzetməsinin iqtisadi məqsədəuyğunluğu yerli istehsalın öz vətəndaşlarının işlə təmin edilməsinə və xaricdən məhsul idxal edilməsində yol verilə biləçək valyuta itkilərinin qənaətinə imkan verməsi ilə müəyyən edilir. Siyasi məsələlər təhlükəsizlik maraqları ilə diktə edilir: hətta zərərlə başa gəlsə belə istehsal etmək lazımdır, ilk növbədə bu ərzaq məhsullarını əhatə etməlidir və hansı ki, onsuz yaşamaq mümükün deyil.

İdxaləvəzetmə siyasətinin fərqli bir xüsusiyyəti ölkənin daxili ehtiyatlarının daxili bazara yönəlmiş məhsulların istehsalı üçün aktiv və səmərəli istifadə edilməsidir. Yerli əmtəə istehsalçılarının rəqabət qabiliyyətini qorumaq məqsədilə dövlət tez-tez idxal olunan məhsullardan rəqabəti məhdudlaşdırmaq üçün tədbirlər görür, məsələn, idxal olunan məhsullara əlavə vergilər tətbiq edir.

Ərzaq təhlükəsizliyi, əhalinin etibarlı ərzaq təminatında idxaləvəzləyici istehsalın artırılması, ərzaq təhlükəsizliyinin dayanıqlığı, əhalinin ərzağa əlyetərliyi, qida təhlükəsizliyi problemləri hər bir dövlətin strateji hədəfini təşkil edir və digərləri tərəfindən geniş tədqiq edilsə də, ölkənin sosial-iqtisadi inkişafına, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramları, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" daha ətraflı və dövrün tələblərinə cavab verən yeni tədqiqatların aparılmasını tələb edir.

Məhz bu səbəbdən də bizim tədqiqatda əhalinin etibarlı ərzaq təminatında idxaləvəzləyici istehsalın rolunun artırılması istiqamətlərinin müəyyən edilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdur.

# FƏSİL I. KƏND TƏSƏRRÜFATININ İSTEHSAL VƏ İXRAC POTENSİALININ FORMALAŞMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Kənd təsərrüfatında istehsal və resurs potensialının təşəkkülü: konseptual əsaslar, prinsiplər və meyillər

Müasir kənd təsərrüfatının inkişaf etdirilməsi istehsalın yüksək mexanikləşdirilməsinə, elektrikləşdirilməsinə və kimyalaşdırılmasına, elmi-teniki tərəqqinin nailiyyətlərinin və innovativ texnologiyaların geniş surətdə tətbiqinə əsaslanır. Digər tərəfdən, kənd təsərrüfatında torpaq, su, əmək ehtiyatları, əsas və dövriyyə vəsaitlərinin məcmusu istehsal resurslarını təşkil edir və bu resurslardan səmərəli istifadə etmədən kənd təsərrüfatında iqtisadi səmərəliliyi yüksəltmək mümkün deyildir.

Kənd təsərrüfatının istehsal resursları öz mahiyyəti etibarilə təbii və iqtisadi resurslardan ibarətdir. İstehsal resursları təsərrüfat fəaliyyətinin xarakterinə görə istehsalın resurs potensialına və istehsalda bilavasitə iştirak edən resurslara ayrılır. İstehsalın resurs potensialı təsərrüfatların malik olduğu istehsal resurslarıdır. İstehsalda birbaşa iştirak edən resurslara isə təsərrüfat fəaliyyətində bilavasitə iştirak edən istehsal resursları aiddir və bu resurslar adətən ümumi resurs potensialından az olur.

İstehsal resurslarından səmərəli istifadənin təmin edilməsi üçün istehsal resursları ilə istehsal potensialı arasındakı fərqi minimuma endirmək tələb olunur. Yəni potensialdan daha yüksək səviyyədə istifadə etmək lazımdır ki, sonda istifadə olunmamış ehtiyat qalmasın. Yəni resurs potensialından tam istifadə edilməsi yekunda iqtisadi səmərəlilik göstəricilərinin (məhsuldarlığın, rentabelliyin, mənfəətin və s.) yüksəlməsini təmin edir.

İstehsal resursları əsasən cari ildə istifadə olunan resurs ehtiyatlarıdır. Onlar cari istehsal xərclərində və ya maya dəyərində öz əksini tapır. Maddi-texniki bazanın optimal formalaşması və rasional istifadəsi aqrar sahənin bütün istehsal potensialının fəaliyyətinin nəticələrinə birbaşa təsir edir. Torpağın iqtisadi məhsuldarlığı və heyvandarlığın məhsuldarlığı nə qədər yüksək olarsa, kənd təsərrüfatı ehtiyatlarından istifadənin səmərəliliyi də bir o qədər yüksək olar. Bu isə yalnız kənd təsərrüfatının intensivləşməsi ilə mümkündür və təkrar istehsal yüksək inkişaf etmiş maddi-texniki bazaya əsasən həyata keçirilir.

Ölkədə iqtisadi çətinliklərin mövcudluğuna baxmayaraq aqrar islahatın davamlı aparılması şəraitində, mexanizasiyaya və avtomatlaşdırma üçün maşın kompleksinin yaradılması, onu sənayenin intensivləşdirilməsi üçün maddi əsas kimi istifadə edilməsi məqsədilə müvafiq proqramların işlənib hazırlanmasına və həyata keçirilməsinə ehtiyac vardır. Bundan əlavə, nəzarət sisteminin yaxşılaşdırılması, həyata keçirilən əməliyyatların mühafizəsi, xərclərin minimumlaşdırılması bütün istehsal prosesinin təşkili mexanizminin təkmilləşdirilməsi, kənd təsərrüfatının maddi və texniki resurslarla təminatında struktur qeyri-bərabərliyinin aradan qaldırılması təmin olunmalıdır.

İqtisadiyyatın ayrı-ayrı sahələrində olduğu kimi, kənd təsərrüfatında da ümumi iqtisadi qanunlar var. Ancaq bu qanunlar sənayenin xüsusiyyətlərini nəzərə alaraq tətbiq edilməlidir. Kənd təsərrüfatı istehsalının ən fərqli aspektlərindən biri də odur ki, burada əsas istehsal vasitəsi kimi torpaqdan istifadə olunur. Bu, təkrar istehsalın iqtisadi təsiri ilə üst-üstə düşür. Kənd təsərrüfatı məhsullarının istehsalı müxtəlif iqlim şəraitində, böyük sahələri əhatə etməklə həyata keçirilir. Kənd təsərrüfatında son nəticələr tez-tez istehsala yönəldilmiş resursların miqdarı və keyfiyyətindən asılı deyildir. Son nəticələr əsasən xüsusi təbii şəraitdən asılıdır. İstehsal olunan məhsulların nəql həcmlərinin miqdarından asılı

olaraq, ərazi üzrə kənd təsərrüfatı istehsalının yerləşdirilməsi, həmçinin bu sahədə istifadə ediləcək texnika və maddi resursların həcmini müəyyən edir [109, səh. 18].

Kənd təsərrüfatı istehsalında səmərəliliyin artırılması yalnız yüksək səviyyədə inkişaf etmiş maddi-texniki bazanın səmərəli fəaliyyətinə və onun daima yeniləşdirilməsinə, yəni yeni maşınqayırma məhsulları ilə təsərrüfatların texniki bazasının yenidən qurulmasına, mexanikləşdirmə və avtomatlaşdırma proseslərinin formalaşdırılmasına əsaslanır. Bazar münasibətlərinin inkişafı şəraitində kənd təsərrüfatının maddi-texniki bazasının iqtisadi cəhətdən yenidən qurulması istehsalın iqtisadi səmərəliliyi ilə birbaşa əlaqəlidir.

Aqrar islahatların aparılması zamanı xüsusi mülkiyyətə verilmiş texnikaların köhnəliyi və müasir əkinçilik prinsiplərinə uyğunsuzluğu yeni müasir texnikaların alınmasını və kənd təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsini zəruri etmişdir. Məhz bu baxımdan ölkə Prezidenti tərəfindən kənd təsərrüfatının inkişafı ilə bağlı verilmiş fərman və sərəncamlarda bu məsələlər ön plana çəkilir.

Son illərdə kənd təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsi üçün müasir texnikaların alınması və istehsalçıların istifadəsinə verilməsi kənd təsərrüfatında texnika ilə təminatda əlverişli imkanlar yaratmışdır. Bu əsasda aqrotexniki əməliyyatların vaxtında və düzgün yerinə yetirilməsi təsərrfatlarda intensiv inkişafa nail olunmasını təmin etməklə yerli məhsul istehsalının artmasına təminat verir.

Aqrar sənaye sahələrinin material texniki bazası çox istiqamətli olmaqla təbii-material və xərclərin tərkibinə daxildir. Təbii-maddi tərkibinə, eyni zamanda əmək vəsaitləri və istehsal və qeyri-istehsal obyektləri (iş maşınları, avadanlıqlar və digər texniki vasitələr, istehsal və mədəniyyət obyektləri, iş və məhsuldar heyvanlar, çoxillik bitkilər, bitki mühafizəsi vasitələri, toxum, yem, xammal,

yanacaq) daxil edilir. Texnoloji əməliyyat prosesində təbii ehtiyatlardan (torpaq, su) istifadə olunur. Maddi-texniki bazanın bütün elementləri istehsalın müəyyən formaları vasitəsilə bir və ya digər texnoloji prosesə birləşdirilir.

Kənd təsərrüfatı istehsalının maddi-texniki bazasının tədqiqi və təhlilinə əsasən qeyd etmək lazımdır ki, onun formalaşması və bərpası üçün iqtisadi mexanizm iki fərqli qrupun hərəkətləri ilə xarakterizə olunur. Bu amillərin bir qrupu kənd təsərrüfatının üfüqi iqtisadi münasibətləri ilə əlaqəli olmaqla mühəndislik, energetika, kimya sənayesi, tikinti və iqtisadiyyatın digər sahələrində istifadə olunur [127, s. 337].

Məlum olduğu kimi torpaq kənd təsərrüfatında əsas və əvəzedilməz istehsal vasitəsidir. Onsuz kənd təsərrüfatı məhsulları istehsalı qeyri-mümkündür. Təsərrüfatların istehsal həcminin artırılması o vaxt mümkündür ki, torpağın məhsuldarlığı yüksəldilmiş olsun. Torpağın düzgün istifadə edilməsi təsərrüfatların iqtisadiyyatının möhkəmlənməsi üçün əsas şərtdir.

Torpaq resurslarından səmərəli istifadə etmək üçün ilk növbədə ondan istifadəni yaxşılaşdırmaq lazımdır. Kənd təsərrüfatının spesifik xüsusiyyətlərinə və təbiətinə görə, torpaq istehsal prosesinin qeyri-mümkün olmadığı xüsusi bir işgüzar vasitədir. K.Marksın sözlərinə görə, "torpaq istehsalın aparılacağı element, istehsal prosesinə istehsal şərtlərindən biri kimi daxil olur ..." [16, s. 171]. İstehsal potensialının artırılması əkin sahələrinin ölçüsü və strukturundan deyil, əsasən torpaqların iqtisadi məhsuldarlığından asılı olur. Yəni istehsal potensialının artırılması torpağın iqtisadi münbitliyinin artırılmasını şərtləndirir. Süni münbitliklə təbii münbitliyin elmi əsaslarla qarşılıqlı əlaqələndirilməsi iqtisadi münbitliyi formalaşdırır. Buna görə də, torpaq istehsal potensialının artırılmasında yalnız kəmiyyət, həm də keyfiyyət xüsusiyyətləri ilə təmsil olunmalıdır. Bundan əlavə, torpaq müstəsna əhəmiyyətə malikdir. O, kənd təsərrüfatının məhsuldar potensialının ayrılmaz bir

hissəsi və ən əsası, istehsal potensialının bir hissəsi kimi xarakterizə olunur. Torpaqların məhsuldar potensialı olmadan potensial məhsuldarlıqdan məqsədəuyğun şəkildə istifadə oluna bilməz. Kənd təsərrüfatı məhsullarının məhsuldarlığının artırılmasında ən vacib şey torpağın məhsuldar potensialıdır. Buna görə istehsal potensialının səmərəliliyini müəyyən etmək üçün torpağın istehsal gücü əsas götürülür.

Torpaqlardan istifadənin yaxşılaşdırılması üçün əkinçilik mədəniyyətinin yüksəldilməsi və ekoloji təmiz məhsul istehsalı başlıca şərtdir. Bu sahədə ən mühüm olan əkin dövriyyəsnin düzgün tətbiqidir. Onu da qeyd edək ki, əkin dövriyyəsindən müəyyən qədər kollektivçilik sistemində istifadə olunurdu. Yəni belə bir təcrübə respublikamızın kənd təsərrüfatında mövcud olub. Əkinçilik sahəsində aparılan təcrübələr göstərir ki, əkin dövriyyəsindən düzgün istifadə olunduqda sahədən məhsuldarlıq 30-40% və daha şox yüksəldilə bilər.

Əkin dövriyyəsinin tətbiq edilməsi əmək və material məsariflərinin azaldılmasına və məhsul istehsalının səmərəliliyinin yüksəldilməsinə şərait yaradır [32, s. 68].

Yalnız əkin dövriyyəsini düzgün tətbiq etməklə məhsul istehsalını artırmaq, istehsal xərclərini azaltmaq, istehsalın səmərəliliyini yüksəltmək və rəqabətqabiliyyətin artırılmasına nail olmaq mümkündür. Təbii ki, hazırkı sahibkarlıq şəraitində əkin dövriyyəsini yaxşılaşdırmaq və növbəli əkin sistemini tətbiq etmək daha kiçik pay torpaqlarına sahib olan (1-1,5ha) təsərrüfatlar üçün çox çətindir. Odur ki, növbəli əkin sisteminin tətbiqi üçün kənd təsərrüfatında sənayeləşmənin sürətlənməsi, ixtisaslaşmanın stimullaşdırılması, yəni torpaqların konsolidasiyasının, iri təsərrüfat birliklərinin (kooperativ, birgə təsərrüfat və.s) yaradılması daha məqsədəuyğundur.

Torpaq resursundan səmərəli istifadə etmək üçün innovativ texnologiyaların tətbiqinin də böyük əhəmiyyəti vardr. Bu həm də

öz növbəsində istehsal vasitələrindən səmərəli istifadə etməni də özündə əks etdirir.

Yüksək və keyfiyyətli məhsul əldə etmək üçün mineral və üzvü gübrələrdən düzgün və vaxtında istifadə etməyin böyük iqtisadi əhəmiyyəti vardır, eyni zamanda torpağın iqtisadi münbitliyini qorumaq gələcək illərdə məhsul istehsalının dayanıqlı inkişafını təmin edir.

Aparılan müşahidə və araşdırmalar göstərir ki, aqrar və torpaq islahatların aparılması, mal-qaranın xüsusi mülkiyyətə verilməsi, yən i xüsusi mülkiyyətə əsaslanan təsərrüfatçılıq sisteminə keçilməsi iri heyandarlıq kompleksləri sıradan çıxmasına, heyvanların saxlanılması və bəslənməsinin qapalı şəraitdən əsasən açıq şəraitə (otarılması) keçməsi ilə nəticələnmişdir. Əvvəlki illərlə müqayisədə heyvanların baş sayının artmasına baxmayaraq heyvanların, xüsusən də iri buynuzlu mal-qaranın düzgün saxlanılmaması üzvü gübrəldən istifadə imkanlarını məhdudlaşdırmışdır. Əkin sahələrinin təbii münbitliyini qorumaqda və ekoloji təmiz məhsul istehsalında qiymətli olan üzvi gübrələrdən səmərəsiz istifadə olunması heyvandarlığın da iqtisadi səmərəliliyinə təsirsiz keçməmişdir. Başqa sözlə, heyvanların düzgün saxlanılmaması bu sahədə istifadə olunan resursların səmərəliliyini aşağı salır.

Üzvü gübrələrin çatışmamazlığı təsərrüfatların daha çox mineral gübrələrdən istifadə edilməsinə ehtiyac yaradır ki, bu ekoloji təmiz məhsul istehsalına mənfi təsir göstərməklə yanaşı istehsal xərclərinin artmasına səbəb olur. Mineral gübrələrdən istifadə olunması zamanı torpağın tərkibi və növü, becərilən bitkilərin texnoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Bu da ciddi elmi biliyə və çoxillik təcrübəyə əsaslanan ixtisaslaşmış fəaliyyəti şərtləndirir. Hazırda tərəvəz-bostan məhsullarının becərilməsində mineral gübrələrdən geniş istifadə edilir ki, bu da istehsal edilən məhsulun rəqabətqabiliyyətini kəskin aşağı salır, istehsalın zərərlə yekunlaşdırılması ilə nəticələnir.

Onu da qeyd edək ki, ilkin islahatlar dövründə ölkədə mineral gübrələrin çatışmazlığı yaranmışdı ki, bu da çoxlu məhsul itkisi demək idi. 2010-cu ildə cəmi əkin sahəsinin 34%-i, 2011-ci ildə 54%-i, 2012-ci ildə 61%-i, 2013-cü ildə 68%-i, 2014-cü ildə 46%-i və 2015-ci ildə isə 58% - nə, 2016-cı ildə isə 70%-nə mineral gübrə verilmişdir.

Kənd təsərrüfatında əldə edilən bitkiçilik məhsullarının 50%-dən çoxu mineral gübrələr hesabına olur. Bitkiçilik məhsulları isə öz inkişaf və vegetasiya dövründə tələb etdiyi qidalı maddələri torpaqdan almağa çalışır və mineral gübrələrələ tam təmin olunmayan torpaqlar illər keçdikcə öz münbitliyini daha da itirmiş olur. Bu halda keçən müddət ərzində məhsul itkisi milyonlarla ölçülür və eyni zamanda torpaqların münbitliyinin bərpası milyonlarla vəsait tələb edir desək yanılmarıq.

Digər tərəfdən mineral gübrələrdən çox istifadə edilməsi ekoloji tarazlığın pozulmasına, torpaqların daha çox kimyəvi maddələrlə zəhərlənməsinə səbəb ola bilər. Məhz bu baxımdan torpaqların iqtisadi münbitliyini qorumaq mineral gübrələrdən istifadə səviyyəsini optimallaşdırmaq və üzvü gübrələrdən, yaşıl gübrələrdən və biogübrələrdən istifadə edilməsində müvafiq layihələrin həyata keçirlməsi məqsədəuyğundur. Bu həmdə istehsal xərclərin azaldılmasına imkan verə bilər.

H.Ə.Aslanov qeyd edir: "Dunyada istehsal olunan kənd təsərrüfatı məhsullarının 50%-ə qədəri gübrələrin hesabınadır. Odur ki, torpağa gübrə vermədən yüksək məhsul istehsalı mümkün deyidir. Azərbaycanın torpaq - iqlim şəraiti imkan verir ki, istənilən kənd təsərrüfatı məhsulları ilə biz özümüzü tam təmin etməklə, eyni zamanda xarici bazarlara da məhsul çıxarmaq mümkündür. Buna görə də birinci növbədə növbəli əkin strukturuna keçirlməsi ilə torpaqların münbitliyinin artırılması təmin olunmalı, üzvi və mineral gübrələrdən, müxtəlif kimyəvi maddələrdən istifadə zamanı optimallığın gözlənilməsi, müasir suvarma texnologiyaları tətbiq

olunmalı, əkin sahələrinin genişləndirilməsinə xüsusi fikir verilməlidir. Torpaqların və becərilən bitkilərin xüsusiyyətləri nəzərə alınmaqla elmi cəhətdən əsaslandırılmış gübrələnmə sistemi həyata keçirilməlidir” [111, s. 8].

Hazırda dünyanın hər yerində olduğu kimi Azərbaycanda da ekoloji təmiz məhsul istehsalına nail olması və ətraf mühitə zərər yetirilməsinin qarşısının alınması aktual məsələlərdən hesab olunur. Məhz bu baxımdan mineral kübrələrdən və kimyəvi pereparatlardan istifadə olunduqda bu məsələlər diqqətə alınmalıdır. H.Ə.Aslanovun qeyd etdiyi kimi, kimyəvi vasitələrdən istifadədə elmi əsaslandırma olmalıdır və bu əsaslandırma sağlam ərzaq məhsulunu istehsalına təminat verməlidir.

Eyni zamanda, istehsal olunan xammalın və məhsulların ekoloji keyfiyyətinin gözlənilməsi onun xarici bazarlara ixracını asanlaşdırmaqla qoyulan beynəlxalq tələblərə cavab verməsinə geniş imkanlar açır.

Kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında su ehtiyatlarından səmərəli sitifadə edilməsi mühüm iqtisadi əhəmiyyət kəsb etdiyindən suvarma sistemləri elə qurulmalıdır ki, burada torpaqların mexaniki, fiziki-kimvəvi xassələri qorunsun, qrunt sularının səviyyəsi nəzərə alınsın və su ehtiyatlarından səmərəli istifadə olunsun. Məlum olduğu kimi Respublikamızın Aran iqtisadi rayonunda qrunt suları torpağın üst qatına yaxındır və bu torpaqda olan mineralların yuxarı qalxması şoranlaşma dərəcələrini artırır. Belə olan halda irriqasiya və melorasiya işlərinin aparılması və səmərəli mühəndis layihələrinin işlənilməsi tələb olunur və layihəyəyə əsaslnan suvarma sistemləri elə işlənilməlidir ki, uzun müddətli istifadəyə yararlı olmaqla məhsul istehsalına çəkilən xərclərin aşağı salınmasına şərait yaratsın.

Ölkəmizdə su ehtiyatlarının yaranması, onun kəmiyyət və keyfiyyət göstəriciləri, hər şeydən əvvəl, ərazinin təbii - iqlim şəraitindən və relyefindən, coğrafi yerləşməsinə təsir edən bir çox

amillərdən asılıdır. Ərazimizin kiçik olmasına baxmayaraq, onun olduqca mürəkkəb təbii - iqlim şəraitinə və müxtəlif relyefə malik olması burada su ehtiyatlarının həcminə və ərazi üzrə paylaşmasına böyük təsir göstərir. Kənd təsərrüfatı istehsalı baxımından su ehtiyatlarının fəsillər üzrə paylanmasının əhəmiyyəti daha böyükdür. Su ehtiyatları ərazi üzrə qeyri - bərabər paylandığı kimi, fəsillərə görə də fərqlənir. Yay aylarında axan susyun həcmi kəskin azalır. Çaylardan axan suyun 60%-dən çoxu yaz aylarında (mart - iyun) olur, yay aylarında (iyul) onun həcmi 10-15%-ə qədər azalır [132, s. 35].

Qeyd edək ki, bir çox məhsulların vegetasiya (kartof, tərvəz, və s) dövrünün uzun olması onların yay aylarında suvarılmasında ciddi çətinliklərlə üzləşməsinə səbəb olur. Gəncə - Qazax iqtisadi rayonu ərazisində suvarma sularında daha çox çətinliklər yarandığında artezan sularından istifadə olunur. Onu da qeyd edək ki, son illərdə istifadəyə verilən artezan sularının tərkibinə baxılmadan etinasız yanaşmalarla suvarma üçün istifadəyə verilərək suvarmanın təmin edilməsinə baxmayaraq torpağa və məhsullara ciddi zərər verilir. Burada yerin alt qatından su ilə bərabər çıxan ağır metalların torpağa verilməsi gələcəkdə torpaqların münbitliyinin azalmasına və iqtisadi səmərəliliyinin aşağı düşməsinə şərait yaradır.

Aparılan araşdırmalar göstərir ki, məhsulların yetişməsində su ehtiyatlarından səmərəli istifadə etmənin böyük iqtisadi əhəmiyyəti vardır və bitkilərin vegetasiya dövründən asılı olaraq bir neçə dəfə suvarılması tələb olunduğundan (məsələn, pomidorun yetişdirilməsi üçün 15-16 dəfə suvarılması tələb olunur) su mənbələrinin yaradılması və ondan səmərəli istifadə olunması məhsuldarlığın yüksəldilməsinə səbəb olur.

Qeyd edək ki, bitkiçilik məhsulların məhsuldarlığının yüksəldilməsi mineral gübrələrdən düzgün istifadə edilməsindən çox asılıdır. Eyni zamanda mineral gübrələr verildikdə onun şum altına

verilib qidalı maddələrə çevrilməsi üçün vaxtında suvarılmasının aparılması tələb olunan vacib məsələlərdən biridir. Torpaqdan daim istifadə olunması və bitkiçilik məhsullarının davamlı olaraq becərilməsi nəticəsində torpaqdan çoxlu qida maddələri mənimsənilir və torpaq getdikcə qüvvədən düşür ki, nəticədə məhsuldarlıq kəskin aşağı düşür.

Kənd təsərrüfatında əsas resurslardan biri də əmək ehtiyatlarından səmərəli istifadə olunmasıdır. Qeyd edək ki, 2005-ci ildə əhalinin sayı 8447,4 min nəfər, məşğul əhalinin sayı 4062,3 min nəfər, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda məşğul olanların sayı 1573,6 min nəfər (38,7%), 2016-cı ildə əhalinin sayı 9810,0 min nəfər, məşğul əhalinin sayı 4759,9 min nəfər, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda məğul olanların sayı 1729,6 min nəfər (36,3%) təşkil etmişdir.

Planlaşdırılan iqtisadiyyatda əməyin düzgün təşkil edilməsində iş yerinin bütün lazımı vasitələrlə təmin edilməsinin, yerinə yetirilən işlərin texnoloji xəritələr üzrə düzgün aparılmasının mühüm rolu vardı. Burada həm əmək ehtiyatlarından səmərəli istifadə olunur, həmdə yerinə yetirilən işlər aqrotexniki qaydalara uyğun aparıldığından məhsuldarlıq yüksək olur və nəticədə sərf olunan adam - günə, adam - saata düşən istehsal və digər iqtisadi göstəricilər yüksək olur. Xüsusi mülkiyyətə keçdikdən sonra bu sistem tamamilə pozuldu və kənd təsərrüfatı istehsalı sahələrinin yanında yaranmış digər sahələr sıradan çıxdı. Hazırda kənd təsərrüfatında məşğul əhalinin sayının 2 milyona çatması müsbət iqtisadi göstərici hesab oluna bilməz. Bu, birinci növbədə əldə edilən gəlirlərin adambaşına bölgüsündə özünü göstərir.

Məsələn, İtaliya kənd təsərrüfatının ölkənin ümumi daxili məhsulunda payı 10%, bu sahədə çalışan əhali isə iqtisadi fəal əhalinin 14%-ni təşkil edir. Qeyd edək ki, İtaliya kənd təsərrüfatı Avropa kənd təsərrüfatında mühüm rol oynayır. İtaliyanın şimalında kənd təsərrüfatı daha çox məhsuldarlığa malikdir və burada kənd təsər-

rüfatının mexanikləşmə və mineral gübrələrdən istifadə səviyyəsi yüksəkdir. Eyni zamanda, son illərdə əhalinin müyyən hissəsi kənd təsərrüfatı məhsulları istehsalı sahəsindən digər sahələrə xidmət və emal sahələrinə keçməyə başlamışdır ki, bu da gəlirlərin artırılması üçün atılan addımlardır.

Hazırda ölkəmizdə kənd təsərrüfatında çalışan təsərrüfat sahiblərinin və onların üzvlərinin istehsal istiqamətindən asılı olaraq məşğulluq səviyyəsi müxtəlidir. Xüsusi ilə bitkiçilik sahəsində çalışanların məşğulluq səviyyəsi sahənin əmək tutumundan çox asılıdır. Məsələn, taxılçılıqla məşğul olanlar və ya meyvəçiliklə, tərəvəzçiliklə məşğul olan təsərrüfatlarda çalışanların fəaliyyəti mövsumi xarater daşıyır, bəzi sahələr daha az əmək tutumlu, bəzi sahələr daha çox əmək tutumlu olmasına baxmayaraq əmək ehtiyatlarından və gücündən yekunda səmərəsiz istifadə olunur. Nəticədə orta aylıq gəlir aşağı olur ki, bu da əsasən minimum istehlak zənbilinin aylıq normasından aşağı olur.

Məlum olduğu kimi, insanlar əmək qabiliyyətinə, əmək məhsuldarlığının səviyyəsinə, tələbatına, ailə vəziyyətinə, uşaqlarının sayına və s. görə eyni deyildir və eyni ola da bilməz. Deməli istehlak mallarının faktiki bölgüsü zamanı onlara düşən hissənin eyni olması da formaldır. Ona görə də, insanlar öz tələbatını ödəmək üçün cəmiyyətdən müxtəlif miqdarda maddi nemətlər almalıdırlar. Bu onların sərf etdiyi əməyin kəmiyyət və keyfiyyətinə uyğun olduğu halda insanlar məhsul istehsalını və əmək məhsuldarlığını yüksəlməyə maraqlı olurlar [118, s.10].

Alman filosofu Hegelin qeyd etdiyi kimi, "insanları hərəkət etdirən onların maraqlarıdır". Yəni, insanlar daima fəaliyyətlərini maraqları üzərində tənzimləmişlər və bu gündə insanlar maraqlarının təmin olunduğu istiqamətdə öz fəaliyyətlərini qurmağa çalışırlar. Təbii müasir dünyada bütün fəaliyyətlər qanunun icazə verdiyi istiqamətlərdən asılı olaraq qurulur və insanlar bu istiqamətlərdə maraqlarının təmin olunduğu fəaliyyət növlərini seçirlər.

Əməyin elmi əsaslarla nizamlanaraq təşkil olunmasının əsas məslələrindən biri də əmək ehtiyatlarından səmərəli istifadə və boş dayanmaların aradan qaldırılmasıdır.

Səmərəli iş və istirahət rejimi, həmçinin lazımı səviyyədə sanitariya - gigiyena şəraiti (bu gün insanlar tərəfindən emal olunan məhsullar və kənd təsərrüfatı məhsullarının satış bazarlarında və s.) yaradılmasının, təhlükəsizlik texnikasına əməl edilməsinin, kimyəvi zəhərlənmələrdən mühafizə və sairə məsələlərə əməl edilməsinin böyük əhəmiyyəti vardır. Təsərrüfat sahiblərinin və təsərrüfatda çalışanların bilik səviyyəsini artırılmasının, maarifləndirilməsinin, savadlı kadrların, mexanizatorların hazırlanmasının böyük iqtisadi əhəmiyyəti vardır. Bu məsələlərin müasir iqtisadi şəraitdə öz həllini tapması ilk növbədə Azərbaycanda müasir kənd təsərrüfatının yaradılmasına şərait yaradan amillərdən hesab olunur.

Ölkənin qida və xammal üçün tələbatının təmin edilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi və milli iqtisadiyyatın bu vacib sahəsinin səmərəliliyinin artırılması üçün kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılmasında istehsal resurslarının məhsuldar potensialından istifadənin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması ən vacib şərtlərdən biridir. Kənd təsərrüfatının istehsal potensialını artırmaq üçün ilk növbədə torpaqların bərpa olunmasını sürətləndirmək, məhsuldar heyvanların sayını artırmaq, kənd təsərrüfatı obyektlərini və sənaye binalarını müasir tələblərə cavab səviyyəsinə gətirmək lazımdır. Kənd təsərrüfatında istehsal resurslarının məhsuldar potensialından səmərəli istifadə etmək üçün aşağıdakı əsas prinsiplərə diqqət yetirmək lazımdır: bütövlüyə (və ya mürəkkəbliyə) - istehsalın tam təmin edilməsi vəzifələrini həll etmək üçün lazım olan hər cür resurslarla təmin edilməlidir; mütənasiblik - müəyyən bir strukturun optimal kəmiyyət nisbətlərinin istehsal fərdi elementləri arasında uyğunluq; normativlik - çıxış və ya iş vahidinin istehsalına maneə xərclərinin elmi cəhətdən əsaslandırılmış normalarının tətbiqi; məqsədəuyğunluq - bütün obyek-

tiv şərtləri nəzərə alaraq xüsusi problemləri həll etmək üçün zəruri resursların konsentrasiyası.

İstehsalın intensivləşdirilməsi, əsas və əlavə istehsal sahələrinin bir-birilə düzgün əlaqələndirilməsi mövcud əmək ehtiyatlarından il ərzində daha dolğun istifadə etməkdən ötrü geniş yol açır. Son illərda ayrı-ayrı istehsal sahələri üzrə hazırlanan proqramların həyata keçirilməsi və gələcəkdə inkişafı nəzərdə tutulan istehsal sahələrinin genişləndirilməsi işçi qüvvəsindən bərabər halda səmərəli istifadə edilməsini tələb edir. Kənd təsərrüfatı istehsalının xüsusiyyəti təsərrüfatın hərtərəfli inkişaf etdirilməsini, daha doğrusu, əsas istehsal sahəsi ilə yanaşı digər sahələrinin də inkişaf etməsini tələb edir. Belə olduğu halda daxili təsərrüfat imkanlarından, torpaqdan və əmək ehtiyatlarından daha səmərəli istifadə olunur, əkinçilik mədəniyyəti yüksəlir.

## 1.2. İxrac potensialını şərtləndirən amillər, idxal və ixracyönlü kənd təsərrüfatının formalaşmasının iqtisadi mühiti

Aqrar islahatların aparılmasından sonra kənd təsərrüfatında baş verən çətinliklər əsasən kənd təsərrüfatı müəssisələri, yeni yaranan digər müxtəlif təsərrüfat formaları və digər sənaye sahələri arasındakı münasibətlərin düzgün qurulmaması ilə bağlıdır. Məsələn, öz inhisar mövqeyindən istifadə edərək banklar uzun müddət təsərrüfatlara verilən kreditlərin faizini əhəmiyyətli dərəcədə artırır və emal müəssisələri isə kənd təsərrüfatı məhsullarının istehsalçılarından alınan məhsulların qiymətini istədikləri səviyyəyə qədər endirirlər. Üstəlik, belə bazarlıqlarda hətta emal müəssisələri təsərrüfatlarla vaxtında hesablaşma hesablarını aparmırlar və istehsalçılara çatacaq vəsaitin vaxtında ödənilməsini təmin etmirlər. Bu kimi halların baş verməsi kənd təsərrüfatı məhsulları istehsalçılarının iqtisadi fəaliyyətlərini çətinləşdirir və bununla da xam-

mal və məhsul istehsalında ciddi azalmalar baş verir. Bu kimi tendensiyaların davam etməsi emal müəssisələrinin özlərinin iqtisadi vəziyyətinə mənfi təsir göstərir. Eyni zamanda, öz istehsal imkanlarını genişləndirməkdə ciddi problemlə üzləşən emal sahələri çox çeşidli məhsul istehsal edə bilmir. Emal müəssisələri səmərəli fəaliyyət göstərmələri və istehsal gücündən tam istifadə etmələri kənd təsərrüfatı istehsalçıları ilə münasibətlərin yaxşılaşdırmasını, yəni daha ədalətli bir şəkildə istehsalçılarla düzgün iqtisadi münasibətlərin qurulmasını şərtləndirir.

Qeyri - neft sektorunun, xüsusən də aqrar süektorun inkişafı istiqamətində hazırda hüquqi bazanın təkmilləşməsinə və qəbul edilən dövlət proqramlarına baxmayaraq, iqtisadi cəhətdən zəifləmiş kənd təsərrüfatı və emal müəssisələri resurs potensialının məhdudluğu mühitində istehsalın səmərəliliyini yüksəltmək üçün istehsal xərclərini azaltmağa çalışlar. Lakin istehsal həcminin azaldığı bir mühitdə istehsalın modernləşdirilməsi maliyyə çatışmazlığı səbəbindən həyata keçirilə bilmir. Bu kimi arzuolunmaz situasiyalar ölkəmizdə kənd təsərrüfatı üçün müəyyən qədər istehsal resursları (bəzi istehsal alətləri və mineral gübrələr) hasil edən müəssisələrin iqtisadiyyatına mənfi təsir göstərmiş və onların fəaliyyətləri zəifləmişdir. Kənd təsərrüfatının texniki təminatı idxal olunan resurslardan asılı olduğundan rəqabətqabiliyyətli yüksək keyfiyyətli məhsul istehsalı çətinləşmişdir. Eyni zamanda, yeni texnologiyalarla istehsal olunan istehsal vasitələrinə qiymətlər sürətlə artmağa başladı. Bu proses MDB üzvlərinin əksəriyyətində baş verdiyindən və dünya dövlətlərində yeni inkişaf istiqamətlərinin müəyyən edildiyindən kənd təsərrüfatı üçün tələb olunan istehsal resurslarına olan tələbat daha da çoxaldı. Məhz bu amilin fenomenliyi baxımından qiymətlərin daha da artmasına səbəb kimi maşınqayırma və digər müəssisələrin öz mənfəətlərini artırmaq istəyi kimi də qəbul edilə bilər. Bununla belə, təhlillər göstərir ki, bu kifayət deyil. Faktiki olaraq, məhsulların satış həcmində birdən çox azalma bu

müəssisələrin traktorlar, kombaynlar və digər avadanlıq və istehsal resurslarının qiymətinin artmasına səbəb olur. Əks təqdirdə, xərcləri ödəmək mümkün olmayacaq, yəni sahədən məhsuldarlığı artırmaq innovativ texnologiyalardan istifadə edilməsə mümkün olmayacaq.

İnkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı iqtisadiyyatının böhran vəziyyətindən çıxarılması onların sahələrinin davamlı fəaliyyətinin, yerli qida məhsullarının rəqabət qabiliyyətinin təmin edilməsinin, innovativ proseslərin fəallaşdırılmasının zəruriliyinə səbəb olur. Son illərin təhlili göstərir ki, burada hələ də maliyyə və mənəvi cəhətdən köhnəlmiş texnologiyalar, bitki sortları, təkmil metodlar, həmçinin istehsal və idarəetmə üsulları istifadə olunur. Tətbiqi fəaliyyətin yoxlanılmış mexanizmləri, müvafiq elmi-texniki informasiya sistemi ilə bazar iqtisadiyyatının səmərəli qarşılıqlı fəaliyyətinin yoxlanılmış mexanizmi deklarla tətbiqi strukturlar arasında olduqca zəifdir. Yəni innovasiyaların həddən artıq aşağı səviyyəsi innovasiyaların inkişafının təşkilati-iqtisadi mexanizminin mükəmməl olmaması ilə birbaşa bağlıdır. Bütün bu amillər kənd təsərrüfatı sektoru subyektlərinin deqradasiyasını daha da dərinləşdirir, xərclərinin artmasına, habelə rəqabət qabiliyyətinin azalmasına səbəb olur, yerlərdə sosial-iqtisadi inkişafı pozur və kənd yerlərində yaşayış səviyyəsinin yüksəldilməsi ehtimalını sıfıra endirir [15, s. 479].

Qeyd edək ki, hazırda kənd təsərrüfatında innovativ texnologiyalarda istifadə səviyyəsinin aşağı olması torpaq və maliyyə resurslarından səmərəli istifadə səviyyəsini aşağı salır. Belə ki, məhsuldarlığın aşağı düşməsi xərclərin yüksək olmasına səbəb olmaqla xaricə ixrac həcminin azalmasına və idxalın artmasına səbəb olur.

Beynəlxalq təcrübədə, bir qayda olaraq, ixrac potensialının artması üçün əlverişli şərait yaratmaq baxımından ölkələr iqtisadiyyatın islahatına dair təkliflər hazırlayırlar. Bu problemin həlli

iqtisadi islahatın ümumi və aralıq məqsədlərinə nail olmaq və həyata keçirmək üçün əsasdır. Ölkənin ixrac potensialını müəyyən edən ən vacib amil ölkədə müqayisəli üstünlüklərin mövcudluğudır. Erkən mərhələlərdə torpaq, əmək, kapital kimi istehsal amilləri ön plana çıxdıqda, inkişafın hazırkı mərhələsində ölkənin iqtisadi inkişafı üçün lazımi şərait yaratmaq qabiliyyəti, itkin faktların inkişafını stimullaşdıran müəyyən rol oynayır. Məsələn, Qazaxıstan torpaq və ucuz əmək kimi bir sıra müqayisəli üstünlüklərlə, kapital kimi bir amilin olmaması ilə xarakterizə olunur. Digər müqayisəli üstünlük yüksək təhsil səviyyəsi və təhsili olan ucuz işçi qüvvəsidir [25, s. 45-46].

Kənd təsərrüfatında ixrac imkanları rəqabətqabiliyyətli məhsulların istehsalı üçün yerli xammal ehtiyatları ilə və son nəticədə məhsul istehsalının həcminə görə müəyyən edilir. Eyni zamanda, yekun satılan məhsulun istehsalı üçün potensial xammal kimi tam fəaliyyət göstərə bilməyən kənd təsərrüfatının xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Daxili ehtiyaclar kənd təsərrüfatının ərzaq məhsulları üçün əhalinin ödəmə qabiliyyətli tələbatından, xammal isə emal müəssisələrinin tələbatından asılıdır. Digər tərəfdən, ixracın artırılmasında məhsulların rəqabət qabiliyyətliliyi ən əhəmiyyətli rol oynamasına baxmayaraq, hazırda istehsal olunan məhsullar əksər parametrlər üçün dünya standartlarına cavab vermir.

Problemin vəziyyətinin təhlili və qiymətləndirilməsi göstərir ki, ölkəmizdə yerli xammaldan və resurs ehtiyatlarından düzgün və səmərəli istifadə etməklə müxtəlif növ məhsulların istehsalının artırılması və ixracı üçün real imkanlar mövcuddur: birincisi, kənd təsərrüfatı məhsullarının ixracı üçün xammal bazası tarixən əlverişli torpaq-iqlim və iqtisadi şəraitdə inkişaf etmişdir; ikincisi, kənd təsərrüfatında yerli xammalı tədarük edən istehsal prosesləri əsasən torpaqdan səmərəli istifadənin və istehsalın intensivləşdirilməsinin dərəcəsi ilə müəyyən edilir; üçüncüsü, iqtisadiyyatda çətinliklərin mövcudluğu şəraitində və hətta aqrar-sənaye emal

müəssisələrinin texniki təchizatının qeyri-kafi olması ilə xammal bazasının inkişaf səviyyəsi kənd təsərrüfatı xammalının istehsalını artırmaq və emal sənayesinin son məhsulunu ixrac etməyə imkan verir.

Yuxarıda qeyd edilənlərə uyğun olaraq deyə bilərik ki, ixracın artırılması üçün ən vacib istiqamətlər aşağıdakılardır:

- istehsalçıların istehsalın müxtəlif üsullarla, o cümlədən birinci olaraq prioritet kreditləşmə və s. kimi stimullaşdırmaqla ixrac potensialının qurulmasında maraqlı olmasını təmin edən şəraitin yaradılması;
- rentabelli məhsul istehsalını həyata keçirməyə imkan verən qiymətlərin uyğunluğunun təmin edilməsi;
- istehsalın intensivləşdirilməsi, keyfiyyətli məhsulların alınmasını təmin edən perspektivli texnologiyaların tətbiqi;
- aqrar sahədə marketinq fəaliyyətinin inkişafı;
- kənd təsərrüfatı və emal sektorlarında mövcud olan istehsal sahələrinin yenidən qurulması;
- istehsalın yenidən qurulması;
- məhsul ixracının idarəetmə sisteminin təkmilləşdirilməsi;
- kənd təsərrüfatın müxtəlif təsərrüfatı formaları ilə emal müəssisələri arasında əlaqlərin qurulmasının təkmilləşdirilməsi [113, s. 3].

Apardığımız təhlillərdən belə qənaətə gəlirik ki, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olması mümkündür, bu şərtlə ki, milli maraqlarımıza xələllik gəlməsin. Hesab edirik ki, bu, yalnız MDB ölkələrinə deyil, həm də Avropa bazarlarına kənd təsərrüfatı məhsullarının ixrac imkanlarını əhəmiyyətli dərəcədə artıracaqdır. Bununla yanaşı, ÜTT-yə daxil olmaq yerli aqro-ərzaq bazarının digər ölkələrindən olan rəqiblər üçün birtərəfli açılış demək deyil. Azərbaycan yerli istehsalçıların mənafelərini qorumaq və müəyyən tədbirlərin həyata keçirilməsi üçün ÜTT-nin beynəlxalq norma və prosedurlarına uyğun olaraq fürsəti də itirməməlidir.

Qeyd edək ki, kənd təsərrüfatı məhsullarının ixrac potensialı milli iqtisadiyyatımızın əsas üzvlərindən birinə çevrilməlidir. Bu, milli iqtisadiyyatın beynəlxalq bazarda rəqabət qabiliyyətli məhsullar istehsal etməyə və onu tələb olunan həcmdə və müəyyən edilmiş dünya bazar qiymətlərində ixrac etməsini nəzərdə tutur. Kənd təsərrüfatı məhsullarının ixracının əsas rolu onun inkişafı üçün mövcud olan rəqabətli perspektivləri istifadə etmək və aktivləşdirmək kənd təsərrüfatının istehsal potensialından asılıdır.

Bu günə qədər Azərbaycan kənd təsərrüfatının inkişafında müsbət tendensiya yaranmaqdadır, müvafiq addımlar atılır və bitkiçilik və heyvandarlıq məhsulları istehsalında artım müşahidə olunur.

Kənd təsərrüfatında müşahidə olunan müsbət tendensiyalara uyğun olaraq deyə bilərik ki, kənd təsərrüfatı məhsullarının ixrac imkanları genişlənməkdədir. Azərbaycan xaricə kənd təsərrüfatı məhsullarından pomidor, kartof, meyvə, bitki yağları, üzüm şərabı və s ixrac edir və bu məhsullarının ixracının genişləndirilməsi üçün çoxlu potensial imkanlar mövcuddur.

Kənd təsərrüfatı məhsullarının istehsal həcminin, o cümlədən ixracın artırılması üçün istehsalın və ixracın modernləşmə və texniki yenidənqurması üçün böyük həcmdə investisiyalar tələb olunur. Məhsulların ixracının artırılmasına dair layihələrin hazırlanması zamanı mövcud istehsal potensialları ilə təmin olunmayan istehsal sahələri və onların imkanları nəzərə alınmalıdır.

Məhsul ixrac etməmişdən öncə ixracın inkişaf strategiyasından irəli gələn tədbirlərin yerinə yetrilməsi üsullarını kənd təsərrüfatı məhsullarının ixracının artırılması yolları və mexanizmləri ilə əlaqələndirmək lazımdır. İxracın yerinə yetirilməsi üsulu baxımdan aşağıdakılara diqqət yetrilməsi vacibdir:

- xarici bazarlarda yüksək tələbat olan və valyuta xərcləri üzrə yüksək gəlir təmin edən məhsullara diqqət yetirmək;
- Avropa və Rusiya bazarlarında daha çox paya malik olmaq;

- əmtəə bazarlarının seçilməsində istehlakçı seçiminin qiymətləndirilməsini tətbiq etmək;
- ixrac edilən məhsulların növlər üzrə ixrac ölkələrinə ixracının səmərəliliyini müəyyən etmək;
- müvafiq dövlət tənzimləyicilərindən istifadə etmək üçün respublikanın maraqlarına zərər verəcək kənd təsərrüfatı məhsullarının ixracının qarşısının alınması.

Sözügedən problemin həlli, bir qayda olaraq, öz resurs bazasının mövcudluğu, ucuz əmək, qurulmuş ənənələr, işçilərin zəruri məhsulların istehsalına imkan və istəkləri ilə asanlaşdırılır. Eyni zamanda, kənd təsərrüfatı məhsullarının yüksək əmək tutumu, texniki təchizatın və istehsalın mexanizasiyasının kifayət qədər olmaması və məhsulların əksəriyyətinin yüksək qiyməti rəqabət qabiliyyətinin aşağı olması səbəbindən ixrac üçün məhsulun kəskin artım ehtimalını çətinləşdirir.

Müasir şəraitdə kənd təsərrüfatı məhsullarının xarici bazarların inkişafına əsaslanan ixracın intensivləşdirilməsi aqro-sənaye sahələrinin gələcək inkişafı və sənaye sahələrində səmərəli islahatların aparılması üçün əsas ola bilər və bu xarici ticarət balansının aktiv şəkildə formalaşmasına və digər makroiqtisadi göstəriciləri yaxşılaşdırmağa kömək edəcəkdir.

Qeyd etdiyimiz kimi kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində ən təsirli vasitə istehsal olunan məhsulların səmərəli ixracıdır. Kənd təsərrüfatı məhsullarının ixrac mexanizminin təkmilləşdirilməsi ixrac potensialının artmasına müsbət təsir etməklə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını stimullaşdırır.

Kənd təsərrüfatı məhsullarının ixrac və idxalı kənd təsərrüfatında məhsuldarlığın yüksəlməsində böyük rol oynayır. Belə ki, əgər ölkənin ixracı çox olarsa tələbat daha da artacaq və nəticədə kənd təsərrüfatı məhsulları istehsalı baxımından məhsuldarlıq arta bilər. Kənd təsərrüfatı idxalı infilyasiya göstəricisindən asılıdır. İki ölkənin infilyasiya gösətəricisi fərqlənirsə, aşağı infilyasiyaya

malik ölkədə məhsullara tələb artacaq və məhsul idxalı kənd təsərrüfatı məhsuldarlığının artımına səbəb olacaq. Əgər daha ucuz kənd təsərrüfatı məhsulu idxal edilsə infilyasiyaya görə yerli məhsul üçün tələb artacaq və kənd təsərrüfatı məhsullarının idxalının məhsuldarlığa müsbət təsiri ola bilərkən ixrac da həmçinin kənd təsərrüfatı məhsuldarlığının artmasına səbəb ola bilər, çünki kənd təsərrüfatı məhsullarının ixracı o deməkdir ki, istehsal olunan məhsullara xarici bazarlarda tələbat var və məhsul satışından əldə edilən gəlir təsərrüfatın rentabellik səviyyəsinin yüksəlməsinə təsir edir.

Dünya iqtisadiyyatının inkişaf səviyyəsi və istiqamətləri göstərir ki, istənilən ölkənin müasir iqtisadiyyata nail olunması üçün hər bir dərəcədə və səviyyədə açıq, qlobal iqtisadiyyata və dünya ticarətinə sıx bağlılığı olmalıdır. İxracın və idxalın effektivliyi bu vəziyyətdə biznesin resursların, xammalların, mal və xidmətlərin bazarlarına çıxmasına, kapitalın əlavə sahələrinə, məşğulluğun artırılmasına, beynəlxalq təcrübənin və elmi nailiyyətlərin istifadə olunmasına imkan yaradır. Regionların, sənaye və müəssisələrin rentabelliyi və rəqabət qabiliyyətini artırmaq, istehsal həcmlərini artırmaq, həm gömrük ödənişləri hesabına həm yerli, həm də dövlət büdcəsinin artırılması ölkədə və ya bölgələrdə obyektiv səbəblərə görə istehsal edilə bilməyən idxal məhsullarını almaq imkanı verir.

Elmi ədəbiyyatda kənd təsərrüfatı məhsulları və onun emalı məhsullarının idxalı səbəblərinin bir neçə anlayışı mövcuddur, ən ümumi izah istehsalın olmaması, qeyri-sabitliyi və keyfiyyətinin olmamasıdır, əslində bu məhsulu idxal etmək üçün bir çox səbəblər var. Bunu aşağıdakı kimi izah etmək olar:

- bəzi bölgələrin öz ənənəvi və ya ixtisaslaşmış istehsal sahələrindən uzaq olması. Ölkəyə gələn turistlərin, işləməyə gələn əcnəbi vətəndaşların və ya daimi yaşayış icazəsi olan, vətəndaşlıq alan əcnəbi vətəndaşların öz milli məhsullarına olan tələblərinin ödə-

nilməsi;

- elit tələbatı ödəməyən və keyfiyyət göstəriciləri aşağı olan məhsulların elit tələbatı stimullaşdırmaq üçün idxalı;
- ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə yaranan ehtiyat fondlarda məüyyən edilən həcmin stabil saxlanılması zərurəti.
- Azərbaycan iqtisadiyyatında aqro - sənaye məhsullarının idxalının məhdudlaşdırılması və idxaləvəzləyici istehsalın genişləndirilməsi.

Azərbaycan kənd təsərrüfatında məhsullar müxtəlif təbii iqlim şəraitində istehsal olunur, lakin idxal üçün bir çox başqa səbəblər var - kifayət qədər maddi-texniki bazasının olmaması, inkişaf etmiş kənd təsərrüfatı ölkələrinin texnikaları ilə müqayisədə köhnə texnikalardan istifadə, herbisidlərin, preparatların tətbiqi səviyyəsi də daxil olmaqla, inkişaf etmiş dünya texnologiyalarından çox aşağı səviyyədə olması əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi baxımından idxalı zəruri edir. Digər tərəfdən, beynəlxalq əmək miqrasiyası, turizm, milli mətbəxə olan tələbat və elit məhsullara olan tələbat kimi digər amillər ərzaq idxalının artmasında da bir fakt olaraq mövcuddur.

İstənilən ölkənin iqtisadi inkişafı onun xarici ticarət əlaqələrinin təkmilləşdirilməsindən və genişlənməsindən asılı olduğu və ona müsbət təsir etdiyi şübhəsizdir. Bir çox ölkələr üçün məhz xarici ticarət iqtisadi artımın əsas təkanverici və qidalandırma mənbəyidir. Milli iqtisadiyyatın inkişaf etməsi və onun müasir rəqabətqabiliyyətli texnologiyalara sahib olması üçün xarici ticarətin inkişafı gələcək iqtisadi çətinliklərdən xilas etməklə mənfəətin artırılmasının dinamikliyini təmin edir. Xarici ticarətin milli iqtisadiyyatın inkişafında əhəmiyyətini ümumiləşdirərək aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Ölkə daxilində istehsalı mümkün olmayan və ya istehsalı iqtisadi cəhətdən səmərəli olmayan və daxili tələbatın ödənilməsi üçün zəruri olan məhsulların idxal edilərək ölkəyə gətirilməsi;

2. Ölkə daxilində həddən artıq istehsal imkanları olan və daxili tələbatı ödədiyi səviyyədən yüksək məhsul istehsal edərək ehiyacı olan ölkələrə ixrac etmək;

3. Xarici ticarətin inkişaf etdirilməsi, qeyd etdiyimiz kimi, rəqabətqabiliyyətli texnologiyaların əldə edilməsində mühüm rol oynayan amildir. İstər daxili rəqabət, istərsədə xarici rəqabət, hər iki halda istehsalçılar daha çox bazar payı əldə etmək üçün saf və azad rəqabət prinsiplərinə (bunlar əsasən qanunla tənzimlənir) uyğun şəkildə mübarizə apararaq daha çox istehlakçı rəğbəti qazanmağa çalışırlar. Tək bir misalla bunu izah etmək olar. Sovet iqtisadiyyatında qapalı istehsal onun sahələrini bütün inkişaf istiqamətlərindən məhrum etdi. Sonda zəifləyən iqtisadiyyat İttifaq ölkələrinin birliyinin parçalanmasına rəvac verdi və parçalandığı təqdirdə respublikaların ayrılıqda inkişafları iqtisadi islahatlar aparılmadan mümükünsüz oldu. Amma müasir istehsal texnologiyalarının olmaması ötən illər ərzində tam rəqabətqabiliyyətli istehsala nail olmağı mümkünsüz etmişdir.

4. Xarici ticarətin genişlənməsi ölkəyə yeni məhsulların idaxalını da şərtləndirir. Məsələn, emaldan alınan məhsul çeşidlərinin çoxluğu, elektrotexnikada artan yeniliklər. Bu tip məhsulların idxalı getdikcə artarsa, daxili bazarda belə məhsullara təlabat yüksəlirsə o zaman həmin məhsulun istehsalına maraq göstərilir və məhsulların alternativ istehsalının inkişafına şərait yaranır. Belə olan halda ölkədən xaricə valyuta axını azalır, eyni zamanda yeni iş yerləri açılmaqla əhalinin işlə təmin olunma səviyyəsi yüksəlir, əhali və ümumi ölkənin gəlir və mənfəətləri artmış olur.

5. Xarici ticarət əlaqələrinin genişlənməsinin üstünlüklərindən biri də milli adət-ənənələrin ötürülməsi, partnyor ölkələrin ehtiyacı və üstünlük verdikləri məhsulların və vərdişlərin öyrənilməsini şərtləndirir. Bu məlumatların əldə edilməsi yeni məhsulların, texnologiyaların yaranmasını şərtləndirir.

Kənd təsərrüfatı məhsullarının ixrac olunduğu ölkələrin sayının artırılması və daha çox emal məhsullarının ixracının artırılması qurulan xarici ticarət əlaqələrinin əsas prioritetləri olmalıdır. Çünki, yeni bazarların tapılması və tələblərin öyrənilməsi, yuxarıda qeyd etdiyimiz kimi, məhsul çeşidlərinin sayının artırılmasına və yeni texnologiyaların tətbiqinə şərait yaradır ki, bu da gələcəkdə rəqabətqabiliyyətli məhsul istehsalına imkan verir. Eyni zamanda, yeni bazarların tapılması həm yeni milli texnologiyaların inkişafına da təkan verməklə ixracda tək ölkədən asılılıq səviyyəsini minimuma endirmiş olur və Azərbaycan məhsulunun satışının Rusiya kimi qonşunun bazarından asılı olması məqbul hesab edilə bilməz. Zamanında neftimizin və qazımızın Rusiyadan yan keçməsi ölkəmizin iqtisadi inkişafı üçün daha əlverişli imkanlar yaratmışdır.

Nəzərə almaq lazımdır ki, Azərbaycanın yerləşdiyi coğrafi məkan ona imkan verir ki, həm Şərq dövlətləri, həm Qərb dövlətləri ilə geniş ticarət əlaqələri qursun və məhsulların ixracını həyata keçirsin. Amma burada bir məsələyə də diqqət yetirmək tələb olunur. Bu, daxil olduğumuz bazarın alıcılıq qabiliyyətidir. İnkişaf etmiş dövlətlərlə iqtisadi əlaqələrin genişlənməsi ölkə iqtisadiyyatının inkişafını şərtləndirir, yeni tenologiyaların axınına şərait yaradır və daha çox gəlir əldə etməyə imkan verir. Qeyd edək ki, Avropa Birliyi ölkələrinin bazarlarına daxil olmaq üçün əsas diqqəti məhsul istehsalından sonrakı proseslərə yönəltmək lazımdır. Burada əsas məsələ məhsulun necə çeşidlərə ayrılmasından, məhsulun qablaşdırılmasından və keyfiyyətindən asılıdır. Bunun üçün isə xüsusi ixtisaslaşmış infrastruktura tələb olunur.

Avropa İttifaqı ölkələrinə məhsul ixracı onlarla bağlanan müqavilə əsasında müəyyən edilmiş kvotalar üzrə həyata keçirilir. Bu kvotalar isə ölkənin məhsul istehsalında və daxili tələbatı ödəmək qabiliyyətindən asılıdır. Burada əsas məqsəd öz məhsulunu Avropa bazarlarına ixrac edib, öz daxili tələbatını isə Avropa İttifaqı ölkələri ilə ixrac olunan məhsullar üzrə müqaviləsi olmayan ölkə-

lərdən ucuz alınıb gətirlməsinin qarşısının alınmasıdır. Kvotanın artırılması isə məhsul istehsalının həcminin artırılmasından asılıdır. Azərbaycan kənd təsərrüfatının məhsul istehsalının artırılmasında geniş imkanlar vardır.

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında daha çox heyvandarlıq məhsullarının ixracı iqtisadi cəhətdən əlverişlidir. Eyni zamanda, daha çox xaricə də məhz heyvandarlıq məhsullarının idxalı üzrə valyuta axını baş verir. Məsələn, Hollandiya, Baltikyanı respublikaları və Belarusiya, Braziliya daha çox heyvandarlıq məhsulları ixrac edirlər və bu sahədən daha çox gəlir əldə edirlər.

Finlandiyada kənd təsərrüfatı sektorunun 70%-ni heyvandarlıq təşkil edir, bu məhsullardan süd və süd məhsulları xüsusi əhəmiyyətə malikdir. 5 milyon əhalinin 130.000 -nə yaxını kənd təsərrüfatında fəaliyyət göstərir [131, s. 57].

Heyvandalıq sahəsinin intensiv texnologiyalarla inkişaf etdirilməsi həm iqtisadi baxımdan, həmdə sosial baxımdan çox əlverişlidir. Yəni heyvandarlıq sahəsi daimi iş yeridir, mövsümi xarakterli deyil, məşğulluq səviyyəsini yüksəldir, kənd yerlərində işsizlik səviyyəsinin azalmasına səbəb olur.

Qeyd edək ki, heyvandarlıq növlərinin müxtəlifliyi dedikdə adi qəbul etdiyimiz növlərdən daha mürəkkəbdir. Bunun üçün heyvandarlığın növlər üzrə strukturuna diqqət edilməsi və müəyyənləşdirilməsi tələb olunur. Təsərrüfat heyvanlarının çins tərkibi çox böyükdür. Araşdırmalarımız zamanı təsərrüfatlarda heyvan növlərinin müxtəlifliyi daha qabarıq özünü göstərir. Son zamanlarda formalaşan iri heyvandarlıq təsərrüfatlarında heyvanlar südlük və ətlik istiqamətində ixtisaslaşdırılır. İsmayıllı rayonunun İvanovka kəndində yerləşən Nikitin kolxozunda iri heyvandarlıq fermalarında əsas südlük istiqamətli heyvanlar saxlanılır, təsərrüfat süd və süd məhsulları (yağ, xama, pendir) istehsal edir.

Südlük istiqamətli heyvanların yetişdirlməsi və saxlanılması adından göründüyü kimi süd istehsalında ixtisaslaşır. Bu sahənin qiymətləndirilməsi çətində olsa, süd ərzaq məhsulu kimi çox qiymətlidir və bu məhsula tələbat çoxdur. Süd bir başa ərzaq məhsulu olmaqla bərabər süd məhsulları üçün həmdə xammaldır. Süddən emal sənayesində müxtəlif növ pendir, yağ, qatıq, xama, ayran, dövğa və s alınır. Demək süd istehsalı əlavə istehsal sahəsinin fəaliyyətini təmin edir ki, bu da iqtisadi-sosial çəhətdən əhəmiyyətlidir. Ətlik heyvanların yetişdirlməsi həm ət, həmdə qaraçiyər və böyrəklər və digər subməhsulların istehsalına imkan verir ki, bu da əhalinin çeşidli ərzaq məhsulları ilə təmin olunmasına şərait yaradır.

Bundan başqa, ət xammalının emalı zamanı ərzaq sənayesi müxtəlif konservləşdirilmiş qidalar, kolbasa və fast food (yarı bişmiş məhsullar) alır. Digər tərəfdən mal-qara sahəsinin inkişafı yüngül sənaye üçün xammal (dəri və yun) mənbəyidir. Yüngül sənayedə bu məhsullardan yüksək kefiyyətli geyim, ayaqqabı, toxuculuq məhsulları və digər məişət ləvazimatları hazırlanır. Bundan əlavə heyvandarlığın xüsusilə iri buynuzlu mal-qaranın inkişafı əkin üçün üzvü gübrələrin mənbəyidir ki, bu da öz nöbəsində ekoloji məhsul istehsalına imkan verir.

Ev heyvanlarından çox əhəmiyyətli növ əlan qoyunçuluğun inkiaşf etdrirlməsinində mühüm iqtisadi əhəmiyyəti vardır və demək olar ki, heyavandarlıq da ən gəlirli sahə hesab olunur. Milli mentalitetə uyğun olaraq qoyunçulqla məşğulluq lap qədim zamanlardan mövcuddur və qoyun əti, südü və pendiri digər heyvandarlıq məhsullarından daha qiymətli hesab olunur və bu gün də bazarlarda bu məhsulların qiyməti digər məhsullarla müqayisədə 10-15% yüksəkdir. Eyni zamanda qoyunçuluqdan alınan dəri və yun yüngül sənaye üçün xammaldır.

Atçılığın inkişafı da iqtisadi cəhətdən əhəmiyyətlidir. Ölkəmizdə at əti geniş şəkildə istehlak olunmasa da digər ərəb və orta

Asiya ölkələrinə ixrac etmək olar. Ölkəmizdə əsasən atçılıq təsərrüfatları Ağdam və Ağstafa rayonlarında mövcuddur ki, burada da əsasən cins atlar Qarabağ və Dilbaz atları yetişdirilir. Lakin bu sahələrin inkişafında da ləngimələr mövcuddur.

Onu da qeyd edək ki, quşçuluğun inkişafı ölkəmizdə digrə sahələrlə müqayisədə da innovativ xarakter alıb. Ölkə əhalisinin qida rasionunda quş ətinin (əsasən toyuq əti, həmdə qaz, ördək, hinduşka) payı artmaqdadır. Burada toyuq ətinin daha çox istehlak olunmasının əsas səbəblərindən biri əhalinin alıcılıq qabiliyyətinin aşağı və toyuq ətinin digər ətlərlə müqayisədə qiymətinin ucuz olmasıdır. Eyni zamanda, quş ətindən emal sənayesində konservləşdirilmiş qida, kolbasa, yarım fabrikatlar istehsal olunur. Bundan başqa, yüngül sənaye üçün xammal kimi quş tükündən istifadə olunur. Ümumiyyətlə, quşçuluqdan alınan bütün məhsullar istehlaka və emala cəlb edilməklə müxtəlif sahələrdə istifadə olunur.

Son illərdə ölkəmizdə inkişafına üstünlük verilən sahələrdən biri də arıçılığın inkişafıdır. Arıçılıqda alınan müxtəli məhsullar əsasən bal, həmdə propolis, arı südü qiymətli məhsul hesab olunur. Bu sahədə çoxlu problemlərin mövcudluğu arıçılıq məhsullarının həddən artıq baha qiymətə satılmasına səbəb olur ki, bu da alıcılıq qabiliyyəti aşağı olan əsas əhali kütləsinin istehlak edə bilməməsinə gətirib çıxarır. Onu da qeyd edək ki, son illərdə ölkəmiz xaricə bal ixracını da həyata keçirir.

Qeyd edək ki, yalnız əlaqəli göstəriciləri nəzərə almadan ət məhsullarının miqdarının müəyyən edilməsi heyvandarlıq sahəsinin istehsal fəaliyyətini düzgün və etibarlı xarakterizə etməyə imkan vermir. Bu şəkildə heyvanların artım nisbətinin və ya sürü populyasiyasının azalma və ya bəslənmə və kənardan gətirlən heyvanların təsiri nəticəsində göstəricilərin dəyişməsi müşahidə edilir ki, bu da düzgün iqtisadi qiymətləndirməyə mane olan amillərdən hesab olunur.

Hər hansı bir mülkiyyət formasından asılı olmayaraq təsərrü-

fatlada heyvandarlıq məhsulları istehsalının rentabelliyinin artrılmasını təmin edən əsas amillər kənd təsərrüfatı heyvanları və quşlarının məhsuldarlığının artırılması və hər başa çəkilən xərclərin aşağı salınmasıdır. Heyvanların və quşların məhsuldarlıq səviyyəsinə təsir edən ətraf nühit amillərindən ən vacibi və təsir dərəcəsi demək olar ki, 50-60% olan qidalanma səviyyəsidir.

Heyvanların və quşların kifayət qədər yüksək səviyyədə qidalanması stabil olaraq tam əsasda yemlənməsi məhsuldarlığın artmasını təmin edir. Bu problemin həlli elmi və texniki tərəqqinin inkişafı və yem emalı üçün texnologiyaların tətbiqi və əmək sərfinin düzgün bölüşdürlməsi əsasında mümkündür. Heyvanların bəslənmə sistemi tam dəyərli balanslaşdırılmış yemlənmə tələb etmir, eyni zamanda bəslənmə növlərinin iqtisadi əsaslandırılmasını tələb edir. Heyvan növlərinin və istiqamətlərinin müxtəlifliyinə uyğun olaraq bəslənmə növü müəyyən edilir və yemlər müxtəlif olur: - şirəli yemlər, qüvvəli yemlər, senaj, silos, kökü meyvəlilər, quru ot-qaba yem, müxtəlif qarışıq yemlər, konsentrantlar və s.

Heyvanların yemlənmə növünün iqtisadi əhəmiyyəti əsasən yem bioloji qəbul edilmiş normalarını özündə əks etdirir. Məsələn, ildə 4000 kq süd istehsal edən inəklərin balanslaşdırılmış qida rasionu 15% şirəli yem, 5% kökü meyvəli yem, 20% saman və digər qaba yem, 35% yaşıl, 25% konsentrantlı yemdən ibarət olmalıdır. Bu baxımdan hər yem vahidində ən azı 110 q protein olmalıdır. Yalnız bu halda 100 kq süd istehsal üçün 110-130 kq yem vahdi tələb olunur.

Nəzərə almaq lazımdır ki, yem rasionunda qidalanma xüsusilə bahalı qarışıq yemlərin nisbətinin artırılması ilə genişləndirilməsi yem vahidinin dəyərini əhəmiyyətli dərəcədə artıracaqdır ki, bu da iqtisadi baxımdan sərfəli deyildir. Lakin yemin qiymətinin bioloji dəyərinin yaxşılaşdırlması nəticəsində yaranan qiymət artımı heyvanların məhsuldarlığına müsbət təsir edir, onların dəyəri əldə edilən əlavə məhsulları asanlıqla ödəyər.

## 1.3. Kənd təsərrüfatının ixrac potensialının artırılması imkanlarının qiymətləndirilməsinin metodoloji aspektləri

Kənd təsərrüfatında təsərrüfat fəaliyyətinin nəticəsi əsasən təbii şəraitdən düzgün istifadə olunması ilə bilavasitə əlaqədardır. Kənd təsərrüfatında ən səmərəli aqrotexniki qaydaları tətbiq etmək üçün təbii-iqtisadi şəraiti və hər bir rayonun, kəndin konkret xüsusiyyətləri hərətəfli öyrənilməli və nəzərə alınmalıdır.

Buradan tamamilə aydındır ki, ölkə üzrə iqtisadi və inzibati rayonlarda daha əlverişli olan kənd təsərrüfatı məhsulları istehsal etməli, rayonun torpaq fondundan və əmək ehtiyatlarından düzgün istifadə olunmalıdır. Bunun üçün hər hansı rayonun, regionun özünəməxsus xüsusiyyətlərini, təsərrüfatların istehsal istiqamətlərini müəyyən etməklə inkişaf etdirilməsini təmin etmək lazımdır.

İqlim, torpaq, bitki örtüyü və başqa təbii amillər insanın təsərrüfat fəaliyyətində öz təsirini kompleksli və əlaqəli surətdə göstərir. Belə olduqda həz zonanın kənd təsərrüfatı məqsədilə təbii rayonlaşdırması olduqca vacibdir.

Yuxarıda qeyd etdiyimiz kimi, kənd təsərrüfatı məhsulları istehsalında torpaq - iqlim şəraitinin mühüm rolu vardır. Araşdırmalarımız göstərir ki, əvvəllər mövcud olmuş və yüksək göstəricilər əldə etmiş təsərrüfat formalarının (sovxoz və kolxoz) inkişafına torpaq-iqlim şəraitindən, yerli ehtiyatlardan və bütün imkanlardan düzgün və səmərli istifadə etməklə nail olunmuşdur. Bazar iqtisadiyyatı şəraitində də kiçik təsərrüfatların inkişafında da bu məsələ öz aktuallığını saxlamaqla kooperasiya münasibətlərinin inkişafını və ya iri təsərrüfatların yaranmasını şərtləndirir. Belə olduğu halda təsərrüfatlar yerləşdiyi ərazinin təbii xüsusyyətlərinə uyğun olaraq formalaşır və istehsal resurslarından səmərəli istifadə etməklə istehsal həcmini yüksəltməyə nail olurlar ki, bu da öz növbəsində ixrac potensialını artırmağa imkan verir.

İxrac və iqtisadi inkişaf arasında artan əlaqə var. Nəzəri olaraq, ixrac səviyyəsindəki dəyişikliyin ixracın həcmini dəyişdirə bilməsi müzakirə edilir. Bu səbəblə iqtisadiyyatın davamlı inkişafı üçün ixracın sürətləndirilməsi əsas amildir. Çünki dünyada özü-özünü təmin edə bilən və iqtisadi cəhətdən tam müstəqil bir ölkə yoxdur, bir ölkənin istehsalda müqayisəli üstünlükdən yararlanması üçün mal və xidmətlər əsasında başqaları ilə ticarət etməlidir.

Kənd təsərrüfatı ixracında geriləməni izah edən iki əsas məktəb var:

a) Birinci məktəb iqtisadiyyata təsir edən xarici (ekzogen) faktorları ön plana çəkir: məsələn, dünya bazarında zəif inkişaf və ticarətin pisləşməsi və s.

b) İkinci düşüncə məktəbi ölkəyə təsir edən daxili (endogen) faktorları vurğulayır; məsələn: ixraca mənfi təsir edən daxili siyasət.

Azərbaycanda kənd təsərrüfatı sektorunun qarşısında duran əhəmiyyətli bir problem, ölkənin valyuta ehtiyatlarının artırılmasında xüsusi çəkisinin artırılmasıdır. Dünya neft və neft məhsullarının, əmtəələrin qiymətlərinin və idxalın qiymətlərinin artması ilə əlaqədar dünya bazarında baş verən gözlənilməz iqtisadi hadisələrin tez-tez dəyişməsi səbəbindən iqtisadiyyatı zəif olan ölkələrdə ciddi fəsadlar yaşanır və ölkə iqtisadiyyatı asanlıqla "zədələnir". Bu isə iqtisadi tarazlıqsızlarla nəticələnir, hansı ki tədiyyə balansında bu asanlıqla görünə bilir.

Azərbaycanda kənd təsərrüfatı əsasən öz daxili ehtiyaclarını ödəmək istiqamətində inkişaf etdirilməklə bərabər bəzi məhsullar üzrə ixrac potensialının artırlmasına da hədəflənmişdir, çünki böyük həcmdə ixracın təmin edilməsi istehsalın inkişafını stimullaşdırır.

Kənd təsərrüfatı məhsulları istehsalını artırmaq və iqtisadi potensialını genişləndirmək üçün iki yol var və bunlar ekstensiv və intensiv inkişaf yoludur.

Ekstensiv inkişaf maddi-texniki bazanı yeniləşdirmədən əkin sahələrinin genişləndirilməsi və heyvanların baş sayının artırılma-

sı hesabına məhsul istehsalının artırılması hesabına baş verir. Bu zaman kənd təsərrüfatında başlıca istehsal vasitəsi olan torpaqlardan səmərəli istifadə olunmur və nəticədə torpaqdan istifadənin iqtisadi səmərəlilik göstəricisi aşağı düşür.

İntensiv inkişaf kənd təsərrüfatının maddi-texniki bazasını yeniləmək, innovativ texnologiyalardan istifadə etməklə kənd təsərrüfatında sahədən məhsuldarlığın, heyvandarlıq məhsullarının baş sayına görə məhsuldarlığının artırılması intensiv inkişafın əsasını təşkil edir.

Hələ XIX əsrdə Karl Marks göstərmişdir ki, istehsal meydanı genişləndirilirsə ekstensiv şəkildə geniş təkrar istehsal, daha səmərəli istehsal vasitələri tətbiq edilirsə intensiv şəkildə geniş təkrar istehsal beş verir [128, s. 171].

Qeyd edək ki, məhsul istehsalının artırılması, istər ekstensiv, istərsədə intensiv inkişaf yolu ilə baş versin, hər iki halda kənd təsərrüfatına vəsait qoyuluşu tələb olunur. Lakin, bu vəsait qoyuluşunun baş verməsi iqtisadi cəhətdən əsaslandırılmalıdır. Çünki kənd təsərrüfatında məhsul istehsalının artırılmasına mühüm əhəmiyyət kəsb edən resursların əldə edilməsi və onların hansı sahədə hansı istehsal istiqamətinə sərf olunması və iqtisadi səmərəlilik səviyyəsi müəyyən edilməsə vəsait qoyulu səmərəsiz olar və bu təsərrüfatın fəaliyyətinin zərərlə başa gəlməsinə səbəb ola bilər.

Apardığımız təhlillər göstərir ki, kənd təsərrüfatında ekstensiv inkişaf imkanları demək olar ki, tükənmişdir. İntensivləşmə istehsalın inkişafının ən təsirli üsulu olaraq daha səmərəli və aktual görünür.

İntensivləşmənin əsas istiqamətləri: kompleks mexanizasiyalaşdırma, kənd təsərrüfatını kimyəviləşdirmə, meliorasiya, kənd təsərrüfatında enerji təminatının artırılmasıdır. Bütün bu görülən işlər torpaqlardan istifadənin iqtisadi səmərəliliyinin yüksəldilməsinə səbəb olur İntensivləşdirmə kənd təsərrüfatı məhsullarının ixtisaslaşmasının dərinləşdirilməsi, aqro-sənaye inteqrasiyasının da-

ha da inkişaf etdirilməsi əsasında həyata keçirilir.

Kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılması milli iqtisadiyyatın əsas sahələrindən biri olmaqla qarşıya qoyulan hədəf kimi müəyyənləşdirilmişdir. Bu, milli iqtisadiyyatın beynəlxalq bazarda rəqabət qabiliyyətli məhsullar istehsal etməyə və onu kifayət qədər ölkə ərzaq təhlükəsizliyini zərər gətirmədən yüksək həcmdə və əlverişli dünya qiymətlərində ixrac etməsini nəzərdə tutur. Eyni zamanda, kənd təsərrüfatında mövcud olan rəqabətli inkişaf perspektivlərini daha səmərəli istiqamətə yönəltməklə aktivləşdirmək və kənd təsərrüfatı və emal sənayesi məhsullarının ixracının əsas rolu kimi onun mövcud istehsal vəziyyətinin artırılması qabiliyyətini özündə əks etdirir.

Qeyd edək ki, 1988-ci ildən mənfur qonşumuz Ermənistanın ölkəmizə torpaq iddiası ilə yenidən başlayan düşmənçilik siyasəti və torpaqlarımızın 20%-nin zəbt edilməsi ilə bərabər 1990-cı illərin əvvəllərindən ölkədə iqtisadi transformasiya prosesində, əsas sənaye sahələri kimi kənd təsərrüfatında da vəziyyət daha da çətinləşərək böhrana çevrildi. Bu böhranın səbəbləri arasında tədqiqatçılar əhali arasında rasional istehlak tələbatın azalmasını, dövlət dəstəyinin zəifləməsini, qiymətlərin bərabərsizliyini, idxal olunan məhsulların keyfiyyətsizliyini və btövlükdə kənd təsərrüfatı siyasətinin səmərəsiz olmasını qeyd edirlər. Qeyri-adekvat idarəçilik metodlarının həyata keçirilməsi nəticəsində kənd yerlərində normal təkrar istehsal prosesi pozuldu.

Bu, sahələrin bütün resurs imkanlarına və ümumiyyətlə istehsal potensialına aiddir. Kənd təsərrüfatının inkişafını illər üzrə təhlil etməklə və böhranın çıxış yollarının tapılması və iqtisadi artımın təmin olunmasını üç və ya dörd dövrə bölə bilərik. 1990-1995-ci illərin əhatə etdiyi dövrü iqtisadi əlaqələrin pozulması və iqtisadiyyatın tənəzzülə uğraması kimi qəbul etmək olar. 1995 - 2000-ci illəri iqtisadi islahatların aparılması və bazar iqtisadiyyatına keçid dövrü kimi qəbul etmək olar və bu dövrü müəssisələrin özəlləşdi-

rilməsi, torpaq və əmlakın əhalinin xüsusi mülkiyyətini verilməsi və iqtisadiyyatın liberallaşdırılması kimi xarakterizə etmək olar. 2000-2005-ci illəri keçid iqtisadiyyatının sürətlənməsi və milli iqtisadiyyatın inkişafı üçün qanunvericilik bazasının yaradılması və dövlət siyasətinin formalaşması kimi qiymətləndirmək olar, 2005-ci ildən sonrakı dövrü isə bazar iqtisadiyyaının inkişaf dövrü kimi qəbul etmək olar və iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsi, iqtisadiyyatın çoxşaxəli inkişafının təmin edilməsi üçün iqtisadi mühitin yaradılması və təkmilləşdirilməsi kimi səciyyələndirmək olar.

Azərbaycanın aqrar sahədə inkişafının perspektivlərinə biz böyük ümidlə yanaşırıq. İstifadə olunmamış torpaq sahələrini dövriyyəyə cəlb etməklə, şoranlaşma və erroziyaya məruz qalmış torpaqları sağlamlaşdırmaqla və bu yolla sahədən məhsuldarlığı yüksəltməklə kənd təsərrüfatı məhsullarının ixracının artırılması mümkündür.

Tədqiqat əsasında Azərbaycan kənd təsərrüfatı məhsullarının ixracının inkişafına üç ssenaridə baxmaq olar: pessimist, real və optimist. Bunların proqnozu cədvəl 1.1-də verilmişdir.

Kənd təsərrüfatıının inkişafı öz mürəkkəbliyi ilə digrə sahələrdən fərqlənir və sahənin inkişafı daima çətinliklərlə üzləşir. Belə ki, təbii iqlim şəraitinin müxtəlifliyi və qeyri-sabitliyi, su ehtiyatlarının azlığı kənd təsərrüfatının inkişafında daha mütərəqqi işlərin görülməsini şərtləndirir.

İlk növbədə texnoloji proseslərin modernləşdirilməsi və avtomatlaşdırılması üçün kənd təsərrüfatı sahəsinə investisiyaların cəlb edilməsi lazımdır. Yaxın keçmişdə kənd təsərrüfatı sahəsində texnika və avadanlıqların çatışmaması səbəbindən əkin sahələrinin əhəmiyyətli bir hissəsi becərilmir və ya əllə, qoşqu heyvanlarından istifadə etməklə becərilirdi. Ölkə üzrə 100 ha əkin yerlərinə yalnız 1 traktor düşürdü, elə ərazilər vardı ki, orada texnika yox idi və istehsalçılar qonşu kəndlərdə texnika axtarmağa məcbur olurdular.

**_Cədvəl 1.1_**

**_Azərbaycanda kənd təsərrüfatı məhsulları ixracının inkişaf proqnozu_**

| İnkişaf ssenarisi | Xarakteristikası | İcra şərtləri |
|---|---|---|
| Pessimist | Kənd təsərrüfatı məhsullarının ixracatı dəyişməz olaraq qalacaq və ya 10% artacaq, ixrac edilən malların sayı məhdud olacaq | - istehsalçılar üçün kredit dərəcələri artacaq;<br>- digər ölkələrin istehsalçıları ilə müqayisədə yerli istehsalçıların rəqabət qabiliyyəti azalaçaq;<br>- bitkiçilik və heyvandarlıqda yüksək məhsuldarlıq olmayacaq. |
| Real | Kənd təsərrüfatı məhsullarının ixracatı dəyişməz olaraq qalacaq və ya 20%-ə qədər artacaq, ixrac edilən malların çeşidi artacaq | - kredit dərəcəsi dəyişməz olaraq qalacaq;<br>- yerli istehsal və ixrac üçün dövlət dəstəyi zəif olacaq;<br>- ixrac edilən bitkiçilik məhsullarının məhsuldarlığında bir qədər artım nəzərə çarpacaq;<br>- kənd təsərrüfatı sahəsinin sabit inkişafı, təmin ediləcək. |
| Optimist | Kənd təsərrüfatı məhsullarının ixracatı dəyişməz olaraq qalacaq və ya 30%-ə qədər artacaq, ixrac edilən malların çeşidi artacaq və ixracın coğrafiyası genişlənəcək | - istehsalçılara təklif olunan kredit dərcələri aşağı düşəcəkdir;<br>- subsidiyalaşma və güzəştlərin tətbiqi ilə dövlət dəstəyinin güclənməsi;<br>- kənd təsərrüfatı məhsullarının ixrac həcmi artacaq və ixracı düzgün təşkil ediləcəkdir;<br>- gübrələnmə və yemlənmə sisteminin təkmilləşdirilməsi ilə məhsuldarlıq yüksələcəkdir;<br>- əkin dövriyyəsindən çıxmış və şorlaşmış torpaqlar əkin dövriyyəsinə qaytarılmayacaqdır. |

*Cədvəl öz araşdırmaları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Lakin 14 il əvvəl fəaliyyətə başlamış "Aqrolizing" Açıq Səhmdar Cəmiyyətinin ciddi səyləri nəticəsində kənd təsərrüfatı məhsul istehsalçılarının maddi-texniki bazasının möhkəmləndirilməsi, sahibkarların lizing qaydası ilə texnika, damazlıq heyvanlar, texnoloji avadanlıq, suvarma sistemləri ilə təmin edilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşgul olan fiziki və hüquqi şəxslərə aşağı qiymətlərlə aqroservis xidmətlərinin göstərilməsi sahəsində nəzərə çarpacaq irəliləyişlər əldə edilmiş və 2005-ci ilə qədər olan geriliklər, demək olar ki, aradan qaldırılmışdır.

Bir çox alimlər aqrar iqtisadiyyatın müxtəlif tərəflərini tədqiq edir və onun perspektiv inkişaf yollarını, ixracat imkanlarının artırılması istiqamətlərini təklif edir. Kənd təsəsrrüfatının yüksək və sabit inkişafının təmin edilməsi, bu sahədə müəyyənləşdirilmiş strateji məqsədlərə nail olunması yalnız aqrar siyasətin əsaslandırılmasından və adekvatlığından deyil, həm də idaretmə metodlarının təkmilləşdirilməsindən, müxtəlif səviyyəli idarəedici mütəxəssislərin yeni iqtisadi təfəkküründən asılıdır [16, s. 29].

Məhsulların keyfiyyətinin artırılması da istehsalın genişlənməsidir, çünki bərabər həcmdə yüksək keyfiyyətli məhsulların qiymətləndirilməsi daha yüksək olur. Bu metodun həyata keçirilməsi istiqamətində ən geniş istifadə olunan əmək məhsuldarlığının artmasıdır. Yəni yüksək keyfiyyətli məhsul istehsalında əmək məhsuldarlığının artırılması daha yüksək gəlirlərin əldə edilməsinə şərait yaradır. Müasir şəraitdə əsasən məhsul istehsalında yüksək artıma nail olmaq mümkün deyil, çünki yüksək məhsul istehsalı əsasən istehsal edilən mineral gübrələrin miqdarından və keyfiyyətindən asılıdır. Statistik məlumatların təhlili göstəriri ki, ölkəmizdə mineral gübrə istehsalı hələlik yoxdur və idxalı da daxili tələbatı tam ödəyə bilmir. Heyvandarlıq sahəsində məhsuldarlığın artırılması isə yemin miqdarından və keyfiyyətindən, heyvanların balanslı qidalanmasından asılıdır. Lakin heyvandarlığın inkişafında bu kimi xüsusiyyətlərə tam əməl olunmur. Məhsul istehsalçıları

həm maliyyə, həm də sahələr üzrə bilik və bacarıqları baxımından əsas məsələlərə diqqət yetirə bilmirlər.

Kənd təsərrüfatının dinamik inkişafını təmin etmək üçün yerli məhsul istehsalçıları ilk növbədə satış həcmlərinin artımı məqsədilə əhəmiyyətli potensiala malik olan bazarlarda öz mövqelərini möhkəmləndirməlidirlər.

Bitkiçilik məhsulları istehsalı zamanı istehsal həddi növlər üzrə daxili bazarların təmin edilmə səviyyəsində müəyyən edilməlidir. Daxili bazarların təmin edilməsi və xarici bazarlarda tələbat olunan məhsulların ixracı əhalinin etibarlaı ərzaq məhsulları təminatı ilə bağlı dövlət proqramının prinsipləri ilə balanslaşdırlmalıdır. Heyvandarlıq məhsulları istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi artan daxili tələbi qarşılamaq və idxal əvəzləşdirmə proseslərini aktivləşdirmək rejimində fəaliyyət göstərməklə kənd təsərrüfatının bu alt sektorunda istehsalın artırılması üçün əhəmiyyətli bir potensialı təmin edə bilər.

C.M.Keynsin fikrincə, iqtisadi inkişafın bütövlükdə bazar amillərinə əsaslanması əhalinin sosial vəziyyətində gərginliklər yaratmaqla yanaşı ölkənin strateji maraqlarını da konyunktur dalğalanmalarından asılı edir. İqtisadi inkişafa dövlətin müdaxiləsi yerli təsərrüfat subyektlərinin maraqlarının qorunmasına xidmət etməlidir [47, s. 127].

Milli iqtisadiyyatın inkişafı üçün "Starteji Yol Xəritəsi"nin 11 istiqamət üzrə o cümlədən, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" nin qəbulu ölkə iqtisadiyyatında əsas dəyişikliklərə, xarici iqtisadi əlaqələrin inkişafı üçün strategiyanı inkişaf etdirmək, onların iqtisadi artım faktoru kimi rollarını anlamasını zəruri etmişdir [1].

Problemlərin hamısı olduqca aktualdır, çünki nə ədəbiyyatda, nə də rəsmi sənədlərdə daxili ərzaq bazarının təminatının qeyri-sabitlik şəraitində kənd təsərrüfatı məhsullarının ixracına dair qərar qəbul etmək üçün əsas məqsədlərin dəqiq bir izahı yoxdur (ərzaq idxalı-

nın kifayət qədər məhdudlaşdırılmasından fərqli olaraq yerli istehsalın inkişafına töhfə verən, daxili bazarın keyfiyyətsiz məhsullardan qorunmasından, kəndlilərin gəlirlərini sabitləşdirən və nəticədə milli ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edən və s.).

Yenə də yenilənə bilməyən təbii ehtiyatların, xüsusilə də enerjinin intensiv ixracatı sabit valyutanın daimi mənbəyi ola bilməz. Buna görə də, ixracatın alternativ istiqamətlərini axtarma problemi var və bu baxımdan kənd təsərrüfatından getdikcə daha çox danışılır. Bu yanaşmanın tərəfdarlarının ən inandırıcı arqumentlərindən biri sənayenin nisbətən az sərmayə intensivliyidir və bu da əhəmiyyətli investisiyalar olmadan istehsalın xeyli dərəcədə artmasına imkan vermir.

Kənd təsərrüfatı isə daha mürəkkəb sahə olmaqla və özünə məxsus xarakterik xüsusiyyətləri ilə fərqləndiyindən, təbii-iqlim şəraitindən çox asılı olması bu sahəyə investisiya yönəldilməsi riskinin yüksək olması anlamına gətirir. Eyni zamanda, sahənin riskli olması Azərbaycanda aqrar sığortanın zəif olmasına səbəb olmuşdur. Maliyyə Nazirliyinin məlumatlarının təhlili göstərir ki, aqrar sahə üzrə sığorta ümumi sığortanın 0,2%-ni təşkil edir. Məhz bu (amil aqrar sığortanın zəif inkişafı) investorların sahəyə marağının az olmasını şərtləndirir.

İqtisadiyyatın istənilən sahəsinə investor tərəfindən sərmayə yatırılmasında əsas məqsəd gəlir əldə etməkdir, yəni investoru maraqlandıran onun iqtisadi tərəfidir. İnvestor rolunda dövlət iştirak etdikdə əsas diqqət sahənin inkişafının iqtisadi və sosial baxımdan yüksəldilməsinə yönəldilməklə dövlətin öz maraqlarını təmin etməsi durur. Burada bəzən elə ola bilər ki, iqtisadi maraq təmin olunmaz, amma cəmiyyətin inkişafı üçün sosial marağın təmin olunması əsas götürülə bilər.

Məhsulun səmərəliliyinin öyrənilməsinə dair müxtəlif yanaşmaların təhlilinin nəticələri yekunlaşdıraq. Səmərəlilik mücərrəd göstərici olaraq, inkişaf istiqamətini müəyyənləşdirir, son nəticəyə

nail olmağa "səy göstərməyi" ehtiva edir, seçilmiş strategiyanın düzgünlüyünü, göstərilən göstəricilər əsasında müəyyən bir təsirə nail olmaq üçün istehsalın inkişaf prosesini, hər hansı bir təsərrüfat əməliyyatının əsas məqsədlərinə nail olmaq dərəcəsini xarakterizə edir. İqtisadi kateqoriya olaraq bölgədə kənd təsərrüfatının inkişaf səviyyəsini xarakterizə edir və kənd təsərrüfatı istehsalının əsas aspektlərindən birini - istifadə olunan kompleks potensialın səmərəliliyini əks etdirir.

Kənd təsərrüfatının ixrac potensialının artırılması imkanlarının qiymətləndirilməsi üçün ilk növbədə statistik məlumatların düzgünlüyü və onların əhatəli əldə edilməsinin xüsusi iqtisadi əhəmiyyəti vardır. Məsələn Avropa İttifaqı ölkələrində kənd təsərrüfatının inkişafı üzrə statistik müşahidələrin aparılması təcrübəsi milli və regional xüsusiyyətləri nəzərə alaraq regional kənd təsərrüfatı statistikasının inkişaf perspektivlərini təsdiqləyir. Regional kənd təsərrüfatı statistikası kənd təsərrüfatının inkişafı problem sahələri üzrə daimi sorğu məlumatlarına əsaslanmalıdır. Kənd təsərrüfatı sahəsində statistik müşahidələr əsasən nümunə tədqiqat və regional müşahidələrin nəticələrinə əsaslanmalıdır. Tədqiqat prosesində kənd təsərrüfatının inkişafının statistik müşahidəsinin aşağıdakı ümumi beynəlxalq problemləri müəyyənləşdirilmişdir:

- etibarlı müşahidənin formalaşdırılması üçün iş yerləri (təsərrüfat subyektləri) vahidlərinin tam kataloqunun yaradılması;
- statistik məlumatların SNS birinci məlumat səviyyələrindən xülasə göstəricilərə qədər müəyyən edilməsinin metodik problemlərinin həlli;
- statistik müşahidənin keyfiyyətinin artırılması və subyektiv amillərin təsirinin qiymətləndirilməsi;
- kənd təsərrüfatı statistikasında ümumi Avropa metodikasının tətbiq edilməsi;
- statistika göstəricilərinin toplanması və işlənməsi üçün istifadə edilən üsullarda mümkün səhvlərin aşkarlanması və vaxtında

aradan qaldırılması.

Bütün bu qeyd edilən problemlərin aradan qaldırılması aqrar sahədə təsərrüfat formaları üzrə istehsal prosesinin və təsərrüfatların fəaliyyətinin düzgün qiymətləndirilməsinə və inkişaf istiqmətlərinin elmi əsaslandırılmasına imkan verər.

Müasir şəraitdə kənd təsərrüfatı ixracının inkişafının milli maraqları "ucuz" idxal olunan ərzaqların müvəqqəti üstünlüyü üzərində qiymətləndirilməlidir. Hazırkı şəraitdə dövlət, istehsalçı və emalçı ixrac olunan yerli məhsulların həcmini, çeşidini və keyfiyyətini artırmaq üçün bütün imkanlardan daha səmərəli istifadə etməlidir. Əks halda xaricdən idxal olunan ərzaq və qida məhsullarının həcmi yüksələ bilər və bu ərzaq və milli təhlükəsizliyə təhlükə yarada bilər. Beləliklə, Azərbaycan idxaləvəzləyici istehsalı artırmalı, kənd təsərrüfatı məhsullarının ixracını genişləndirməlidir. Buna nail olmaq üçün ölkəmizin böyük istehsal potensialı vardır və bu istiqaməti gücləndirmək məqsədilə əlverişli iqtisadi mühit yaradılmışdır.

# II FƏSİL. ÖLKƏDƏ ƏRZAQ MƏHSULLARI İSTEHSALININ VƏ ƏRZAQ TƏMİNATINDA İDXALDAN ASILILIĞIN MÖVCUD VƏZİYYƏTİ

## 2.1. Azərbaycanda ərzaq məhsulları istehsalının mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi

Kənd təsərrüfatının inkişaf etdirilməsi dövlətin daima diqqət mərkəzində durur. Aqrar sahənin inkişafı istiqamətində qəbul edilmiş dövlət proqramlarında, ölkə Prezidentinin müvafiq fərman və sərəncamlarında, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının emalına dair Strateji Yol Xəritəsi"ndə kənd təsərrüfatı məhsulları istehsalının daha da inkişaf etdirilməsi yolları göstərilmişdir. Kənd təsərrüfatının yüksəlişi istiqamətində demək olar ki, bütün resurslar hərəkətə gətirilmişdir.

İqtisad elmləri doktoru, professor Eldar Quliyev "Qlobal ərzaq təhlükəsizliyi: çağırışlar və perspektivlər, reallıqlar," adlı monoqrafiyasında yazır: "Aparılan tədqiqatlar, aparılan iqtisadi islahatların xüsusiyyətləri və inkişaf prioritetləri, kənd təsərrüfatı sahələrinin inkişafı üzrə dünya təcrübəsi, dünyada mövcud olan ərzaq problemlərinin mahiyyəti, qlobal problemlər, bu sahələrdə mövcud tendensiyalar və çağırışlar ölkənin ərzaq təhlükəsizliyini gücləndirəcək. [115, s.141-142]. Bu fikirlə razılaşmamaq olmaz.

Kənd təsərrüfatının sürətli inkişaf etdirilməsi üçün qarşıya qoyulan vəzifələrin həll edilməsində kadr potensialının gücləndirilməsinin və onların iqtisadi savadlarının artırılmasının böyük rolu vardır. Kənd təsərrüfatının sahələr üzrə məhsul istehsalının artırılması təsərrüfatın daha düzgün idarə olunmasına, istehsalın imkanlarından və ehtiyatlardan daha səmərəli və tam istifadə etməyə təkan verir, innovativ texnologiyalardan geniş sürətdə tətbiq etməyə kömək edir.

Qeyd edək ki, kənd təsərrüfatının, sənayenin və iqtisadiyyatın digər sahələri ilə birlikdə inkişafı ölkə iqtisadiyyatının qüdrətini daha da artırır. Onun vəzifəsi əhalinin ərzaq məhsullarına, sənayenin xammala olan tələbatını ödəmək və ölkənin kənd təsərrüfatı məhsullarına olan digər ehtiyaclarını təmin etməkdən ibarətdir [127, s. 168].

"Azərbaycan Respublikasında kənd təsərrüfatının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş və elmi cəhətdən əsaslandırılmış strateji hədəflərində kənd təsərrüfatı istehsalının sürətli inkişaf etdirilməsi, onun yeni daha yüksək səviyyəyə qaldırılması və beləliklə ən qısa müddətdə ölkənin kənd təsərrüfatı məhsullarına artan tələbatının ödənilməsi, ixrac potensialının artırılması və məhsul istehsalçılarının gəlirlərinin və həyat səviyyəsinin daha da yüksəldilməsi nəzərdə tutulmuşdur.

Ölkəmizdə sənayenin inkişafı ilə yanaşı olaraq, maddi istehsalın ən mühüm sahəsi olan kənd təsərrüfatının da inkişaf etdirilməsi ən mühüm məsələlərdən biridir. Hazırda ölkə əhalisinin 38%-kənd təsərrüfatında çalışır.

Aqrar islahatların ilk dövrlərində kənd təsərrüfatı emalı müəssisələrinin böyük bir hissəsinin sıradan çıxması ümumi kənd təsərrüfatının inkişafına mənfi təsir etmişdir. Ölkəmizdə sənaye sahələrinin (ağır sənaye, metallurgiya, kimya və elektikləşdirmə) inkişaf etməməsi kənd təsərrüfatının inkişaf etməsində ciddi əngəllərin yaranmasına səbəb olmuşdu. Belə ki, kənd təsərrüfatı istehsalında istifadə olunan maşın və mexanizmlərin, mineral gübrələrin, dərman preparatlarının çatışmazlığı və bu məhsulların əldə edilməsi ixrac hesabına olduğundan kənd təsərrüfatında rəqabətqabiliyyətli məhsul istehsalına nail olmaq mümkün olmamışdı.

Qeyd edək ki, ölkəmizdə bu sahələrin inkişaf etdirlməsi üçün kifayət qədər resurs ehtiyatı vardır və təbii ki, bu sahələrin elmi əsaslarla inkişaf etdirilməsi üçün külli miqdarda investisiya tələb olunur. Bu sahənin dayanıqlı inkişaf etdirlməsi iqtisadiyyatın bü-

tün sahələrində, o cümlədən kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsini, rəqabətqabiliyyətli məhsul istehsalını və ixrac potensialını artırmağa imkan verir.

Milli iqtisadiyyatın digər sahələri kimi, sənayenin inkişafı da öz növbəsində kənd təsərrüfatının inkişafından xeyli dərəcədə asılıdır.

Kənd təsərrüfatında istehsal edilən ərzaq məhsulları və digər istehlak malları ilə əhali kifayət qədər təmin olunmaqla bərabər, sənaye sahəsi də müvəfəqqiyyətlə inkişaf etdirilə bilər. Yüngül və qida sənayesi sahələrinin əksəriyyətinin işi onların kənd təsərrüfatı xammalı ilə təmin olunmasından asılıdır.

Deyə bilərik ki, kənd təsərrüfatı Böyük Vətən müharibəsində olduğu kimi, 90-cı illərdə də özünün ən çətin sınaq dövrünü yaşamışdır. 90-cı illərlə müqayisədə indi kənd təsərrüfatının inkişafı istiqamətində xeyli irəliləyişlər olmasına baxmayaraq bu günkü tələbata tam cavab vermir. Kənd təsərrüfatında əsas kapitala yönəldilmiş investisiya 2000-ci ildən bu günə qədər milli iqtisadiyyatın digər sahələri ilə müqayisədə ən aşağı xüsusi çəkiyə malik olmuşdur. 2010-cu ildə 4,4% xüsusi çəkiyə malik olan kənd təsərrüfatında əsas kapitala investisiya qoyuluşu 2017-ci ildə 5/1  dəfə azalaraq 3,5 %-ə enmişdir. Kənd təsərrüfatında 2000-ci ildə əkin yeri 1766,8 min hektar təşkil edirdisə, 2019-cu ildə bu göstərici 192,3 min hektar artaraq 1959,1 min hektara çatdırılmışdır ki, bu da əsasən otlaq və örüş sahələrinin əkin altına verilməsi hesabına olmuşdur. Torpaqların strukturunun bu şəkildə dəyişdirilməsi təbii ki, düzgün deyildir. Belə ki, bu, hazırkı şəraitdə heyvandarlığın zəifləməsinə səbəb olur.

Torpaq islahatlarından sonra keçən illər ərzində kənd təsərrüfatının bütün sahələrinin inkişaf etdirilməsi istiqamətində qəbul edilən dövlət proqramları və digər stimullaşdırıcı tədbirlər həyata keçirildi.

Bu tədbirlərin əsas məqsədi təsərrüfatların maddi-texnki bazasının genişləndirilməsi, onların ixtisaslı kadrlarla möhkəmlən-

məsi, minlərlə hektar yeni torpaq sahələrinin istifadəyə verilməsi, rəqabətqabiliyyətli ixracyönümlü məhsul istehsalının artırılması və bütövlükdə kənd təsərrüfatının inkişaf etdirilməsi olmuşdur.

Kənd təsərrüfatının inkişaf etdirlməsində az şorəkət torpaqların (təxminən 300 min hektar) təmizlənib əkin altına verilməsinin böyük rolu vardır. Son illərdə əkin sahələrinin 50%-dən çoxu dənli və paxlalı bitkilərin əkin altına verilmişdir ki, bunun da əsas hissəsini 98,8%-ni taxıl bitkiləri təşkil edir.

Yeni torpaqların istifadəyə verilməsi kənd təsərrüfatına kapital və investisiya qoyuluşunun iqtisadi səmərəliliyini artırmağa şərait yaradır. Belə ki, torpaqların təmizlənməsinə sərf edilən vəsaitin əldə edilən məhsul hesabına qısa müddətdə ödənilməsi mümkündür.

Kənd təsərrüfatının texnika ilə təchiz edilməsində yaranmış problemlər məhsul istehsalının davamlı inkişafında və istehsal xərclərinin aşağı salınmasında ciddi çətinliklər yaradır. Yeni texnikaların alınıb gətirilməsinə baxmayaraq kənd təsərrüfatının texnika ilə təminatı 2005-ci ildə 11,9%, 2010-cu ildə 13,4%, 2014-cü ildə 14,3%, 2015-ci ildə 7,7% və 2019-cu ildə isə 10,5% təşkil etmişdir. Bu əsasən onunla bağlıdır ki, texnika ilə təminatda yenidən dəqiqləşmə aparılmış, eyni zamanda illər keçdikcə sıradan çıxan texnikaların sayı idxal olunan texnikaların sayından bir neçə dəfə çoxdur. Statistik məlumatların təhlili göstərir ki, 2005-ci ildə bir traktora düşən əkin sahəsi 84 ha, 2010-cu ildə 75 ha, 2014-cü ildə 70 ha, 2015-ci ildə 129 ha və 2019-cu ildə isə əvvəlki ilə nisbətən 33 ha azalaraq 96 ha təşkil etmişdir. Bu isə onu göstərir ki, texnikalaraın çatışmazlığı texnoloji əməliyyatların vaxtında keyfiyyətli yerinə yetirilməsini ləngdir ki, bu da öz növbəsində çoxlu məhsul itkisi deməkdir. Kənd təsərrüfatında yeni texnikaların istifadəsi həm xərclərin azalmasına, həmdə vaxtdan qənaətlə istifadəyə imkan verir. Məsələn, asma fırlanan kotanlardan istifadə şum işlərinin daha sürətlə yerinə yetirilməsinə imkan verir. Eyni zamanda, bu kotanlarla şumlanan əkin sahələrində təkrar mala

və hamarlama işlərinə ehtiyac olmur. Kənd təsərrüfatının texnika ilə təminatı cədvəl 2.1-də verilmişdir.

***Cədvəl 2.1***

***Azərbaycan Respublikasında 2010-2019-cu illər ərzində kənd təsərrüfatının texnika ilə təminatı***

| | 2010 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2010-cu ilə nisbətən 2019-cu ildə %-lə |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1000 ha əkin traktor düşür, ədəd | 13,4 | 13,9 | 14,3 | 7,7 | 10,5 | 13,1 | 20,0 | 20,4 | 1,52 |
| Bir traktora düşən əkin | 75 | 72 | 70 | 129 | 96 | 76 | 50 | 49 | 0,65 |
| Müvafiq bitkilərin min hektar əkin sahəsinə düşən kombaynların sayı, ədəd | | | | | | | | | |
| Taxılyığan | 2,1 | 2,1 | 2,3 | 0,7 | 1,4 | 1,8 | 3,5 | 3,7 | 1,76 |
| Qarğıdalıyığan | 0,2 | 0,2 | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,3 | 0,2 | 2,5 dəfə |
| Kartofyığan | 0,3 | 0,6 | 0,6 | 0,1 | 0,1 | 0,2 | 0,7 | 0,8 | 266,6 |
| Çuğunduryığan | 1,1 | 1,8 | 1,6 | 1,2 | 0,1 | 0,6 | 3,6 | 4,8 | 117,1 |
| Pambıqyığan | - | 2,2 | 3,7 | 4,6 | 1,7 | 2,3 | 3,7 | 4,8 | 4,8 dəfə |
| Bir kombayna (maşına) düşən müvafiq bitki əkinləri, ha | | | | | | | | | |
| Taxılyığan | 487 | 483 | 434 | 1369 | 736 | 567 | 286 | 272 | 0,56 |
| Qarğıdalıyığan | 5978 | 5521 | 5385 | 18455 | 17928 | 17845 | 3175 | 4105 | 0,69 |
| Kartofyığan | 3290 | 1814 | 1581 | 15244 | 12558 | 4898 | 1521 | 1324 | 0,40 |
| Çuğunduryığan | 944 | 547 | 634 | 820 | 7061 | 1740 | 276 | 210 | 0,22 |
| Pambıqyığan | - | 451 | 266 | 217 | 577 | 439 | 272 | 208 | + |
| 100 traktora düşür, ədəd | | | | | | | | | |
| Kotan | 16 | 23 | 24 | 5 | 6 | 8 | 12 | 13 | 0,81 |
| Kultivator | 4 | 3 | 3 | 0,4 | 0,5 | 1 | 2 | 3 | 0,75 |
| Toxumsəpən | 9 | 9 | 9 | 2 | 2 | 3 | 5 | 5 | 0,55 |
| Otbiçən | 4 | 6 | 6 | 1 | 1 | 2 | 2 | 2 | 0,50 |

*Mənbə: Cədvəl "Azərbaycan Kənd Təsərrüfatı" DSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib. Bakı, 2020 [7].*

Statistik məlumatların təhlili göstərir ki, kənd təsərrüfatının texnika ilə təminat səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. Məsələn, 2019-cu ildə 1000 hektar əkin sahəsinə 1,4 ədəd, 2017-ci ildə isə 1,8 ədəd taxılyığan kombayn düşmüşdür. Mövsüm ərzində bir kombayn isə 400-450 hektar sahədə taxıl biçini apara bilər. “Aqrolizinq” Səhmdar Cəmiyyətinin xətti ilə 2018-ci ildə 126 ədəd, 2019-cu ildə isə 156 ədəd taxılyığan kombayn lizinqə verilmişdir. Dənli və dənli paxlalıların əkin sahəsi 2018-ci ildə 997,5 min hektar, 2019-cu ildə isə 977,2 min hektar, o cümlədən 2017-ci ildə payızlıq və yazlıq buğdanın əkin sahəsi isə 596,1 min hektar, payızlıq və yazlıq arpanın əkin sahəsi isə 318,6 min hektar təşkil etmişdir. Ölkədə olan mövcud taxılyığan kombaynlarla isə mövsüm ərzində 640 min hektar taxıl sahəsində biçin aparmaq imkanı var.

Kənd təsərrüfatında texnikadan istiqfadənin iqtisadi səmərəliliyinin müəyyən edilməsində traktorun, kombaynın və digər maşınların orta illik, gündəlik və növbəlik iş məhsuldarlığı; növbəlik əmsalı (tarktor – növbə sayının traktor günə olan nisbəti), növbəlik məhsuldarlıq normasının yerinə yetirilməsi; vahid işə sərf olunan yanacaq – sürtkü materiallarının miqdarı və s göstəricilərdən istifadə olunur.

Kənd təsərrüfatının elektrikləşdirilməsi problemlərinində öz həllini tapması günün vacib məsələlərindən biridir. Burada təkcə kənd infrastrukturlarının deyil, başlıca olaraq istehsalatda elektrik enerjisinə tələbat artır. Kənd təsərrüfatının su ilə təmin edilməsində, müasir istixanaların və heyvandarlıq komplekslərinin qurulmasında və inkişafında, quraqlığın hökm sürdüyü bir zamanda su artezan quyularının, suvarma sistemlərinin işləməsində elektrikləşmənin rolu əvəzedilməzdir. Kənd təsərrüafatında elektrikləşmənin müasir tələblərə cavab verən şəkildə qurulması kənd təsərrüfatı məhsulları istehsalına çəkiln xərclərə qənaət olunmasına səbəb olur.

Son illərdə ölkəyə müasir tələblərə cavab verən yeni kənd tə-

sərrüfatı texnikalarının gətirilməsinə baxmayaraq təsərrüfat sahələrinin yerləşməsi, mövcud ixtisaslaşma səviyyəsi və istehsalçıların hansı istehsal sahələrinin inkişafına üstünlük vermələri demək olar ki, nəzərə alınmır. Bu isə öz növbəsində yeni texnikalardan istifadənin iqtisadi səmərəliliyini aşağı salır.

Kənd təsərrüfatında istehsalın inkişafına baxmayaraq hələ də sahələrin düzgün tənzimlənməməsi tələb – təklif arasındakı tarazlığın kəskin pozulmasına səbəb olur. Eyni zamanda, istehsal olunan məhsulun sonda itkiyə gedən hissəsinin və ya idxal məhsullarının səviyyəsinin artmasına səbəb olur. İmişlidə şəkər zavodunu xammalla təmin etmək üçün xaricdən idxal olunan məhsulun həcmi daxili istehsaldan dəfələrlə çoxdur. Belə ki, 2010-cu ildə Azərbaycanda 2015-ci ildə 184,3 min ton, 2016-cı ildə 312,1 min ton, 2017-ci ildə 410,1 min ton, 2018-ci ildə 277,2 min ton, 2019-cu ildə isə 218,5 min ton şəkər çuğunduru istehsal olunmuşdur. Eyni zamanda həmin illər üzrə müvafiq olaraq 353,6; 432,3; 290,9 və 331,1 min ton şəkər istehsalı üçün xammal ehtiyatları idxal olunmuşdur. Ümumiyyətlə kənd təsərrüfatı məhsulları istehsal sahələri emal sahələrinin inkişafı ilə sıx bağlıdır. Yəni xammala olan tələbatın ödənilməsi üçün kənd təsərrüfatı istehsal sahələrinin optimal həcminin müəyyənləşdirilməsi tələb olunur. Digər tərəfdən, emal sahələrinin inkişaf etdirilməsində xammalın daxili və xarici bazarlardan alınacaq həcmi müəyyənləşdirilməlidir. Təbii ki, bu halda mühüm məsələ rəqabətqabiliyyətli məhsul istehsalının əhəmiyyəti böyükdür.

Son illərdə həyata keçirilən dövlət proqramlarında Strateji Yol Xəritəsinin hədəflərində sahələrin inkişafı bir-biri ilə sıx bağlı olan iki əsas vəzifəni həll etməyi qarşıya məqsəd qoymuşdur:

- birincisi, əhali üçün yüksək keyfiyyətli qida və ərzaq məhsulları, sənaye üçün xammal və ixrac potensialını artırmaq üçün isə məhsul bolluğu yaratmaq;
- ikincisi, kənd əhalisinin həyat səviyyəsini yüksəltmək, kənd

və şəhər arasındakı fərqi əsasən ləğv etmək.

Bazar iqtisadiyyatının geniş təşəkkül tapdığı ölkələrin təcrübəsindən aydındır ki, kənd təsərrüfatında gəlirlər iqtisadiyyatın başqa bölmələri ilə müqayisədə aşağıdır və bu sahədə çalışanlar digər sahələrdə çalışanlara nisbətən daha az gəlir əldə edirlər. Bu arqumentlər aqrar sahənin dövlət tərəfindən müdafiə olunmasının və onun tənzimlənməsinin zəruriliyinə daha güclü sübutdur. Zəruri tənzimləmə tədbirləri vasitəsilə aqrar sahədə çalışanların gəlirlərini onların maraqlı olduqları səviyyəyə qədər qaldırmaqla istehsalçılarda kənd təsərrüfatı istehsalı ilə məşğul olmağa marağı gücləndirmək olar [131, s. 111].

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin hədəflərinə çatmaq kənd təsərrüfatı istehsalının artım sürətininin olduqca yüksəldilməsini, bütün təsərrüfat növlərinin və xidmət sahələrinin inkişafını tələb edir. Kənd təsərrüfatı məhsulları istehsalının hazırki inkişaf səviyyəsinə nail olmaq üçün müəyyən qədər iş görülməsinə baxmayaraq əsas hədəflərə tam çatmaq mümkün olmamışdır. Yaxın gələcəkdə məhsul istehsalını artırmaq üçün qarşıya bir çox vəzifələr qoyulmuşdur. Bu hədəflərə çatmağı şərtləndirən əsas amil növlər üzrə faktiki məhsul istehsalının potensial məhsul istehsalından aşağı olmasıdır. Kənd təsərrüfatı məhsulları istehsalının dinamikası cədvəl 2.2-də verilmişdir.

Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək və əhalinin taxıl məhsullarına olan tələbatının ödənilməsi üçün taxıl istehsalının artırılması strateji məqsəd kimi qarşıya qoyulmuşdur. Taxıl əhalinin əvəzedilməz yeyinti məhsuludur. Əhalinin sürətlə artması yüksək keyfiyyətli taxıla və onun növlərinə tələbatı bir neçə dəfə artırmışdır. Ət, süd və digər heyvandarlıq məhsullarının istehsalı eləcə də texniki bitkilərin istehsalının genişləndirilməsi taxıl istehsalının inkişafından asılıdır.

***Cədvəl 2.2***

***Azərbaycan Respublikasında 2012-2017-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalının dinamikası, 1000 ton.***

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2019-cu ildə 2018-ci ilə nisbətən %-lə |
|---|---|---|---|---|---|---|---|---|---|
| Dənli və dənli paxlalılar | 2802,2 | 2955,3 | 2383,3 | 2999,4 | 3065,1 | 2928,8 | 3218,4 | 3440,5 | 106,9 |
| Pambıq | 57,0 | 45,2 | 41,0 | 35,2 | 89,4 | 207,5 | 233,6 | 295,3 | 126,4 |
| Tütün | 4,3 | 3,5 | 2,9 | 3,5 | 3,6 | 5,3 | 6,3 | 6,0 | 0,95 |
| Kartof | 968,5 | 992,8 | 819,3 | 839,8 | 902,4 | 913,9 | 898,9 | 1004,2 | 111,6 |
| Tərəvəz | 1216,2 | 1236,3 | 1187,7 | 1275,3 | 1270,6 | 1405,6 | 1521,9 | 1714,6 | 112,6 |
| Bostan məhsulları | 428,0 | 429,8 | 440,9 | 484,5 | 464,8 | 438,1 | 402,0 | 447,7 | 111,4 |
| Şəkər çuğunduru | 19,7 | 17,7 | 19,8 | 18,4 | 312,6 | 410,1 | 277,2 | 218,5 | 0,79 |
| Üzüm | 151,0 | 148,5 | 147,7 | 157,1 | 136,5 | 152,8 | 167,6 | 201,8 | 120,4 |
| Çay | 0,57 | 0,57 | 0,47 | 0,58 | 1,02 | 0,78 | 0,85 | 0,89 | 104,7 |
| Ət (kəsilmiş çəkidə) | 276,0 | 286,9 | 291,2 | 298,6 | 302,2 | 316,8 | 326,0 | 335,7 | 102,9 |
| Süd | 1695,6 | 1796,7 | 1855,8 | 1924,5 | 2009,9 | 2024,1 | 2080,4 | 2150,8 | 103,4 |
| Yumurta, milyon ədəd | 1226,7 | 1401,5 | 1562,7 | 1552,9 | 1609,8 | 1714,0 | 1676,2 | 1827,1 | 109,0 |
| Yun | 16,2 | 16,5 | 16,8 | 17,0 | 16,7 | 16,0 | 16,5 | 16,8 | 101,8 |
| Barama, ton | 3,0 | 1,4 | 0,974 | 0,236 | 70,8 | 245,2 | 246,0 | 251,2 | 102,1 |

*Mənbə: Cədvəl "Azərbaycanın kənd təsərrüfatı" DSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. Bakı, 2020 [7].*

Taxıl istehsalının artırılması ilə birlikdə əkin sahələrinin genişləndirilməsi və məhsuldarlığın daha da yüksəldilməsi yolu ilə tex-

niki bitkilərin və digər kənd təsərrüfatı bitkilərinin istehsalı da sürətlə artmalıdır. Taxıl istehsalının stimullaşdırılması məqsədilə istehsalçılara subsidiyaların verilməsi həyata keçirilir. Hazırki subsidiyalaşdırma mexanizmi istehsalın stimullaşdırılmasında ciddi səmərəli təsirə malik deyildir. Məsələn taxılın subsidiyalaşdırılmasında verilən subsidiya əkin sahəsinə görə verilir və burada məhsuldarlıq, məhsulun keyfiyyəti nəzərə alınmır. Nəticədə ölkədə taxıl istehsalının artması fonunda ərzaqlıq buğda idxalı da artır.

Digər istehsal sahələrinə verilən subsidiyaların həcminin aşağı olması və burada texnoloji əməliyyatların və istehsal xərclərinin çoxluğunun nəzərə alınmaması subsidiyalaşmanın səmərəliliyini aşağı salır. Demək olar ki, istehsalçılar subsidiyalaşmanın bu şəkildə aparılmasına rəğmən istehsala maraq göstərmirlər. Bu da inkişaf etdirilməsi nəzərdə tutulan sahələrdə dövlət proqramının səmərəli həyata keçirilməsinə maneə törədir. Məsələn, 2022-ci ilə kimi pambıq istehsalının 500 min tona çatdırılması nəzərdə tutulmuşdur. Pambıq məhsulu özü texniki bitki olmasına baxmayaraq ondan alınan çiyid keyfiyyətli heyvandarlıq məhsullarının (yağlı süd və keyfiyyətli ət) və pambıq yağının alınmasında mühüm əhəmiyyətə malikdir. Lakin, pambıq istehsalı ilə məşğul olmaq böyük əmək və zəhmət tələb etməklə yanaşı istehsalçı üçün iqtisadi cəhətdən sərfəli olsun deyə son illər bu istiqamətdə stimullaşdırıcı tədbirlər xeyli gücləndirilmişdir.

Heyvandarlığın inkişafı ilə bağlı mühüm addımlar atılıb. Heyvandarlıq sahəsində mayalanma yolu ilə alınan hər buzova görə 100 manat subsidiya verilir və digər tədbirlər həyata keçirilir.

Kənd təsərrüfatı məhsullarının istehsalının artırılması və ölkənin kənd təsərrüfatı məhsullarına artan tələbatının ödənilməsi üçün xarici ölkələrdən alternativ məhsulların istehsalı və ixrac imkanlarının artırılmasının ən yaxşı yolu istehsalda yeni texnologiyalardan istifadə etmək, dönərli maşınlar və davamlı sürətlidir.

Kənd təsərrüfatında təmərküzləşmənin istiqamətini müəyyən

edərkən üç qarşılıqlı əlaqəni nəzərə almaq vacibdir: xərc - torpaq - istehsal. Buna görə də davamlılıq ətraf mühitə mənfi təsir göstərə bilər, ona görə də onun həyata keçirilməsinin vacib şərti ekoloji uğurdur [117, s. 215].

Kənd təsərrüfatının müasir tələblərə uyğun mexanikləşdirilməsi üçün yerli şəraitə və istehsal həcminə, ixtisaslaşma səviyyəsinə uyğun tenikaların gətirilməsi, ölkədə istehsalı mümkün olan texnikaların istehsal sahələrinin yaradılmasının sürətləndirilməsi tələb olunur. Ölkədə maşınqayırma sənayesinin müvafiq sahələrinin inkişafı kənd təsərrüfatının inkişafına və rəqabətqabilyyətli məhsul istehsalına şərait yaradır.

Kənd təsərrüfatı istehsalının intensivləşdirirlməsinin mühüm yollarından biri də onun hərtərəfli kimyalaşdırılmasıdır. Əkin sahələrinə texnoloji qaydalara uyğun olaraq mineral gübrələrin verilməsi məhsul istesalının 50%-dan çox yüksəlməsinə səbəb olur. Aqrar islahatlar dövründən başlayaraq əkin sahələrinin müneral gübrələrlə təmin edilmə səviyyəsinin aşağı düşməsi çoxlu məhsul itkisinə və istehsal olunan məhsulun keyfiyyət göstəricilərinin azalmasına səbəb olmuşdu. Lakin son 8-10 il ərzində bu sahədə xeyli irəliləyiş əldə edilmişdir.

Aşağıdakı cədvəldən aydın olur ki, 2012-ci ildə əkin sahələrinə cəmi 28,1 min ton mineral gübrə verilmişdisə, 2019-cu ildə bu rəqəm 5,6 dəfə artaraq 159,3 min tona bərabər olmuşdur. Həmin müddətdə ümumi əkin sahəsində gübrələnmiş sahənin xüsusi çəkisi 61% -dən 72%-ə qədər yüksəlmişdir.

Statistik məlumatlardan göründüyü kimi, kənd təsərrüfatında əkinə verilən mineral gübrənin miqdarı ilbəil artmaqda davam edirsə də, aqrotexniki qaydalara uyğun müəyyən edilmiş normalardan xeyli aşağıdır. Eyni zamanda, nəzərə almaq lazımdır ki, mineral gübrələrin torpaqlara vaxtlı-vaxtında tələb olunan səviyyədə verilməməsi hər növbəti ildə torpaqların qidalılıq dərəcəsini daha da aşağı salır. Onu da nəzərə almaq lazımdır ki, bitkilər həm növ-

lərinə görə, həm də vegetasiya müddətində torpaqlardan müxtəlif miqdarda qidalı maddələr alır.

Torpaqlardan istifadənin iqtisadi səmərəliliyinin yüksəldilməsi, torpaqların münbitliyinin qorunması üçün onların qida maddələri ilə təmin olunma səviyyəsinə xüsusi diqqət yetirmək lazımdır. Bunun üçün iqtisadi rayonlar üzrə torpaqların fiziki və kimyəvi xüsusiyyətlərinin öyrənilməsi, xəritələnməsinə və becərilən məhsulların texnoloji xüsusiyyələrinə diqqət yetirmək tələb olunur.

***Cədvəl 2.3***

***Azərbaycanın kənd təsərrüfatında əkinlərə mineral gübrələrin verilməsi, 100% qidalı maddə hesabı ilə***

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2018-ci ilə nisbətən 2019-cu ildə %-lə |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi min ton | 28,1 | 29,3 | 34,1 | 40,6 | 80,7 | 118,7 | 141,3 | 159,3 | 112,7 |
| Hər hektar əkinə, kq ondan: | 16 | 16 | 19 | 23 | 44 | 63 | 72 | 82 | 113,9 |
| taxıla | 20 | 20 | 23 | 21 | 51 | 62 | 86 | 89 | 103,5 |
| pambığa | 31 | 30 | 33 | 35 | 101 | 144 | 84 | 127 | 151,2 |
| tütünə | 65 | 66 | 71 | 72 | 120 | 114 | 141 | 131 | 0,93 |
| kartofa | 28 | 28 | 31 | 26 | 34 | 41 | 81 | 81 | 100,0 |
| tərəvəz və bostana | 20 | 24 | 30 | 28 | 58 | 62 | 91 | 96 | 105,5 |
| yem bitkilərinə | 5 | 4 | 4 | 9 | 14 | 18 | 35 | 26 | 0,74 |
| bağlara | 11 | 12 | 15 | 17 | 43 | 52 | 63 | 64 | 101,6 |
| Üzümlüklərə | 6 | 7 | 7 | 8 | 43 | 60 | 40 | 51 | 127,6 |
| Gübrələnmiş sahənin ümumi əkində xüsusi çəkisi,% | 61 | 68 | 46 | 58 | 70 | 72 | 84 | 80 | 95,2 |

*Mənbə: Cədvəl "Azərbaycanın kənd təsərrüfatı" DSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. Bakı, 2018.*

Kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmlənməsi məhsul istehsalının artmasında əsas rol oynayır. Maddi-texniki baza özündə kənd təsərrüfatında məhsuldar qüvvələrin bütün maddi elementlərini və bütün istehsal vasitlərinin məcmusunu əks etdirir.

Kənd təsərrüfatında ərzaq məhsullarının istehsalında tərəvəzçilik məhsulları da yüksək xüsusi çəkiyə malikdir. Qeyd edək ki, 2019-cu ildə tərəvəz bitkilərinin əkin sahəsi ümumi əkin sahəsinin 4,5%-ni təşkil etmişdir ki, Onun da əsas hissəsini pomidor 22,4 min ha, xiyar 13,0 min ha, baş soğan 12,0 min ha, kələm 5,2 min ha, badımcan 5,4 min ha, şirin bibər 2,9 min ha və sair tərəvəz bitkiləri 15,6 min ha, 2017-ci ildə isə tərəvəz bitkilərinin əkin sahəsi ümumi əkin sahəsinin 4,2 %-ni təşkil etmişdir ki, onun da əsas hissəsini pomidor 19,1 min ha, xiyar 11,7 min ha, baş soğan 12,4 min ha, kələm 4,4 min ha, badımcan 4,6 min ha, şirin bibər 2,7 min ha və sair tərəvəz bitkiləri 14,3 min ha təşkil etmişdir. Bundan başqa, kartof əkin sahəsi 62,8 min ha və 58,8 min ha, bostan bitkiləri  isə 26,4 min ha və 23,4 min ha təşkil etmişdir. Ümumilikdə bu bitkilərin əkin sahəsi ümumi əkin sahəsinin 2018-ci ildə 10%-ni, 2019-cu ildə isə 9,1%-ni təşkil etmişdir. Onu da qeyd edək ki, əldə edilən məhsulun satışında yaranan çətinlikliklər və suvarma suyunun çatışmazlığı tərvəz əkin sahələrinin azalmasına gətirib çıxarmışdır. Belə ki, 2011-ci ildə tərəvəz əkin sahələri 81,1 min ha təşkil edirdisə, 2018-ci ildə bu göstərici 9,1% azalaraq 73,7 min ha, 2019-cu ildə isə 69,3 min ha təşkil etmişdir.

Statistik məlumatların təhlilindən göründüyü kimi, tərəvəz əkinin günişləndirilməsi əsas etibarilə pomidor, xiyar, baş soğan, kələm və badımcan bitkilərinin hesabına aparılmışdır. Son illərdə ixrac potensialını artırmaq və əhalinin bütün il boyu bu məhsullara olan tələbatını ödəmək məqsədilə örtülü torpaq altında tərəvəz əkin sahələri sürətlə genişlənməkdədir. Belə ki, 2011-2015 ci ildə örtülü tərəvəz əkini 1,4-1,6 min ha arasında dəyişirdisə, 2016-ci ildə əvvəlki ilə nisbətən 37,5% artaraq 2,2 min ha, 2017-ci ildə isə

2,9 min ha təşkil etmişdir. Açıq və örtülü torpaqların tərəvəzinin dinamikası şəkil 2.1-də verilmişdir.




***Şəkil 2.1. Açıq və örtülü torpaqların tərəvəzinin dinamikası [7, s. 80].***

Araşdırmalarımız göstərir ki, kartof və əsas tərəvəz məhsulları üzrə əhalinin ərzaq məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir. Eyni zamanda ixrac olunan kartof və əsas tərəvəz məhsulları ümumi kənd təsərrüfatı məhsulları ixracatında yüksək xüsusi çəkiyə malikdir.

Ölkədə 2019-cu ildə tərəvəz əkin sahəsinin 28,5%-i (20972 ha) Aran iqtisadi rayonunun, 16,1%-i (11852 ha) Gəncə - Qazax iqti-

sadi rayonunun, 14,8%-i (10911 ha) Lənkəran iqtisadi rayonunun, 10,8%-i (7976 ha) Quba - Xaçmaz iqtisadi rayonunun və 10,6%-i (7852 ha) Şəki - Zaqatala iqtisadi rayonunun payına düşür. Eyni zamanda 2016-cı ildə istehsal olunan tərəvəz məhsulunun 27,8%-i (353,5 min ton) Aran iqtisadi raoyunda, 17,2 % - i (218,4 min ton) Gəncə-Qazax iqtisadi rayonunda, 17,2%-i (218,2 min ton) Lənkəran iqtisadi rayonunda və 12,4%-i (158,1 min ton) Quba-Xaçmaz iqtisdai rayonunda, 7,2%-i (91,8 min ton) Şəki-Zaqatala iqtisadi rayonunda istehsal olunmuşdur. Burada diqqət çəkən əsas məqam Quba – Xaçmaz və Şəki-Zaqatala iqtisadi rayonlarıdır. Belə ki, eyni həcmdə tərəvəz əkin sahəsinə sahib olmalarına baxmayaraq Quba-Xaçmaz iqtisadi rayonu Şəki-Zaqatala iqtisadi rayonundan 66274 ton az tərəvəz istehsal edib. Eyni zamanda məhsuldarlıq Şəki-Zaqatala iqtisadi rayonunda Quba-Xaçmaz iqtisadi rayonundan 80 sentner aşağıdır. Eyni zamanda, 2017-ci ildə tərəvəz əkin sahəsinin 27,2%-i (18867 ha) Aran iqtisadi rayonunun, 16,7%-i (11695 ha) Gəncə - Qazax iqtisadi rayonunun, 14,4%-i (9983 ha) Lənkəran iqtisadi rayonunun, 10,3%-i (7108 ha) Quba - Xaçmaz iqtisadi rayonunun və 9,3%-i (6424 ha) Şəki - Zaqatala iqtisadi rayonunun payına düşür. Eyni zamanda 2017-ci ildə istehsal olunan tərəvəz məhsulunun 26,9%-i (378,1 min ton) Aran iqtisadi rayonunda, 22,1%-i (311,3 min ton) Gəncə-Qazax iqtisadi rayonunda, 12,5%-i (176,1 min ton) Lənkəran iqtisadi rayonunda, 9,5%-i (133,7 min ton) Quba-Xaçmaz iqtisdai rayonunda, 5,7%-i (79,5 min ton) Şəki-Zaqatala iqtisadi rayonunda istehsal olunmuşdur. Burada diqqət çəkən əsas məqam 2019-cu ildə Quba – Xaçmaz və Şəki-Zaqatala iqtisadi rayonlarıdır. Belə ki, eyni həcmdə tərəvəz əkin sahəsinə sahib olmalarına baxmayaraq Quba-Xaçmaz iqtisadi rayonu Şəki-Zaqatala iqtisadi rayonundan 66274 ton az tərəvəz istehsal edib. Eyni zamanda, məhsuldarlıq Şəki-Zaqatala iqtisadi rayonunda Quba-Xaçmaz iqtisadi rayonundan 80 sentner aşağıdır. Digər tərəfdən 2019-cu ildə tərəvəz istehsalı 2018-ci illə

müqayisədə 2019-cu ildə tərəvəz istehsalı Şəki-Zaqatala, Lənkəran və Quba – Xaçmaz iqtisadi rayonlarında 14-20% azalmışdır. Burada əsas məqamlardan biri də torpaqlardan təyinatına görə düzgün istifadə olunmaması və ixtisaslaşmanın düzgün getməməsidir.

Təsərrüfatların müasir vəziyyətini təhlil edərkən aydın olur ki, burada tərəvəzçiliklə yanaşı taxıl, meyəvə və gilə meyvələr, qəzəkli meyvələr, ət, süd və digər məhsullar istehsal olunur. Mövcud istehsal sahələri arasında düzgün əlaqə yaradılması regionun iqtisadiyyatının möhkəmlənməsinin əsasını təşkil edir. İstehsal sahələrinin bir-biri ilə düzgün əlaqələndirilməsi kənd təsərrüfatının idarə edilməsi sisteminin çox mühüm cəhətlərindən biridir. Kənd təsərrüfatında müxtəlif istehsal sahələrinin bir-birilə səmərəli əlaqələndirilməsi onların ölçüsünün düzgün təyin edilməsini tələb edir.

Əgər istehsalın iqtisadi cəhətcə əsaslandırılmış ölçüsü təyin edilməzsə, onda sahələr arasında uyğunsuzluq əmələ gələr, onların proporsional inkişafı tımin edilməz. Odur ki, kənd təsərrüfatının müxtəlif sahələrinin düzgün əlaqələndirilməsindən danışarkən onların istehsal ölçüsünə diqqət yetirmək tələb olunur.

Ayrı-ayrı istehsal sahələrinin və bitki növlərinin əlaqələndirilməsi o vaxt düzgün və səmərəli sayılır ki, aşağıda göstərilən məsələlər vaxtında uğurla həll edilmiş olsun:

1. Kənd təsərrüfatına yararlı torpaq sahəsindən düzgün, hərtərəfli və tam istifadə etmək;

2. Bitkiçiliklə heyvandarlıq arasında nisbəti düzgün təyin etmək. Mövcud heyvanların sayına və növünə görə yemə olan tələbatı hesablayaraq yem bitkilərinin əkin sahəsinin ölçüsünü adekvat müəyyən etmək;

Məlumdur ki, kənd təsərrüfatında iş dövrü ilə istehsal vaxtının uyğun gəlməməsi üzündən əkinçilikdə yaz dövründə işçi qüvvəsinə tələbat artır, qış zamanı isə azalma baş verir. Müşahidələrimiz

göstərir ki, elə bu səbəbdən rayonlarda və kəndlərdə əmək qabiliyyətli əhalinin əsas hissəsi işsizlikdən, daha doğrusu, məşğulluq səviyyəsinin aşağı olmasından əziyyət çəkir. Elə təsərrüfatlar var ki, xüsusən taxıl istehsal edənlər, onlarda təsərrüfat işlərinə 1–2 adam cəlb olunur. Qalan əmək qabiliyyətli insanlar, xüsusən gənclər, işsizlikdən əziyyət çəkirlər. İstixanaların inkişaf etdiyi kəndlərdə bu bir qədər yumşalır, yəni işəmuzd cəlb olunan əhali burada əlavə gəlir əldə etmək imkanı qazanırlar. Bu kimi problemlərin mövcudluğu kənd təsərrüfatının ahənginə mənfi təsir edir.

Göstərilən problemlərin öz həllini tapması üçün yeni təsərrüfat formalarının yaradılması, kooperasiya əlaqələrinin gücləndirilməsi diqqət mərkəzində olmalıdır. Çünki kiçik torpaq sahələrində bu kimi məsələlərin öz həllini tapması mümkün deyildir. Eyni zamanda regionlarda əmək ehtiyatlarından səmərəli istifadə etmək və məşğulluq səviyyəsinin yüksəldilməsi üçün sənayeləşmənin sürətləndirilməsi tələb olunur.

## 2.2. Ərzaq təminatında idxaldan asılılığın qiymətləndirilməsi

Ərzaq təhlükəsizliyi problemi dövlətin daim diqqət mərkəzində olmaqla mütəmadi olaraq nəzərdən keçirilir. Ərzaq təhlükəsizliyi üçün əsas təhlükə əhalinin ərzaq məhsullarına olan tələbatının idxaldan asılılığının gücləndirilməsidir. Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi daha şox əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi ilə bağlıdır.

Azərbaycanda son illərdə həyata keçirilən iqtisadi-sosial siyasət və islahatlara uyğun olaraq dövlət proqramlarının yerinə yetirilməsində yol verilən nöqsanlar, xüsusilə kənd təsərrüfatı siyasətinin müəyyən mənada çevik olmaması sübut etdi ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi təhdidlərin artmasına gətirib çıxarır. Əhalinin gəlirlərinin və alıcılıq qabiliyyətinin aşağı düşməsi daha

qətiyyətli addımların atılmasını iqtisadi islahatların dərinləşməsini tələb edir. Kənd təsərrüfatında potensial istehsaldan aşağı məhsul istehsalı kiçik təsərrüfatların fəaliyyətinin iqtisadi səmərəliliyinin aşağı düşməsinə səbəb olur. Kənd təsərrüfatında istehsal olunan ərzaq məhsullarının əsasən texniki sort məhsullar olması (buğda, pomidor, alma və s) və həmin məhsulların bazarlarda rəqabətqabiliyyətli olmayan ərzaq məhsulu kimi aşağı qiymətə satılmasına səbəb olur.

Son 15 ildə kənd təsərrüfatının davamlı inkişafı və münbit iqtisadi şəraitin yaradılması, hər bir insanın qida təhlükəsizliyinin qorunması, rəqabətqabiliyyətli istehsalın artırılması, səmərəli fəaliyyət göstərən kənd təsərrüfatı məhsullarının bazarının formalaşması dövlətimizin aqrar siyasətinin ana xəttini təşkil etmişdir.

Milli təhlükəsizliyin tərkib hissəsi kimi ərzaq təhlükəsizliyi dövlətin iqtisadi əsaslarının möhkəmləndirilməsində mühüm rol oynayır. Əhalinin rasional qida normalarına cavab verən ərzaq məhsullarına tələbatının ödənilməsi Azərbaycan hökumətinin daim diqqət mərkəzindədir.

Qeyd edək ki, ərzaq təhlükəsizliyi bir sıra sosial-iqtisadi amillərdən asılıdır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

- əhalinin həyat səviyyəsi;
- qida istehlak səbətində məhsul komponentlərinin balansı və ya üstünlüyü;
- əhalinin həyat və sağlamlığı üçün təhlükə yaradan keyfiyyətsiz ərzaq məhsullarına nəzarət;
- kənd təsərrüfatı istehsalının qeyri-sabitliyi və müəyyən dövrlərdə ərzaq təhlükəsizliyinin səviyyəsini aşağı salacaq təbii fəlakətlərin baş vermə ehtimalı;
- yerli yeməklərin rəqabət qabiliyyəti;
- Ərzaq məhsullarına tələbatın ödənilməsi üçün ölkənin idxaldan asılılığının artırılması.

Azərbaycan iqtisadiyyatının ən çox dəstəyə ehtiyacı olan və ən

az investisiya qoyulan sektorlarından biri olan kənd təsərrüfatında mövcud olan problemlər öz aktuallığını saxlamaqda davam edir. Bu, əsas vəsaitlərin köhnəlməsi, köhnəlmiş texnologiyaların istifadəsi, resurs təminatının, işçi səviyyəsinin azalması ilə ifadə olunur.

Kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyi problemi Azərbaycan üçün yalnız daxili deyil, həm də xarici aspektdir. Belə ki, kənd təsərrüfatı məhsullarının, xammalın və ərzaq məhsullarının istehsalında göstərilən artım daha çox rəqabətədavamlı idxal məhsullarının tədarükünün sürətlə artmasına səbəb olur. Azərbaycanda istehlak edilən ərzaqların təxminən 25-30%-i xaricdən gətirilir. Burada bir məsələni də nəzərə almaq lazışmdır ki, mövsum ərzində (iyun-oktyabr) idxaldan asılılıq səviyyəsi kəskin şəkildə aşağı düşür və ərzaq məhsullarının ixracı artır. Bu əsasən kartof, pomidor, xiyar və bəzi meyvə məhsullarıdır. Eyni adlı məhsulların idxal – ixrac olunması təbii olaraq iqtisadi qanunauyğunluq təşkil edir. Çünki, bu məhsulların tələb olunan vaxta qədər saxlanılması idxaldan baha başa gəlir və çoxlu xərc tələb edir. Aparılan araşdırmalarımız göstərir ki, kartof məhsulu iki dəmyə və suavarma şəraitində yetişdirilir. Suvarılan kartof əsasən iyul-avqust ayında kütləvi şəkildə toplanır və ixrac olunur. Onun saxlanılması isə yüksək xərc tələb etdiyindən iqtisadi cəhdətdən sərfəli deyildir. Belə ki, saxlanması müqabilində bazara təklif olunması vaxtı 1 kiloqramın qiyməti 1,5-2,0 dəfə baha başa gəlir ki, bu da rəqabətqabiliyyətli olmur. Dəmyə şəraitində yetişdirilən kartof isə oktyabr-noyabr aylarında toplanır və adi şəraitdə saxlanılması mümkündür və bazara təklif olunan qiyməti 0,8-1,2 manat təşkil edir ki, bu da həmin aylarda idxal olunan kartofdan baha olsa da keyfiyyətinə görə rəqabətqabiliyyətlidir. Kənd təsərrüfatı məhsulları, xammal və ərzaq məhsullarının rəqabət qabiliyyətinin əhəmiyyətli xüsusiyyətlərindən biri kimi keyfiyyət və qiymət göstəricilərinin optimal tarazlığının təmin edilməsi hesabına rəqiblərə nisbətən da-

ha yaxşı nəticələrə nail olmaq və mövcud tələbatla əlaqəni müəyyən etmək olar.

Kənd təsərrüfatında istehsal olunan əsas ərzaq məhsullarının ixrac dinamikası cədvəl 2.4-də verilmişdir.

***Cədvəl 2.4***

***Azərbaycan Respublikasında 2010-2019-cu illərdə ərzaq məhsullarının ixrac dinamikası (ton)***

| | 2010 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2018-ci ilə nisbətən 2019-cu ildə |
|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün növ malqara və quş əti | 1519 | 1581 | 1387 | 831 | 134 | 665 | 775,0 | 980,0 | 126,4 |
| Süd və süd məhsulları | - | 6072 | 6019 | 6262 | 5753 | 15983 | 12647,0 | 49595,0 | 3,9 dəfə |
| Yumurta (min ədəd) | 666 | 605 | - | - | - | 9194 | 44034,0 | 34920,0 | 0,79 |
| Balıq və balıq məhsullarının ehtiyatı | 245 | 32 | - | - | 215 | 479 | 522,0 | 583,0 | 111,7 |
| Kartof | 69853 | 53942 | 49476 | 36713 | 38248 | 57688 | 66563,4 | 61785,1 | 0,93 |
| Bütün növ tərəvəzlər | 55958 | 65955 | 77883 | 84064 | 125884 | 231475 | 233332,4 | 221195,4 | 0,95 |
| Şəkər | 211848 | 256312 | 235438 | 224068 | 112063 | 66242 | 44,1 | 62,1 | 140,8 |
| Bitki yağları | 78378 | 81615 | 76895 | 59529 | 13009 | 13122 | 10842,2 | 8218,7 | 0,76 |
| Meyvə və giləmeyvə | 204958 | 187136 | 167465 | 182011 | 219748 | 237767 | 319187,9 | 336342,0 | 105,3 |
| Üzüm | 984 | 1216 | 476 | 2038 | 4138 | 2520 | 3311,0 | 4214,0 | 127,2 |

*Cədvəl Azərbaycanın Statistik Göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir. Bakı-2020, [6].*

Statistik məlumatların təhlili göstərir ki, kənd təsərrüfatında istehsal olunan əsas ərzaq məhsullarından kartof, tərəvəz, meyvə və giləmeyvə üstünlük təşkil edir. Bu məhsullar içərisində diqqət çəkən əsasən şəkər ixracıdır ki, bu məhsulun əldə edilməsi üçün daxili xammaldan əlavə xaricdən də xammal idxal olunur və yeni əlavə dəyər yaranır və xarici ölkələrə (Türkmənistan, Tacikistan, Qazaxstan və İraq) ixrac olunur. Statistik məlumatlardan göründüyü kimi, şəkər ixracı 2018-ci ilə nisbətən 2019-cu ildə 27,2% artmışdır, eyni zamanda şəkər istehsalı üçün idxal olunan xammalın həcmi də 40,8% azalmışdır. Azalmanın əsas səbəbi istehsal texnologiyasının yenilənməsi və müəssisənin rəqabət qabiliyyətinin yüksəlməsi olmasıdır. Bu həmdə, daxili tələbatı ödəmək üçün şəkər idxalının 0,4 dəfə azalmasına səbəb olmuşdur. Onu da qeyd edək ki, müəssisənin İmişli rayonunda fəaliyyət göstərməsi əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə də müsbət təsir edir. Bunu bitki yağlarına da şamil etmək olar. Digər sahələrin inkişafının da bu şəkildə təşkili gələcəkdə istehsal sahələrinin genişlənməsinə və ümumilikdə kənd təsərrüfatı iqtisadiyyatının yüksəlməsinə müsbət təsir edər.

Son illərdə aparılan aqrar islahatlar və əlavə yerinə yetirilən stimullaşdırıcı tədbirlər nəticəsində 2019-cu ildə 2018-ci ilə nisbətən buğda, kartof, bütün növ tərəvəz və bitki yağları idxal həcmi azalmışdır. Ölkə üzrə ərzaq məhsullarının istehsalı və idxalı cədvəl 2.5-də verilmişdir.

Statistik məlumatların təhlili göstərir ki, ölkəmizdə 2010-cu illə müqayisədə 2019-cu ildə şəkər və bitki yağları istisna olmaqla digər ərzaq məhsulları istehsalı artmışdır. Eyni zamanda kartof üzrə idxal 3,1 dəfə, şəkər idxalı 1,8 dəfə, bütün növ ət idxalı 2 dəfə, yumurta idxalı 0,79% dəfə artmışdır. Apardığımız araşdırmalar göstərir ki, ölkədə istehsal olunan buğda istehsalında ərzaq keyfiyyəti üçün yararlıq dərəcəsi aşağıdır. Digər tərəfdən, ölkəmizdə istehsal olunan buğda sortu əsasən yumşaq buğdadı r və bu

***Cədvəl 2.5***

***2010-2017-ci illər ərzində ərzaq məhsullarının istehsalı və idxalı (min ton)***

| Məhsullar/ İllər | | 2010 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2010-cu ilə nisbətən 2019-cu ildə %-lə |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Buğda | istehsal | 1272,3 | 1841,3 | 1407,4 | 1639,8 | 1799,9 | 1769,5 | 1991,7 | 2114,1 | 168,2 |
| | idxal | 1330,0 | 1451,3 | 1195,7 | 1353,1 | 1599,6 | 1274,4 | 1080,9 | 1585,0 | 119,1 |
| Kartof | istehsal | 953,7 | 992,8 | 819,3 | 839,8 | 902,4 | 913,9 | 898,9 | 1004,2 | 105,2 |
| | idxal | 65,0 | 78,1 | 143,6 | 139,2 | 191,2 | 168,8 | 158,3 | 201,3 | 3,1 dəfə |
| Bütn növ tərəvəz | istehsal | 1189,5 | 1236,3 | 1187,7 | 1275,3 | 1270,6 | 1405,6 | 1521,9 | 1714,7 | 144,1 |
| | idxal | 85,0 | 37,8 | 38,8 | 42,0 | 61,2 | 45,9 | 36,8 | 39,8 | 46,8 |
| Şəkər | istehsal | 335,5 | 423,1 | 410,6 | 332,1 | 430,8 | 238,2 | 201,0 | 271,0 | 80,7 |
| | idxal | 92,0 | 71,3 | 65,5 | 64,1 | 57,7 | 221,5 | 93,3 | 161,0 | 1,8 dəfə |
| Meyvə və giləmeyvə | istehsal | 729,5 | 853,8 | 851,0 | 888,4 | 882,8 | 954,8 | 1010,8 | 1099,7 | 150,7 |
| | idxal | 151,4 | 34,5 | 25,2 | 74,7 | 95,2 | 98,7 | 138,1 | 141,5 | 93,5 |
| Bütün növ mal-qara və quş əti | istehsal | 244,5 | 286,9 | 291,2 | 298,6 | 302,2 | 316,8 | 326,0 | 335,7 | 137,3 |
| | idxal | 36,0 | 25,1 | 25,4 | 17,6 | 41,7 | 58,0 | 68,9 | 72,3 | 2 dəfə |
| Süd və süd məhsulları | istehsal | 1535,7 | 1796,7 | 1855,8 | 1924,5 | 2009,9 | 2024,1 | 2080,4 | 2150,8 | 140,0 |
| | idxal | 647,2 | 573,6 | 581,7 | 366,0 | 288,5 | 344,0 | 330,8 | 391,3 | 0,60 |
| Yumurta (min ədəd) | istehsal | 1178,6 | 1401,5 | 1562,7 | 1552,9 | 1609,8 | 1714,0 | 1676,2 | 1827,1 | 155,0 |
| | idxal | 25,7 | 1,2 | 4,1 | 5,3 | 19,1 | 133,0 | 18,5 | 2,4 | 0,79 |
| Balıq və balıq məhsulları | istehsal | 45,3 | 51,0 | 50,0 | 51,2 | 63,1 | 63,8 | 61,9 | 63,1 | 139,3 |
| | idxal | 14,1 | 20,2 | 18,7 | 14,8 | 13,8 | 15,3 | 13,1 | 14,3 | 101,4 |
| Bitki yağları | istehsal | 89,1 | 100,2 | 106,9 | 106,6 | 82,2 | 80,4 | 71,1 | 75,1 | 84,3 |
| | idxal | 109,1 | 115,2 | 129,6 | 129,1 | 153,6 | 149,6 | 150,5 | 163,9 | 149,4 |

*Cədvəl "Azərbaycanın Ərzaq balansları" əsasında müəllif tərəfindən tərtib edilmişdir. Bakı, 2020 [10].*

ümumi buğda istehsalının 80-90%-ni təşkil edir. Eyni zamanda istehsal olunan yumşaq buğdanın əsas hissəsi 5-ci dərəcəli buğda hesab olunur ki, bu da çörək və çörək məmulatları istehsalına yararsızdır. Əsas səbəb isə ərzaq istehsalı üçün istifadə olunan buğda

toxmunun repreduksiya dərəcəsinin aşağı olmasıdır. Bərk buğda sortu makaron istehsalında istifadə olunur. Onuda qeyd edək ki, əhalinin sayının artması ərzaq məhsullarına olan tələbatın artmasını şərtləndirən əsas amillərdən biridir. Əhalinin sayının artması təbii olaraq istehsalın daima artırılmasını tələb edir və bu yerli istehsal hesabına mümükün olmadıqda ərzaq məhsullarına olan tələbatı ödəmək üçün idxalın artırılmasını labüd edir. 2017-cı ildə bəzi ərzaq məhsulları üzrə əsas balans göstəriciləri cədvəl 2.6-da verilmişdir.

***Cədvəl 2.6***

***Azərbaycanda 2019-cu il üçün bəzi ərzaq məhsulları üzrə balans göstəriciləri, min ton***

| | İlin əvvəlinə qalıq | İstehsal | İdxal | Ehtiyatların cəmi | Cəmi daxili istehlak | İtkilər | İxrac | İlin sonuna qalıq |
|---|---|---|---|---|---|---|---|---|
| Buğda | 1025,6 | 1769,5 | 1274,4 | 4069,6 | 2997,3 | 242,5 | - | 829,8 |
| Kartof | 592,2 | 913,9 | 168,8 | 1674,9 | 946,9 | 60,9 | 57,7 | 609,4 |
| Bütün növ tərəvəz | 203,3 | 1405,6 | 45,9 | 1654,9 | 1123,8 | 94,4 | 231,5 | 205,2 |
| Şəkər | 162,6 | 238,2 | 221,3 | 622,0 | 256,0 | 1,0 | 66,2 | 298,7 |
| Bitki yağları | 28,1 | 80,4 | 149,6 | 259,2 | 215,2 | 1,3 | 13,1 | 28,5 |
| Meyvə və giləmeyvə | 48,5 | 954,8 | 98,7 | 1102,0 | 765,3 | 15,6 | 273,8 | 47,4 |
| Üzüm | 1,5 | 152,8 | 13,3 | 167,6 | 160,0 | 3,5 | 2,5 | 1,6 |
| Bütün növ mal-qara və quş əti | 4,2 | 316,8 | 58,0 | 379,1 | 364,3 | 1,9 | 0,7 | 12,2 |
| Süd və süd məhsulları | 4,9 | 2024,1 | 344,0 | 2373,1 | 2342,0 | 9,3 | 16,0 | 5,7 |
| Yumurta (min ədəd) | 8,2 | 1714,0 | 0,1 | 1722,4 | 1671,7 | 8,6 | 9,2 | 32,7 |
| Balıq və balıq məhsulları | 2,9 | 63,8 | 15,3 | 81,9 | 78,3 | 0,2 | 0,5 | 3,0 |

*Mənbə: [6, s. 504-512].*

Statistik məlumatların təhlili göstərir ki, 2018-ci ildə buğda üzrə cəmi daxili istehlakın 53,5%-i, 2019-cu ildə isə 42,5% - idxal olunmuşdur. Bitki yağları ilə təminat isə əsasən idxal hesabına ödənilir. Bəzi kənd təsərrüfatı və emal məhsulları isə böyük həcmdə ixrac edilir. Ölkədə istehsal edilən şəkərin 2016-cı ildə 26,0%-i, 2019-cu ildə isə 27,8%-i ixrac edilmişdir. Burada həm şəkər istehsalının azalması, həmdə idxalın artması və ilin sonuna qalıq bu sahədə rəqabətqabiliyyətinin aşağı düşməsini göstərir. Əhalinin etibarlı ərzaq məhsulları ilə təmin edilməsi və Azərbaycan əhalisinin ərzaq təhlükəsizliyini və ölkədə yeyinti məhsullarının ehtiyatının yaradılmasını qarşıya məqsəd qoyan "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair" Dövlət Proqramı əsasən icra edilmişdir. Yerinə yetirilmiş Dövlət Proqramının əsas məqsədi əhalinin sağlam yaşamaları və məhsuldar fəaliyyət göstərmələri üçün qəbul edilmiş fizioloji normalara uyğun olaraq ərzaq məhsulları ilə təmin edilməsidir. İlk olaraq burada ərzaq məhsullarına olan tələbatın ödənilməsi üçün yerli istehsalın artırılması əsas hədəf olaraq götürülmüşdür. Lakin qəbul edilmiş proqramda müəyyən edilmiş hədəf göstəricilərinə tam şəkildə nail olmaq mümkün olmamışdır və bu cədvəl 2.7-də verilmişdir.

Statistik məlumatların və Dövlət Proqramı üzrə hədəf göstəricilərinin monitorinqi göstərir ki, qarşıya qoyulan 2015-ci il üçün hədəf göstəricilərinə dənli bitkilərin əkin sahələri və ümumi məhsul istehsalı, sənaye üsulu ilə quş əti istehsalında, yumurta istehsalında, və meyvə istehsalı üzrə nail olunmuşdur. Digər hədəf göstəricilərinə isə (ət istehsalı, süd məhsulları, kartof, tərəvəz və bostan) proqramın həyata keçirildiyi dövrdə nail olunmamışdır. Eyni zamanda 2016-cı ildə də bu göstəricilərə nail olmaq mümkün olmamışdır.

Onu da nəzərə almaq lazımdır ki, dənli bitkilər üzrə ümumi məhsulun hədəf göstəricisindən çox olması əkin sahəsinin geniş

***Cədvəl 2.7***

***"2008-2015-ci ildə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair" Dövlət Proqramının 2019-cu il üçün icra meyarlarını təşkil edən hədəf göstəricilərinə uyğun olaraq əldə edilmiş nəticələr***

| | Ölçü vahidi | Hədəf göstəriciləri | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dənli bitkilərin əkin sahəsi | Min ha | 900 | 897 | 1125,5 | 968 | 967,3 | 1031,4 | 1074,1 | 1001,4 | 952,1 | 997,5 |
| Ümumu məhsul | Mln ton | 2,8 | 2,5 | 2,9 | 2,0 | 2,4 | 2,8 | 2,9 | 2,4 | 2,9 | 3,1 |
| Məhsuldarlıq | s/ha | 32 | 27,9 | 26,6 | 20,7 | 25,4 | 27,2 | 27,5 | 24,0 | 31,5 | 30,6 |
| ət istehsalı(kəs. çəki)** | Min/t | 340 | 228,0 | 231,5 | 244,9 | 254,9 | 276,0 | 286,9 | 291,2 | 298,6 | 302,2 |
| Süd məhsulları | Mln/t | 2,4 | 1,38 | 1,43 | 1,54 | 1,59 | 1,69 | 1,80 | 1,85 | 1,9 | 2,0 |
| Sənaye üsulu ilə quş əti | Min ton | 83 | 51,5 | 67,0 | 61,7 | 68,6 | 86,5 | 94,5 | 99,4 | 97,2 | 95,5 |
| yumurta | Mlrd ədəd | 1,3 | 1,1 | 1,21 | 1,18 | 1,01 | 1,23 | 1,40 | 1,56 | 1,5 | 1,61 |
| kartof | Mln/t | 1,12 | 1,08 | 0,98 | 0,95 | 0,94 | 0,97 | 0,99 | 0,82 | 0,84 | 0,9 |
| Tərəvəz və bostan | Mln/t | 1,72 | 1,64 | 1,59 | 1,62 | 1,69 | 1,64 | 1,67 | 1,63 | 1,3 | 1,3 |
| Meyvə | Min ton | 800 | 712,8 | 718,2 | 729,5 | 765,8 | 810,0 | 853,8 | 850,8 | 888,4 | 882,8 |
| Yağlı bitkilərin əkin sahəsi | Min ha | 135 | *10,3 | *8,2 | *9,0 | 12,8 | 12,9 | 12,8 | 12,2 | 11,0 | 10,5 |
| Şəkər çuğundurunun əkin sahəsi | Min ha | 20 | 6,4 | 7,7 | 8,5 | 7,3 | 3,6 | 5,5 | 5,7 | 4,9 | 7,1 |
| çay yarpağı | Min/t | 3 | 1,0 | 0,8 | 0,6 | 0,5 | 0,5 | 0,5 | 0,5 | 0,6 | 1,2 |
| yem bitkilərinin əkin sahələri | Min ha | 500 | 348,6 | 361,4 | 385 | 394,3 | 392,7 | 396,4 | 402,9 | 428,6 | 394,1 |
| qarışıq yem istehsalı | Mln/t | 2 | 0,036 | 0,037 | 0,048 | 0,047 | 0,189 | 0,065 | 0,065 | 0,128 | 0,205 |

*Cədvəl Bakı-2020 və 2008-2015-ci il Dövlət Proqramının icrası məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

** -dən üçün günəbaxan*

*** -quş əti ilə birlikdə*

lənməsi hesabına baş vermişdir ki, bu da ekstensiv inkişaf olmaqla müasir bazar iqtisadiyyatı şəraitində iqtisadi cəhətdən səmərəli deyildir. 2018-ci ildə isə həmin göstəricilərin 2015-ci illə müqayisədə aşağı düşməsi isə onu göstərir ki, görülən tədbirlərə baxmayaraq kənd təsərrüfatının dayanıqlı inkişafı bir sıra istiqamətlərdə təmin olunmamışdır. Bu isə onu deməyə əsas verir ki, kənd təsərrüfatının inkişaf etdirilməsi üçün yeni fəaliyyət mexanizmləri işlənib hazırlanmalı və daha radikal islahatlar aparılmalıdır.

Kənd təsərrüfatının inkişafında əmək ehtiyatlarından səmərəli istifadə etmək mühüm əhəmiyyət kəsb edir. Çünkü məhsulun istehsalında və ərsəyə gətirilməsində əsas başlıca amil insan əməyidir. İnsan əməyinin təsiri və ya müdaxiləsi olmadan lazım olan məhsulu tələb olunan həcmdə istehsalı mümkün deyildir. İnsan əməyi ilə həm torpağın iqtisadi münbiyliyi təmin edilir, həm də digər istehsal alətləri yaradılaraq onların vasitəsilə torpaqda və digər sahələrdə istehsal fəaliyyəti həyata keçirilir.

Azərbaycanda məşğul əhalinin və kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıda məşğul olan əhalinin sayı cədvəl 2.8-də verilmişdir.

Statistik məlumatların təhlili göstərir ki, 2019-cu ildə ölkə üzrə məşğul əhalinin 36,3%-i kənd təsərrüfatında çalışır. Kənd təsərrüfatında çalışan əhalinin 0,01% kənd təsərrüfatı müəssisələrində, 0,02% fərdi sahibkar təsərrüfatlarında, 2,5% sahibkarlı fəaliyyəti göstərən kiçik müəssisələrində, 0,01%-i xarici və birgə müəssisələrində, 98,5%-i isə ailə-kəndli ev təsərrüfatında çalışır. Aparılan araşdırmalarımız göstərir ki, məşğul əhalinin ümumi sayında ailə-kəndli ev təsərrüfatlarında məşğulluq səviyyəsi daha yüksəkdir (35,8%).

Ümumiyyətlə 2019-cu ildə Azərbaycandan ixrac olunan məhsulların ümumi dəyəri 15475,6 mln ABŞ dolları, idxal məhsullarının ümumi dəyəri isə 8782,0 mln ABŞ dollarına bərabər olmuşdur. Ölkəmizdən 2015-ci illə müqayisdə 2017-ci ildə Rusiya Fe

***Cədvəl 2.8***

***Azərbaycanda məşğul əhalinin və kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıda məşğul olan əhalinin sayı***

| Göstəricilər | | Ölçü vahidi | 2010 | 2012 | 2013 | 2014 | 2015 | 2017 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Məşğul əhalinin sayı | | min nəfər | 4329,1 | 4445,3 | 4521,2 | 4602,9 | 4671,6 | 4759,9 | 4822,1 |
| O cümlədən: | | | | | | | | | |
| Kənd təsərrüfatı müəssisələrində | | min nəfər | 17 | 16 | 15 | 15 | 15 | 15 | 17 |
| Fərdi sahibkar təsərrüfatlarında, min nəfər | Ailə üzvləri | min nəfər | 10,3 | 10,3 | 9,4 | 6,6 | 6,1 | 5,7 | 3,7 |
| | Cəlb olunmuş | min nəfər | 1,7 | 1,7 | 1,8 | 1,8 | 1,8 | 1,5 | 1,0 |
| Sahibkarlıq fəaliyyəti göstərən kiçik müəssisələrdə | | nəfər | 5396 | 5253 | 5550 | 5869 | 4734 | 4615 | 4520 |
| Xarici və birgə müəssisələrdə | | nəfər | 286 | 352 | 289 | 211 | 235 | 215 | 208 |
| Ailə-kəndli ev təsərrüfatında çalışan | | min nəfər | 1619,5 | 1640,2 | 1645,3 | 1662,2 | 1670,5 | 1702,6 | 1726,5 |

*Cədvəl "Azərbaycanın statistik göstəriciləri" əsasında tərtib olunmuşdur. DSK., Bakı, 2020 [6].*

derasiyasına təzə tərəvəz və makaron məmulatları ixracı 2,4-2,6 dəfə artmışdır. Digər məhsullar üzrə ixrac isə 50%-dən 2 dəfəyə qədər artmışdır. Araşdırmalar göstərir ki, idxal əvəzləyici məhsul-

***Cədvəl 2.9***

***Rusiya Federasiyasına 2015-2019-cu illərdə Azərbaycandan ixrac olunan ərzaq məhsullarının dinamikası***

| | 2015 | | 2017 | | 2019 | | 2015-ci ilə nisbətən 2019-cu ildə | |
|---|---|---|---|---|---|---|---|---|
| | Miqdarı ton | Məbləği min ABŞ dolları | Miqdarı ton | Məbləği min ABŞ dolları | Miqdarı ton | Məbləği min ABŞ dolları | % | % |
| Kartof | 36692,2 | 20945,2 | 37866,6 | 15738,1 | 57106,5 | 25669 | 155,6 | 122,5 |
| Təzə tərəvəz | 82928,3 | 70593,3 | 122325,4 | 112686,9 | 196278,8 | 177833,9 | 2,4 dəfə | 2,5 dəfə |
| Təzə meyvə | 154059,2 | 143517,9 | 185774,0 | 163129,8 | 217618,1 | 196919,5 | 141,2 | 137,2 |
| Çay | 808,1 | 3674,8 | 641,2 | 2754,3 | 1080,1 | 5398,0 | 133,6 | 146,9 |
| Makaron məmulatları | 55,4 | 45,6 | 50,7 | 35,5 | 146,7 | 92,8 | 2,6 dəfə | 2 dəfə |
| Meyvə və tərəvəz konservləri | 1624,5 | 1378,3 | 3322,4 | 2679,7 | 3205,1 | 2412,1 | 197,3 | 175,0 |
| Meyvə və tərəvəz şirələri | 3262,7 | 3377,4 | 2914,9 | 3367,5 | 5015,6 | 5861,9 | 153,7 | 173,6 |
| Üzüm şərabı - dkl | 183,3 | 3254,8 | 332,9 | 5542,3 | 337,6 | 4927,3 | 184,2 | 151,4 |
| Tütün | 396,0 | 898,2 | 626,7 | 1445,3 | 1887,8 | 4073,3 | 4,8 dəfə | 4,5 dəfə |

*Cədvəl Azərbaycanın xarici ticarəti DSK-nin məlumatları əsasında [9].*

ların istehsalını artırmaq şərtilə ölkəmiz meyvə-tərəvəz konserv və şirələri istehsalını artırmaqla ixrac potensialını daha da artıra bilər. Tərəvəz istehsalı üçün istixanaların inkişafına daha da münbit şərait yaratmaqla bu sahədə mövsümiliyi aradan qaldırmaq, əhalinin məşğulluq səviyyəsini yüksəltmək və ixrac potensialını artırmaq mümkündür və bu istiqamətdə xeyli irəliləyişlər əldə edilmişdir.

Ölkəmizin bitkiçilik və heyvandarlıq məhsulları ilə təminatında isə idxaldan asılılıq səviyyəsi cədvəl 2.10 və cədvəl 2.11-də öz əksini tapmışdır.

***Cədvəl 2.10***

***Bitkiçilik məhsullarıyla təminatda idxaldan asılılıq, faizlə***

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| Dənlilərin cəmi (çəltik daxil edilmir) | 35,7 | 36,1 | 39,4 | 35,5 | 36,5 | 33,7 | 25,9 | 32,7 |
| buğda | 43,2 | 44,1 | 45,9 | 45,2 | 47,1 | 41,9 | 35,2 | 42,8 |
| arpa | 4,9 | 2,2 | 15,4 | 4,9 | 0,1 | 5,6 | +3,1 | +0,2 |
| qarğıdalı | 32,7 | 40,0 | 43,3 | 45,9 | 28,9 | 29,3 | 17,3 | 20,0 |
| vələmir | 15,6 | 10,7 | 37,8 | 6,9 | 14,3 | 9,9 | 10,8 | 9,1 |
| sair növ dənlilər | 91,3 | 97,7 | 98,9 | 93,7 | 71,8 | 79,6 | 17,7 | 11,8 |
| paxlalılar | 28,9 | 24,2 | 24,0 | 30,7 | 31,7 | 26,4 | 28,0 | 23,9 |
| kartof | 7,8 | 7,7 | 15,7 | 14,8 | 18,1 | 16,5 | 9,2 | 12,2 |
| Bütn növ tərəvəz | 5,7 | 3,1 | 3,4 | 3,4 | 5,1 | 3,8 | +15,0 | +12,0 |
| Pomidor | 2,7 | 0,8 | 0,9 | 0,7 | 5,0 | 1,4 | +38,0 | +32,5 |
| Meyvə və giləmeyvə | 10,1 | 4,9 | 3,6 | 9,6 | 12,6 | 12,7 | +23,2 | +23,1 |
| Qoz və fındıq | 10,1 | 8,3 | 5,1 | 11,1 | 14,0 | 13,6 | +30,0 | +38,2 |
| Nar | 0,0 | 0,0 | 0,0 | 0,1 | 0,1 | 0,0 | +6,3 | +10,7 |
| Üzüm | 5,9 | 6,0 | 2,4 | 8,1 | 13,5 | 8,1 | 7,5 | 5,7 |

*Mənbə: [10, s.74].*

Cədvəldən göründüyü kimi, 2019-cu ildə 2018-ci illə müqayisədə buğda, paxlalılar, kartof, bütün növ tərəvəz, pomidor və

üzüm məhsulları üzrə idxaldan asılılıq səviyyəsi 3-5% civarında azalmışdır. Bu, yaxşı haldır.

***Cədvəl 2.11***

***Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz***

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| Bütün növ ət və ət məhsulları | 91,8 | 92,4 | 92,4 | 94,7 | 87,9 | 84,7 | 82,7 | 82,5 |
| Mal əti və ət məhsulları | 92,6 | 86,3 | 87,7 | 91,8 | 93,5 | 86,3 | 85,1 | 96,1 |
| Qoyun (keçi) əti və ət məhsulları | 98,5 | 97,7 | 97,9 | 99,3 | 98,7 | 98,0 | 98,1 | 97,6 |
| Donuz əti və ət məhsulları | 25,7 | 36,0 | 16,6 | 17,8 | 7,0 | 5,6 | 5,5 | 5,3 |
| Quş əti və ət məhsulları | 87,8 | 98,5 | 98,0 | 98,6 | 79,1 | 79,7 | 75,9 | 74,6 |
| Süd və süd məhsulları | 72,5 | 76,0 | 76,3 | 84,3 | 87,7 | 86,1 | 86,7 | 86,3 |
| Yumurta | 96,2 | 100,0 | 99,7 | 99,7 | 98,8 | 100,5 | 101,5 | 101,8 |
| Balıq və balıq məhsulları | 74,7 | 71,7 | 72,8 | 77,6 | 82,3 | 81,2 | 83,1 | 82,2 |

*Mənbə: [10, s.74].*

Cədvəlin təhlili göstərir ki, 2019-cu ildə əvvəlki ilə nisbətən ət və ət məhsullarının, süd və süd məhsullarının, balıq və balıq məhsullarının idxalını azaltmaq mümkün olmamışdır.

Əhalinin ərzaq təminatında yerli istehsalın rolunu müəyyənləşdirmək üçün bu və ya digər ərzaq məhsullarının ehtiyatlarının formalaşmasında, onların daxilolma mənbələrinin, o cümlədən istehsalın və idxalın xüsusi çəkilərinin dinamikası məlumatları təhlilə cəlb edilməlidir. Başqa sözlə, ölkə əhalisinin ərzaq məhsullarına tələbatının hansı hissəsinin istehsal, hansı hissəsinin isə idxal hesabına ödənilməsi müəyyənləşdirilməklə və bir sıra digər amillər nəzərə alınmaqla, idxaldan asılılıq səviyyəsi aşkar olunmalıdır. Əldə edilmiş nəticələrinə uyğun olaraq idxalın həcmindən asılı olaraq ayrı-ayrı idxaləvəzləyici məhsulların istehsalının artırılmasına maksimum cəhd göstərilməlidir.

Milli ərzaq təhlükəsizliyində aparıcı rola malik olan dənli və

dənli-paxlalılar, ət və ət məhsulları, süd və süd məhsulları, balıq və balıq məhsulları istehsalı hesabına ehtiyatların formalaşdırılması imkanlarının son illər genişlənməsinə baxmaraq, hələ də bu sahədə arzuolunan səviyyə əldə edilməmişdir.

## 2.3. Ərzaq məhsulları ilə təminat səviyyəsinin müqayisəli təhlili

Ərzaq təhlükəsizliyinin strateji məqsədi əhalini təhlükəsiz ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə təmin etməkdir. Burada "təhlükəsiz" deyəndə, əhalinin sağlam həyat tərzi üçün kifayət qədər qida ilə təmin etməklə yanaşı, dövlət tərəfindən təhlükəsiz istehsal və idxal olunan kənd təsərrüfatı və aqrar sənaye məhsullarının keyfiyyətinin tənzimlənməsi üçün müvafiq tədbirlərin görülməsi də nəzərə alınmalıdır.

Ölkə daxilində təhlükəli ərzaq məhsullarının idxalına qoyulan məhdudiyyətlərin səbəblərindən biri də, əsasən idxal olunan məhsulların keyfiyyətinə görə səsləndirilən (məsələn, geni dəyişdirilmiş məhsullar) iddialardır.

Müasir şəraitdə ərzaq təhlükəsizliyi dünyanın bir çox ölkələrinin ən vacib problemlərindən biridir. Dövlətin iqtisadi əsasları olan ərzaq təhlükəsizliyi əhalinin əsas ərzaq ehtiyaclarını təmin etmək, əhalinin sağlamlığının qorunması və cəmiyyətin rifahının yaxşılaşdırılmasına yönəlib.

Dünya təcrübəsində ərzaq və qida təhlükəsizliyi vəziyyətinin monitorinqi, dünya miqyasında aclıq edən insanların sayı və qida təhlükəsizliyinə nəzarət müxtəlif səviyyələrdə olan bölgələri müəyyən etmək üçün illik məlumat verən beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir.

2015-ci ildə ərzaq təhlükəsizliyi səviyyəsində olan ölkələr üçün illik reytinq, British jurnalının Economist Intelligence Unit adlı analitik buraxılışında ərzaq təhlükəsizliyi ölkələrinin indeksləri

(UPB indeksi, Qlobal Qida Təhlükəsizliyi İndeksi, GFSI) 109 inkişaf etmiş və inkişaf etməkdə olan ölkənin qida ilə təminatını müəyyən edən 28 göstərici üçün hesablanmışdır. Azərbaycan 2015-ci ildə 109 ölkə arasında 58-ci yerdə qərarlaşmaqla ərzaq təhlükəsizliyi indeksi 56,6 bal olmuş, 2016-cı ildə isə 113 ölkə arasında 57-ci yerdə qərarlaşmaqla ərzaq təhlükəsizliyi indeksi 57,1 bal olmuşdur. Onu da qeyd edək ki, ərzaq təhlükəsizliyi indeksi 100 bal götürülür.

Paul Ehrlich (1854-1915) "dünya və milli qida təhlükəsizliyini təmin etmək üçün iki əsas yanaşma" təklif edir. Birincisi, özünü təmin etmə uzun müddətli ərzaq təhlükəsizliyinin yeganə təminatıdır. İkincisi, yalnız azad bazar ticarət sistemi bütün uzunmüddətli ərzaq təhlükəsizliyini təmin edə bilər" [104, s. 26].

J. Rogersin işinə görə, ərzaq təhlükəsizliyi üç əsas ölçüyə malikdir:

1. Ərzaqın əlçatanlığı (bütün əhali üçün müvafiq keyfiyyətdə qida məhsullarının yetərliliyi və uyğunluğu).

2. Ərzağın mövcudluğu (sağlam pəhriz üçün lazım olan məhsulların satın alınması üçün hər bir şəxs üçün mövcud resursların yetərliliyi).

3. Ərzağın istifadəsi müvafiq pəhriz əsasında qidalanmanın adekvat bioloji istifadəsi, suyun keyfiyyəti, sanitariya və səhiyyə normalarının tətbiqi [105, s. 31].

İ.Q. Uşaçev "dünya ərzaq təhlükəsizliyi və ərzaq müstəqilliyi məsələlərinin dövlətlərin milli müstəqilliyinin sosial sabitliyinə zəmanət olduğunu qeyd edir [100,s.7].

İqtisadi ədəbiyyatların təhlili göstərir ki, əhalinin yaşayış səviyyəsinin göstəriciləri, o cümlədən ərzaq təchizatı, optimal qidalanma ölkənin və regionların sosial-iqtisadi inkişafının ümumi səviyyəsinə bağlıdır. Əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi və yoxsulluq səviyyəsinin azaldılması ərzaq istehlakının artmasının əsas səbəbidir.

Məlum olduğu kimi, əhalinin ərzaq məhsulları ilə təminetmə aşağıda qeyd edilən iki yolla mümükündür:

- əsasən yerli istehsal hesabına ərzaq məhsullarına olan tələbatın ödənilməsi;
- idxal hesabına ərzaq məhsullarına olan tələbatın bir qisminin ödənilməsi.

Eyni zamanda, ərzaq təhlükəsizliyini təmin etmək üçün ilk növbədə yerli əmtəə istehsalçısının dəstəklənməsi və onların fəaliyyətlərinin stimullaşdırılması zəruridir.

Təcrübə göstərir ki, ümumilikdə Azərbaycanda 1990-2000-ci illərdə kənd təsərrüfatında məhsul, o cümlədən ərzaq məhsulları istehsalı kritik həddə qədər azalması ilə müşayət olunurdu. İqtisadiyyatın digər sahələrində resurslara (maddi və maliyyə) olan tələbat və onların iqtisadi fəaliyyət yolu ilə əldə olma ehtimalı arasında kənd təsərrüfatında olduğu kimi geniş miqyaslı bir boşluq yoxdur.

Burada azaldılmış resurs təminatına uyğunlaşma prosesi kənd təsərrüfatı torpaqlarının, heyvandarlıq və malların istehsalının azaldılması ilə nəticələnir. Belə olan halda, ölkədə kənd təsərrüfatı məhsulları istehsalçılarının öz resursları hesabına əhalinin yerli ərzaq məhsulları ilə təmin edilməsində problemlər yaranır ki, bu problemləri onlar sərbəst həll edə bilmirlər [30, s. 198-199].

Ərzaq təhlükəsizliyi səviyyəsinin öyrənilməsi ölkənin və əhalinin kəmiyyət və keyfiyyət ölçmə üçün meyarları və metodları sisteminin inkişaf etdirilməsi zərurəti ilə müəyyən edilir. Ərzaq təhlükəsizliyinin səviyyəsini müəyyən etmək üçün göstəricilər və meyarlar vardır. Yəni, qarşıya qoyulan əsas məqsəd mövcud və gözlənilən vəziyyətə uyğun olaraq yaradılmış keyfiyyət göstəricilərini və göstəricilərin hədəflərə uyğunluğunun miqyası ölçüsünü ifadə edir.

Ərzaq təhlükəsizliyinin səviyyəsini araşdırarkən əsasən aşağıdakı meyarların nəzərdən keçirilməsi məqsədəuyğundur:

1. Əsas kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsinin qiymətləndirilməsi:

a) torpaq ehtiyatları və əkin yeri ilə təmin edilmə səviyyəsi;

b) kənd təsərrüfatı istehsalçıları tərəfindən istehsal olunan məhsulların həcmi;

2. Ərzaq və qida məhsullarının fiziki əlçatanlıq səviyyəsi, kənd təsərrüfatı məhsullarının əsas növlərinin istehsal səviyyəsinin təhlili. Burada torpaq ehtiyatları və əkin yeri ilə təmin edilmə səviyyəsinə xüsusi diqqət yetirilməlidir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində bu göstəricilərin müəyyən edilməsi ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilmə səviyyəsini müəyyən etməklə bərabər kənd təsərrüfatında istehsal olunan ərzaq məhsullarının potensial imkanlarını qiymətləndirməyə imkan verir.

Yuxarıda da qeyd etdiyimiz kimi Ərzaq təhlükəsizliyi səviyyəsinin öyrənilməsi ölkənin və əhalinin kəmiyyət və keyfiyyət ölçmə üçün meyarları və metodları sisteminin inkişaf etdirilməsi zərurəti ilə müəyyən edilir. Ərzaq təhlükəsizliyinin səviyyəsini müəyyən etmək üçün göstəricilər və meyarlar vardır. Yəni, qarşıya qoyulan əsas məqsəd mövcud və gözlənilən vəziyyətə uyğun olaraq yaradılmış keyfiyyət göstəricilərini və göstəricilərin hədəflərə uyğunluğunun miqyası ölçüsünü ifadə edir.

Müxtəlif təsərrüfat formaları üzrə 2012-2019-cu illər üzrə torpaq ehtiyatlarından istifadənin strukturu cədvəl 2.12-də öz əksini tapmışdır.

Statistik məlumatların təhlili göstərir ki, əsas torpaq sahələri dövlət, bələdiyyə, ailə kəndli və ev təsərrüfatlarında çəmləşib. Buna baxmayaraq, əsas əkin yeri ailə-kəndli və ev təsərrüfatlarının istifadəsindədir. Belə ki, əkin yerinin 92-94%-i ailə-kəndli və ev təsərrüfatlarının istifadəsindədir və kənd təsərrüfatında istehsal olunan məhsulların 95%-ə qədəri məhz bu təsərrüfatların payına düşür. Eyni zamanda 2012-ci ilə nisbətən 2019-cu ildə əkin 10,8%

***Cədvəl 2.12***

***Azərbaycanda müxtəlif təsərrüfat formaları üzrə 2012-2019-cu illər üzrə torpaq ehtiyatlarından istifadənin strukturu***

| | 2012 | 2013 | 2014 | 2015 | 2017 | 2019 | 2012-ci ilə nisbətən 2019-cu ildə %-lə |
|---|---|---|---|---|---|---|---|
| Respublika üzrə | | | | | | | |
| Ümumi torpaq sahəsi, min ha | 8655,0 | 8655,0 | 8655,0 | 8655,0 | 8655,0 | 8655,0 | 100 |
| Ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi, min ha | 4768,3 | 4769,8 | 4769,7 | 4769,8 | 4772,9 | 4777,5 | 100,2 |
| O cümlədən: əkin yeri, min ha | 1855,0 | 1884,3 | 1885,6 | 1897,5 | 1959,1 | 2054,7 | 110,8 |
| Kənd təsərrüfatı müəssisələri üzrə | | | | | | | |
| Ümumi torpaq sahəsi | 224,5 | 227,1 | 226,5 | 237,7 | 231,8 | 195,2 | 86,9 |
| Ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi, min ha | 189,9 | 195,6 | 195,5 | 208,4 | 215,5 | 177,5 | 93,5 |
| O cümlədən: əkin yeri, min ha | 95,0 | 95,5 | 100,3 | 102,6 | 101,6 | 99,1 | 104,3 |
| Fərdi sahibkar təsərrüfatları üzrə | | | | | | | |
| Ümumi torpaq sahəsi | 48,5 | 44,3 | 34,1 | 33,4 | 30,4 | 17,3 | 35,7 |
| Ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi, min ha | 47,3 | 43,1 | 33,2 | 32,5 | 29,8 | 16,6 | 35,1 |
| O cümlədən: əkin yeri, min ha | 35,6 | 33,3 | 24,0 | 23,4 | 20,7 | 8,4 | 23,6 |
| Dövlət, bələdiyyə, ailə kəndli və ev təsərrüfatları üzrə | | | | | | | |
| Ümumi torpaq sahəsi | 8382,0 | 8383,6 | 8394,4 | 8383,9 | 8392,8 | 8442,5 | 100,7 |
| Ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi, min ha | 4531,1 | 4531,1 | 4541,0 | 4528,9 | 4527,6 | 4583,4 | 101,1 |
| O cümlədən: əkin yeri, min ha | 1724,4 | 1755,5 | 1761,3 | 1771,5 | 1836,8 | 1947,2 | 112,9 |

*Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları*

artmışdır. Onu da nəzərə almaq lazımdır ki, bələdiyyə mülkiyyətində olan əkin yerləri müxtəlif təsərrüfatlara uzun müddətli icarəyə verilmişdir. Kiçik torpaq sahələrinə malik olan kəndlilər üçün təsərrüfat fəaliyyətlərində intensiv inkişafa nail olmaq çox çətindir.

Əhalinin etibarlı ərzaq məhsulları və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi kənd təsərrüfatının intsensiv inkişaf etdirilməsini, torpaqlardan istifadənin səmərəliliyinin artırılmasını və məhsuldarlığın yüksəldilməsini şərtləndirir.

Tədqiqatlar göstərir ki, payızlıq bitkilərə hektardan 30% məhsul əldə etmək üçün 300 kq azot, 350 kq fosfor və 100 kq kalium gübrələri lazımdır. Başqa sistemlər nəzərə alınarsa, hektara tələb olunan qiymət 700 manat və daha yüksəkdir. Bu halda hektardan məhsuldarlıq 50 sentnerdən az olmamalıdır. 2017-ci ildə taxılın bazar qiyməti 0,26-0,4 manat arasında, orta məhsuldarlığı isə 29 sent olub. Bu onu göstərir ki, ərzaq taxıl istehsalının iqtisadi səmərəsi aşağıdır və torpaqdan düzgün istifadə olunmur, eyni zamanda sürətli artıma nail olmaq mümkün deyil.

Kənd təsərrüfatının intensivləşdirilməsi ekoloji və dəyər sistemləri, ümumi və fərdi göstəricilərlə xarakterizə olunur. Bir sıra empirik göstəricilər kənd təsərrüfatı istehsalının bir çox iqtisadi aspektləri özündə birləşdirən mürəkkəb iqtisadi sistem olduğunu təsdiqləyir. İstehsal intensivliyi anlayışını müəyyən etməklə kənd təsərrüfatı intensivliyinin iqtisadi səmərəlilik aspektini nəzərə almaq vacibdir. Çeviklik və elastiklik anlayışları fərqlidir, lakin onlar əlaqəlidir və bir-birini tamamlayır. Kənd təsərrüfatı istehsalının intensivliyini müəyyən etmək üçün faktiki istehsal və potensial istehsalın və vahid qiymətə düşən ümumi məhsulun və adam saatına düşən ümumi məhsulun müqayisəsi kimi göstəricilərdən istifadə olunur.

Qeyd edək ki, kənd təsərrüfatının intensiv inkişafının əsasları tətbiq olunan texnoloji və texnologiyanın təkmilləşdirilməsi, daha təsirli gübrələrin və bitki mühafizəsi məhsullarının istifadəsi, yeni məhsuldar bitki növlərin və cins heyvanların yetişdirilməsi, torpa-

ğın məhsuldarlığının artması və s. ilə bağlı olan elmi və texnoloji inkişafdır.

***Cədvəl 2.13***

***Azərbaycan Respublikasında 2012-2019-cu illər ərzində əsas ərzaq məhsulları istehsalı, adambaşına il ərzində (kq)***

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2012-ci ilə nisbətən 2019-cu ildə %-lə |
|---|---|---|---|---|---|---|---|---|---|
| Taxıl təmiz çəkidə | 298 | 310 | 347 | 307 | 310 | 284 | 329 | 348 | 116,8 |
| Kartof | 106 | 107 | 87 | 88 | 94 | 93 | 92 | 107 | 100,0 |
| Tərəvəz | 133 | 133 | 126 | 134 | 132 | 142 | 155 | 173 | 130,0 |
| Ərzaqlıq bostan bitkiləri | 47 | 46 | 47 | 51 | 48 | 44 | 41 | 45 | 95,7 |
| Şəkər çuğunduru | 19 | 20 | 18 | 19 | 32 | 41 | 28 | 22 | 115,8 |
| Meyvə və giləmeyvə | 88 | 92 | 90 | 93 | 92 | 96 | 103 | 111 | 126,1 |
| Ət (kəsilmiş çəkidə) | 30 | 31 | 31 | 31 | 31 | 32 | 33 | 34 | 113,3 |
| Süd | 185 | 193 | 197 | 202 | 209 | 204 | 212 | 217 | 117,3 |
| Yumurta ədəd | 134 | 151 | 166 | 163 | 167 | 173 | 171 | 184 | 137,3 |
| Balıq | 6,3 | 5,5 | 5,3 | 5,4 | 6,6 | 6,4 | 6,3 | 6,4 | 101,6 |

*Cədvəl "Azərbaycanın Kənd Təsərrüfatı" Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. [7, s. 106].*

Cədvəl 2.13-in məlumatlarının təhlili göstərir ki, taxıl, kartof və ərzaqlıq bostan məhsulları istisna olmaqla ölkədə adam başına istehsal olunan digər ərzaq məhsullarında artım baş vermişdir. Bu əsasən tərəvəz və yumurtada olmuşdur. 2012-ci illə müqayisədə bu məhsulların istehsalı 2019-cu ildə 1,3 dəfə yüksəlmişdir.

Qeyd edək ki, iqtisadiyyatın digər sahələrində yaranan çətinliklərdən fərqli olaraq, kənd təsərrüfatının çətinliyi yalnız bu sahədə ən ağır formaları olan aqrar istehsalının ağır vəziyyətini nəzərdə tutmur. Kənd təsərrüfatı istehsalının inkişafı bütün kənd sahəsinə

bağlı insanların həyatının bütün sahəsini əhatə edir. Beləliklə, mövcud kənd təsərrüfatı vəziyyəti onun inkişafını tənzimləmək üçün hökumətin səmərəli fəaliyyətini, eləcə də istehsal və sosial infrastrukturun hərtərəfli inkişafının təşkilini tələb edir. Dövlətin əsas məqsədi əhalinin sosial rifahının yaxşılaşdırılmasıdır. Bu, onun uğurlu gələcəyinin əsl zəmanətidir. Ölkə üzrə ərzaq məhsullarının adambaşına istehlakı cədvəl 2.14-də verilmişdir.

***Cədvəl 2.14***

***Ölkə üzrə 2019-cu ildə ərzaq məhsullarının adambaşına istehlakı, ildə kq***

| Ərzaq məhsulları | ÜST-nın adambaşı-na istehlak normaları, kq | Ölkədaxili adambaşı-na istehlak normaları, kq | Adambaşı-na faktiki istehlak, kq | İstehlak səviyyəsi, % | |
|---|---|---|---|---|---|
| | | | | ÜST-nın normaları-na nəzərən % | Ölkədaxili normalarına nəzərən % |
| Çörək və çörək məh-sulları (un hesabı ilə) | 120,5 | 126,2 | 171 | 141,9 | 135,5 |
| Kartof | 96,7 | 50,7 | 75,2 | 77,8 | 148,3 |
| Tərəvəz və bostan məhsulları | 140,3 | 97 | 104,1 | 74,2 | 107,3 |
| Meyvə və giləmeyvə | 80,3 | 46 | 71,2 | 88,7 | 155 |
| Ət və ət məhsulları | 70,1 | 31,5 | 37,4 | 53,3 | 118,7 |
| Süd və süd məhsulları | 359,9 | 232,3 | 238,1 | 66,1 | 102,5 |
| Balıq və balıq məhsulları | 8,3 | 7,7 | 7,9 | 95,2 | 102,6 |
| Yumurta (ədəd) | 243 | 153 | 158 | 65,0 | 103,3 |
| Qənd və şirniyyat məhsulları | 36,5 | 17,4 | 26,3* | 72,1 | 151,1 |
| Bitki yağı və marqarin | 13,1 | 9,8 | 16,9 | 129,0 | 172,4 |

*Cədvəl ÜST-nın və NK-nin qəbul etdiyi normalar və DSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**- şəkər*

Ölkə daxili müəyyən edilmiş normalarla müqayisə etdikdə əhalinin istehlakının yüksək olduğu müəyyən edilməsinə baxmayaraq, ÜST-nin normaları ilə müqayisədə çörək və çörək məhsulları istisna olmaqla digər məhsullar üzrə istehlakın aşağı səviyyədə olduğu müəyyən edilir ki, bu da əsasən əhalinin alıcılıq qabiliyyətinin aşağı olması ilə bağlıdır.

Azərbaycanda əhalinin ərzaq mənşəli kənd təsərrüfatı məhsulları ilə özünütəmietmə səviyyəsi cədvəl 2.15-də verilmişdir.

***Cədvəl 2.15***

***Azərbaycanda yerli istehsal hesabına əhalinin ərzaq mənşəli kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsi, %-lə***

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2011-ci ilə nisbətən 2019-cu ildə artma +, azalma - |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Taxıl | 64,8 | 64,3 | 63,9 | 60,6 | 64,5 | 63,8 | 66,3 | 74,1 | 67,3 | +0,39 |
| Kartof | 101,6 | 98,2 | 97,6 | 89,7 | 89,1 | 85,5 | 89,2 | 90,8 | 87,8 | – 0,86 |
| Tərəvəz | 95,7 | 98,9 | 102,3 | 103,4 | 103,4 | 105,4 | 115,2 | 115,0 | 112,0 | +0,11 |
| Bostan məhsulları | 100,2 | 100,1 | 100 | 100,4 | 100 | 100,2 | 100,2 | 99,7 | 100,8 | – |
| Meyvə və giləmeyvə | 116,8 | 125,7 | 121,8 | 120,1 | 113,7 | 116,4 | 122,4 | 123,2 | 123,1 | +0,1 |
| Ət və ət məhsulları | 87,2 | 91,8 | 92,4 | 92,4 | 94,7 | 87,9 | 84,7 | 82,7 | 82,5 | –0,9 |
| Süd və süd məhsulları | 70,9 | 72,5 | 76 | 76,3 | 84,3 | 87,7 | 86,1 | 86,7 | 86,3 | +0,12 |
| Yumurta | 77,4 | 96,2 | 100 | 99,7 | 99,7 | 98,8 | 100,5 | 101,5 | 101,8 | +0,13 |
| Balıq və balıq məhsulları | 73,0 | 74,7 | 71,7 | 72,8 | 77,6 | 82,3 | 81,2 | 83,1 | 82,2 | +0,12 |

*Cədvəl http://www.stat.gov.az/source/agriculture/: veb səhifənin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [150].*

Cədvəldən göründüyü kimi, əhalinin taxıla olan tələbatının 33-34 faizi, kartofun 12-13 faizi, ət və ət məhsullarının isə 17-18 faizi idxal hesabına təmin olunur. Belə ki, 2011-ci ildə balıq və balıq məhsulları üzrə özünütəminetmə səviyyəsi 73 faiz, süd və süd məhsulları 70,9 faiz olduğu halda, 2019-cu ildə balıq və balıq məhsullarının özünütəminat səviyyəsi 82,2%-ə, süd və süd məhsulları 86,3%-ə qədər yüksəlmişdir. Həmçinin yumurta ilə özünütəminat səviyyəsi isə 77,4%-dən 101,8%-ə qədər yüksəlmiş və demək olar ki, daxili tələbat yerli istehsal hesabına təmin olunur. Ümumi götürdükdə meyvə və giləmeyvə məhsulları üzrə özünütəmiat səviyyəsi 123,1% təşkil edir, lakin növlər üzrə götürdükdə bəzi meyvə məhsulları və respublikamızda yetişməyən məhsullar idxal olunur ki, bu da öz növbəsində meyvə və giləmeyvə məhsulları üzrə idaxldan asılılıq səviyyəsinin 12,3% əhatəsində formalaşmasına səbəb olur. Bəzi məhsullar üzrə isə özünütəminat səviyyəsi tam ödənilir. Belə ki, 2019-cu ildə bostan və tərəvəz məhsulları ilə özünütəminat səviyyəsi 100,2 faiz olmuşdur. Ölkədə ərzaq məhsulları ilə idxaldan aslılıq səviyyəsi cədvəl 2.16-da verilmişdir.

2017-ci ildə taxıl üzrə idxaldan asılılıq səviyyəsi 2,5% azalmış, kartofdan asılılıq səviyyəsi isə 3,9% artmışdır. Bəzi məhsullar üzrə isə idxaldan aslılıq səviyyəsi azalmış və demək olar ki, yerli istehsal hesabına təmin olunur. Heyvandarlıq məhsulları üzrədə 2011-ci ilə nisbətən 2019-cu illərdə idxaldan asılılıq səviyyəsi böyük həcmdə azalmışdır. Bu əsasən süd və süd məhsulları üzrə 15,4% və yumurta üzrə isə 1,8% təşkil etmişdir.

4-5 ildən çoxdur ki, heyvandarlıq məhsullarının idxalı strukturunda ət məhsulları, iri buynuzlu heyvan əti və heyvandarlıq məhsulları, həmçinin konservləşdirilmiş ətdir. Süd məhsulları tərkibində qaymaq və kərə yağı üstünlük təşkil edir. Respublikamızın dağlıq ərazilərinin əsas hissəsində heyvandarlıq məhsullarının yerli istehsalında əhəmiyyətli artım potensial imkanları mövcuddur.

**_Cədvəl 2.16_**

**_Ölkədə ərzaq məhsulları ilə idxaldan asılıq səviyyəsi (faizlə)_**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2011-ci ilə nisbətən 2019-cu ildə artma +, azalma - |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Taxıl | 35,2 | 35,7 | 36,1 | 39,4 | 35,5 | 36,2 | 33,7 | 25,9 | 32,7 | –2,5 |
| Kartof | 8,3 | 7,8 | 7,7 | 15,7 | 14,8 | 14,5 | 16,5 | 9,2 | 12,2 | +3,9 |
| Tərəvəz | 9,5 | 5,7 | 3,1 | 3,4 | 3,4 | 5,1 | 3,8 | +15,0 | +12 | +2,5 |
| Bostan məhsulları | - | - | - | - | - | - | - | 0,3 | +0,8 | +0,8 |
| Meyvə və giləmeyvə | 12,3 | 10,1 | 4,9 | 3,6 | 9,6 | 12,3 | 12,7 | +23,2 | +23,1 | +10,8 |
| Ət və ət məhsulları | 13,2 | 8,8 | 8,1 | 8,1 | 5,6 | 12,1 | 15,5 | 17,3 | 17,5 | +4,3 |
| Süd və süd məh-sulları | 29,1 | 27,5 | 24,3 | 23,9 | 16 | 12,6 | 14,6 | 13,3 | 13,7 | –15,4 |
| Yumurta | 22,6 | 4,2 | 0,1 | 0,3 | 0,3 | 1,2 | 0,0 | +1,5 | +1,8 | – |
| Balıq və balıq məh-sulları | 27,4 | 25,3 | 28,4 | 27,2 | 22,4 | 17,7 | 19,4 | 16,9 | 17,8 | –9,6 |

*Cədvəl http://www.stat.gov.az/source/agriculture/: veb səhifənin məlimatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [150].*

Azərbaycanın idxal etdiyi ərzaq məhsulları içərisində buğda məhsulu daha çox xüsusi çəkiyə malikdir. Bu əsasən məhsuldarlığın aşağı olması ilə bağlıdır. Eyni zamanda ölkədə hər il buğda əkini üçün (hektara 200 kq) 100 – 120 min ton buğda toxumu tələb olunur. Yerli repreduksiyalı toxumla təminat səviyyəsi isə 30-40% həcmindədir. Əsasən istifadə olunan toxumlar istehsalçıların öz toxumlarıdır ki, bu da məhsuldarlığın aşağı olmasına səbəb olur. Eyni zamnda sahələr verilən mineral gübrələr də tələb olunan normalardan bir neçə dəfə aşağıdır ki, bu da məhsuldarlığa

ciddi təsir edir. Belə ki, cədvəl 2.3-də göstərildiyi kimi, 100% qidalı maddə hesabı ilə 2012-2015-ci illərdə taxıla (qarğıdalısız) 20-21 kq, 2019-cu ildə isə 3,0 dəfə artırılaraq 62 kq mineral gübrə verilmişdir. Verilən gübrələr əsasən azotlu gübrələrdir ki, bu da öz növbəsində bitkinin böyüməsinə təsir edir. Araşdırmalarımız göstərir ki, əkin üçün zəruri olan üzvi gübrələr də normadan dəfələrlə aşağı verilir.

# III FƏSİL. ƏHALİNİN ETİBARLI ƏRZAQ TƏMİNATINDA İDXALƏVƏZLƏYİCİ İSTEHSALIN ARTIRILMASI YOLLARI

## 3.1. İdxaləvəzləyici ərzaq məhsulları istehsalının artırılması prioritetləri

Daxili bazarı təmin etmək üçün idxal əvəz edildilməsi dedikdə ölkələr idxal olunan məhsullara bənzər yerli məhsul istehsal edirlər və dəyəri idxal olunan malların dəyərindən artıq olmayan istehlak mallarına malik olmaları, idxal olunan məhsulların ölkədə istehsal imkanlarının mövcudluğu kimi başa düşülür. Bir sıra tədqiqatçılar göstərir ki, idxal əvəzləşdirməsinin müəyyən qədər dəstəklənməsi daxili istehsalın inkişaf etdirilməsi ilə bərabər Azərbaycanın öz ərzaq təhlükəsizliyini təmin edəcəyini göstərir.

İdxaləvəzetməsinin iqtisadi məqsədəuyğunluğu yerli istehsalın öz vətəndaşlarının işlə təmin edilməsinə və xaricdən məhsul idxal edilməsində yol verilə biləçək valyuta itkilərinin qənaətinə imkan verməsi ilə müəyyən edilir. Siyasi məsələlər təhlükəsizlik maraqları ilə diktə edilir: hətta zərərlə başa gəlsə belə istehsal etmək lazımdır, ilk növbədə bu ərzaq məhsullarını əhatə etməlidir və hansı ki, onsuz yaşamaq mümükün deyil [90, s.3].

İdxaləvəzetmə siyasətinin fərqli bir xüsusiyyəti ölkənin daxili ehtiyatlarının daxili bazara yönəlmiş məhsulların istehsalı üçün aktiv və səmərəli istifadə edilməsidir. Yerli əmtəə istehsalçılarının rəqabət qabiliyyətini qorumaq məqsədilə dövlət tez-tez idxal olunan məhsullardan rəqabəti məhdudlaşdırmaq üçün tədbirlər tətbiq edir, məsələn, idxal olunan məhsullara əlavə vergilər tətbiq olunur.

İdxalı əvəz siyasəti XIX əsrin ortalarında bütün ölkələr tərəfindən fəal şəkildə istifadə olunub, bununla belə, XX əsrin ortalarında Latın Amerikası, sonra Asiya və Afrika ölkələrində geniş yayılmışdır. Ölkədə istehsal olunan məhsullar üzrə idxal əvəzetmə

daha çox müşahidə olunarsa və ixrac azalarsa, ödəniş balansında bir çatışmazlığa gətirib çıxarmaqla sonda iqtisadi inkişaf tempinə mənfi təsir göstərəcək. İdxal əvəzi vermək üçün təkliflər irəli sürən ölkələr texnoloji geriləməni aradan qaldıra bilmədi. Hal-hazırda ən böyük Latın Amerikası ölkəsi - Braziliya - öz strategiyasını radikal şəkildə dəyişib daxili bazarda yaradılmış rəqabətli vəziyyətin fonunda açıq iqtisadiyyat yaratmağa, ixracı inkişaf etdirməyə, idxal tariflərinin azaldılmasına yönəltmişdir.

İdxal əvəzetmə siyasətinə əsas dəstəkləyici arqumentləri R. Prebisch, Nurske, Seers, Hirschman və Chenery tərəfindən irəli sürülür.

Argentina iqtisadçısı akademik R. Prebisch xarici ticarətin XX əsrdə zəif inkişaf etmiş ölkələrin iqtisadi inkişafına böyük üstünlük qazandırmadığını və bu ölkələrin inkişaf etmiş ölkələrlə ticarətində uzun müddətli problemlərlə üz-üzə qaldığını bildirmişdir. O qeyd etmişdir ki, ticarətin çətinləşən vəziyyəti iqtisadiyyat sahələrində kapital əmələ gəlməsi üçün çox vacib olan valyuta qazanclarını azaldaraq ümumilikdə zəif inkişaf etmiş ölkələrin inkişafını məhdudlaşdırmaqdadır. R. Prebisch ticarət şərtlərinin bir nəticəsi olaraq inkişaf etmiş ölkələrin öz sənayelərinin texniki inkişafının bütün faydasını qoruya bildiklərini, inkişaf etməkdə olan ölkələrin isə texniki inkişaflarının bəhrəsini paylaşdıqlarını söyləyir. İdxal əvəzləmədə sənayeləşmə bu səbəblə önəmli və təsirli bir vasitədir [117].

İdxal meyilliliyi aşağıdakı amillər sayəsində arta bilər:

- yüksək əmək haqqı, daxili xərc və idxal xeyli yüksək olduqda;
- gəlir bölgüsünün bərabərsizliyi və yüksək gəlir qruplarının idxala yüksək meyli;
- əhalinin kənddən şəhərlərə köçürülməsi, burada idxal meyilləri yüksəkdir.

Son illərdə gedən proseslər ölkəmizin iri şəhərlərində tikintinin geniş vüsət alması kənd ərazilərindən şəhərə doğru işçi qüvvəsinin

axınının artmasını sürətləndirdi. Burada əsas səbəb kimi şəhərlə kənd arasında gəlirlərin bərabərsizliyi özünü göstərdi. Aqrar sektorda xüsusi təsərrüfatda çalışmaq və sərbəst fəaliyyətin şəhərlə müqayisədə üstün olmasına baxmayaraq əldə edilən gəlirlərin kəskin fərqlənməsi əmək qabiliyyətli əhalinin axınını şərtləndirdi. Bu halda məhsul istehsalçısı istehlakçıya çevrildi ki, bu da idxal səviyyəsinin yüksəlməsini şərtləndirir.

İdxal əvəzləmə prosesinin başlanğıcında istehlak mallarının idxalına qadağa qoyulmalıdır. İstehlak malları sektorunun seçilməsinin səbəbi kapitaldan ya da orta səviyyəli mallardan fərqli olaraq xərc baxımından bunlar daha əlverişlidir. Bundan əlavə, istehlak malları inkişaf üçün əhəmiyyətli deyil və onların dəyərinin artması kapital malları və ara malları kimi digər istehsal vahidlərinə təsir göstərməyəcəkdir. İstehlak mallarına olan tələbat artan əhali sayəsində təmin edilir, halbuki mallar və ara mallara olan tələbat yalnız inkişaf prosesinin hərəkətdə olduğu zaman baş verir. İkincisi, kapital və ara mallarda idxalın əvəzlənməsi yerli istehsalla dəyişdirilməsinin zəruri olduğu ikinci mərhələdir. Beləliklə, idxal əvəzləmə strategiyasını qəbul edən ölkələr birinci mərhələdə məhsul istehsalı baxımından maksimum dərəcədə genişlənirlər. Feliks Şamxalov bunu məhsuldar sektorun "erkən genişləndirilməsi" adlandırırdı [103].

İdxal əvəzləmə strategiyalarını dəstəkləyən əsas arqumentlər aşağıdakılardır:

- daxili məşğulluğun artması;
- qlobal iqtisadi təhdidlər qarşısında möhkəmlik;
- malların az məsafədən daşınması.

İdxal əvəzləmə üçün iddia edilən mənfi cəhətlər yaradılan sənayelərin səmərəsiz olaraq idarə oluna biləcəyini və sənaye inkişafına diqqət yönəldilməsi əsasən kənd yerlərində olan yerli istehsalçılara mənfi təsir göstərir.

MDB ölkələri arasında Belarus Respublikası və Qazaxıstan id-

xal əvəzetmə proqramlarının həyata keçirilməsində böyük təcrübəyə malikdir. Bu ölkələrdə idxal əvəzetmə proqramları qanuni olaraq dövlət səviyyəsində müəyyənləşdirilir.

Belarusiyada bu proqramın həyata keçirilməsi ciddi dövlət nəzarətindədir, layihələrin siyahısı müəyyənləşdirilib və hesabat formaları hazırlanıb. İdxaləvəzləyici layihələrinin həyata keçirilməsi əsasında əldə olunan nəticələr müvafiq fonda daxil olan və hesabat formalarında hədəf dəstək kimi yenidən paylanılan vəsaitlərin azad edilməsini göstərir və iqtisadiyyatda yeni iş yerlərinin yaradılmasına kömək edir. Prioritet istiqamətlər istehlak tələbinin idxal əvəzidir.

Məsələn, Belarusiyada Nazirlər Kabinetinin qərarı ilə 2012-ci il üçün idxal əvəz edən istehlak mallarının siyahısı və həcmlərini təsdiqləmişdir. Hökumətin fikrincə, idxal əvəzləşdirməsində xüsusilə lazım olan mallar nazirliklər və konsernlər arasında bölünür, qalanları isə regional icra komitələri arasındadır. İndi dövlət qurumları bu istiqamətdə planlar hazırlayırlar, ölkəyə gətirilən malların əvəzlənməsi üçün sözügedən iş sxemini nəzərə alırlar.

Belarus Respublikasının hökuməti qeyri-kritik idxala dair malların ən azı 60%-ni daxil etməyi tapşırmışdır. 2012-ci ildə Belarus müəssisələrinin sahib olması lazım olan malların siyahısı müxtəlifliyi ilə təəssürat yaradır. Belarusun müəssisələrində hökumətin başlamağı nəzərdə tutan analoji məhsulların istehsalı idxal olunan malların siyahısına olduqca çox təsir edir [79].

Qeyd etmək lazımdır ki, Azərbaycanda son illərdə əsas məqsəd ərzaq və digər məhsullar üzrə idxaldan asılılıq səviyyəsni azaltmaqdır. Bu məqsədlə kənd təsərrüfatı məhsulları istehsalının azaldılmasının qarşısını almaq üçün dövlət proqramları qəbul edilərək həyata keçirilir, eyni zamanda milli iqtisadiyyatın çoxşaxəli inkişafı üçün "Strateji Yol Xəritəsi" qəbul edilmişdir.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin srtateji hədəf

2 bölməsində qeyd edilir ki, ümumilikdə aparılan təhlillər nəticəsində idxalı əvəz etmək potensialı olan bir sıra kənd təsərrüfatı və emal sənayesi məhsulları müəyyənləşdirilmişdir və həmin məhsulları istiqamətlər üzrə aşağıdakı kimi qruplaşdırmaq olar:

- heyvandarlıq məhsulları: süd,ət, quş əti;
- dənli paxlalılar: qarğıdalı və s.;
- sənaye təyinatlı məhsullar: şəkər çuğunduru, pambıq, tütün, çay, barama, dərman bitkiləri, yun, gön-dəri [1, s. 68].

Aparılan araşdırmalar göstərir ki, Azərbaycan heyvandarlıq məhsulları və sənaye təyinatlı məhsullar üzrə nəinki idxal əvəzləyici imkanlara malikdir, bu məhsulların ixracatçısına çevrilmək üçün geniş istehsal potensialı da vardır. Bunun üçün intensiv inkişafa nail olmaq və əlverişli iqtisadi əlaqələrin coğrafiyasının genişləndirilməsi istiqamətində atılan addımlarda aşağıdakı vəzifələr əsas məqsəd kimi qarşıya qoyulmalıdır:

- Avropa və Avrasiya məkanına inteqrasiya prosesində Azərbaycanın iqtisadi mövqeyinin gücləndirilməsi, Avropa, Asiya, Amerika və Afrika iqtisadi tərəfdaşları ilə çoxtərəfli iqtisadi münasibətlərin inkişafı və genişləndirilməsi vasitəsilə dünya iqtisadi əlaqələri üçün qlobal mərkəz formalaşdırmaqla dünya səviyyəsində rəqabət aparan bir iqtisadiyyatın yaradılması;
- yerli xammalın inkişaf etdirildiyi sahələrdə, həm də ənənəvi bölgələrdə, innovativ, sənaye və aqrar potensialının təmərküzləşməsində yeni istehsal mərkəzlərinin formalaşmasını təmin etməklə regional fərqlərin azaldılması;
- iqtisadiyyatın şaxələndirilməsinə və güclü bir elmi-texnoloji kompleks və bilik iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatı sektorunun formalaşması ilə əlaqədar yeni rəqabət üstünlükləri yaratmaqla milli rəqabət qabiliyyətini artırmaq.

Ərzaq və emal sənayesi üçün orta müddətli perspektivdə əsas məqsəd idxaləvəzləyici sahələr daxil olmaqla inkişaf potensialını genişləndirməkdir. Uzun müddət ərzində dövlət aqrar siyasətinin

əsas perspektiv məqsədlər aşağıdakı kimi müəyyən edilib:

- əhalini kənd təsərrüfatı məhsulları və Azərbaycan istehsalı olan ərzaq məhsulları ilə təmin etmək;
- Azərbaycan kənd təsərrüfatı kompleksinin rəqabət qabiliyyətini artırmaq;
- mal-qara məhsulları bazarında səmərəli idxal mübadiləsi və inkişaf etmiş ixrac potensialının (xüsusilə bitki istehsalı) yaranmasını təmin etmək.

Göstərilən məqsədlərə nail olmaq uzun müddət ərzində dünya bazarlarında kənd təsərrüfatı məhsullarının sabit mövqeyini saxlamağa imkan verəcəkdir. Eyni zamanda, burada dünya bazarında rəqabət qabiliyyətli məhsulun ixrac potensialının qorunması, kənd təsərrüfatı bazarlarının dövlət tənzimlənməsinin yaxşılaşdırılması və Azərbaycan istehsalçılarının maraqlarının qorunması nəzərdə tutulur. Avropa İttifaqı ölkələri bazarlarında kənd təsərrüfatı məhsullarının ixracının artırılmasında ÜTT-nin üzvü olmamasına baxmayaraq onun tələblərini nəzərə alaraq bir sıra prioritet sahələrin inkişafının təmin edilməsinə də diqqət yetirilməsi, həmçinin müəyyən növlər üzrə ərzaq və qida sənayesi məhsulları istehsalının inkişaf etdirilməsi zəruridir.

Ən mühüm məqsədlərdən biri, Azərbaycanın dünya bazarında mövqeyini kənd təsərrüfatı məhsullarının ixracı hesabına gücləndirmək, kənd təsərrüfatı məhsulları və ərzaq idxalından asılılığı azaltmaqdır.

Kənd təsərrüfatı hal-hazırda bir sıra həll edilməmiş problemlər səbəbindən ərzaq məhsulları istehsalını əhəmiyyətli dərəcədə artırmaq üçün yetərincə istehsal gücünə malik bir vəziyyətdə deyildir. Yəni məhsul istehsalının artırılmasında zəruri olan resurslar üzrə idxaldan asılıqlıq səviyyəsinin yüksəkliyi sahədən məhsuldarlığın və gəlirlərin artırılmasında ciddi çətinliklər yaradır. Hazırda kənd təsərrüfatı məhsulları istehsalçıları demək olar ki, bu resursları vaxtında əldə edə bilmirlər. Bunlara aşağıdakı səbəblər daxildir:

- kənd təsərrüfatının və resursların qiymətinin qeyri-bərabərliyi;
- inkişaf etmiş ölkələrlə müqayisədə kənd təsərrüfatına maliyyə dəstəyinin aşağı səviyyədə olması;
- kredit resurslarına əlçatanlığın yetərli olmaması (eyni zamanda kreditlər üzrə istehsalçıların böyük borcu);
- kənd təsərrüfatı məhsullarının, əmək və torpaq ehtiyatlarının maddi və texniki təminat səviyyəsinin kifayət qədər olmaması;
- aşağı məhsuldarlıq və əmək haqqı;
- şəhər və ölkə arasındakı yaşayış səviyyəsində fərqlilik;
- kəndin sosial, mədəni və tibb infrastrukturu ilə kifayət qədər təmin edilməməsi.

Yerli ərzaq istehsalının həcminin artması həyati – iqtisadi problem kimi həmişə mövcud olub və müstəqillik dövründə də daha da aktuallaşmaqla daim diqqət mərkəzindədir. Ərzaq məhsulları istehsalının artırılması ölkənin tarixi inkişafının müxtəlif mərhələlərində fərqli yollarla həll olunmuşdur: sosialist sistemində kənd təsərrüfatı məhsulları tamamilə dövlətin sərəncamına verilmişdir, təkcə dövlət deyil, həm də mərkəzləşdirilmiş satınalmalar edildiyindən yuxarıda qeyd edilən problemlər həllini tapa bilməmişdi. Bazar iqtisadiyyatı şəraitində istehsal olunan məhsulun satışının təşkilinin istehsalçıdan asılı olmaması təsərrüfatların fəaliyyətində qarşıya çıxan çətinliklərin artmasına səbəb oldu. Mövcud problemlər idxaldan asılılıq səviyyəsinin yüksəlməsi riskini artırır. Azərbaycanda 2014-2016-cı illərdə kənd təsərrüfatı ərzaq məhsulları üzrə idxal-ixrac balansı cədvəl 3.1-də verilmişdir.

Statistik məlumatların təhlili göstərir ki, tərəvəz (pomidor) və meyvə məhsulları üzrə ixrac idxaldan yüksək olmuşdur. Yumurta ixracında 2019-cu ildə müsbət saldo alınmışdır və ixrac idxaldan 9,1 min ədəd yüksək olmuşdur. Digər ərzaq məhsulları üzrə idxal ixracdan yüksək olmuşdur. Daha doğrusu buğda, yumurta və növlər üzrə ət ixracı demək olar ki, olmamışdır. Onu da qeyd edək ki,

***Cədvəl 3.1***

***Azərbaycanda 2015-2019-cu illərdə kənd təsərrüfatı ərzaq məhsulları üzrə idxal-ixrac balansı (min ton)***

| | 2015 | | | 2017 | | | 2019 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | ixrac | idxal | +/- | ixrac | idxal | +/- | ixrac | idxal | +/- |
| Buğda | - | 1353,1 | -1353,1 | - | 1599,6 | -1599,6 | - | 1274,4 | 1274,4 |
| Kartof | 36,7 | 139,2 | -102,5 | 38,2 | 191,2 | -153,0 | 57,7 | 168,8 | -111,1 |
| Bütün növ tərəvəzlər | 84,1 | 42,0 | +42,1 | 125,9 | 61,2 | +64,6 | 231,5 | 45,9 | +185,6 |
| Meyvə və giləmeyvə | 182,0 | 74,7 | +107,3 | 219,7 | 95,2 | +124,5 | 273,8 | 98,7 | +175,1 |
| Bütün növ mal-qara və quş əti | 0,8 | 17,6 | -16,8 | 0,1 | 41,7 | -41,6 | 0,7 | 58,0 | -57,3 |
| - iri buynuzlu mal əti | 0,8 | 12,4 | -11,6 | 0,1 | 9,2 | -9,1 | 0,1 | 21,2 | -21,1 |
| - qoyun və keçi əti | - | 0,5 | -0,5 | 0,002 | 1,0 | -0,998 | 0,3 | 2,0 | -1,7 |
| - quş əti | - | 1,4 | -1,4 | - | 25,3 | -25,3 | 0,2 | 26,8 | -26,6 |
| Süd və süd məhsulları | 6,3 | 366,0 | 359,7 | 5,7 | 288,5 | 282,8 | 16,0 | 344,0 | -318,0 |
| Yumurta (min ədəd) | - | 5,3 | -5,3 | - | 19,1 | -19,1 | 9,2 | 0,1 | +9,1 |
| Balıq və balıq məhsulları | - | 14,8 | -14,8 | 0,2 | 13,8 | -13,6 | 0,5 | 15,3 | -14,8 |

*Cədvəl Azərbaycanın Statistik Göstəriciləri Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfəfindən tərtib edilmişdir. Bakı-2020, [6].*

kənd təsərrüfatında təkrar istehsalı həyata keçirmək üçün tələb olunan toxum və ting materialları ilə yerli istehsal hesabına təminat səviyyəsi 2% həcmindədir. Bu isə kənd təsərrüfatı məhsullarının istehsalının idxaldan asılılıq səviyyəsinin yüksək olmasını əks etdirir. Bu amilin özü rəqabətqabiliyyətli ixrac potensialının artırılmasında ciddi bir maneə olaraq qalmaqdadır.

Respublikada yetişdirilən kiçik miqdarda emal edilmiş meyvə və tərəvəz (1 faizdən az) konservləşdirilmiş meyvə və tərəvəz ixracının artmasına və idxalının aşağı səviyyəsinə (satışların ümumi həcminin 40-50 faizinə) səbəb olur. Bunlardan bəziləri Azərbaycanın iqlim şəraitində yetişdirilməyən meyvələrdən hazırlanır (sitrus meyvə şirələri, şaftalı, ərik).

Ümumiyyətlə, Azərbaycanda kənd təsərrüfatı sektoru sabit inkişaf edir, lakin bir çox həll edilməmiş məsələlər var. İstehsal göstəriciləri hər il artmasına baxmayaraq, başlıca problem olan tələb və təklif arasında uyğunsuzluğun qalmasıdır. 2019-cu ildə bütün bazarlarda əhalinin alıcılıq qabiliyyətinin zəifləməsi ilə əlaqədar istehlak tələbinin azalması müşahidə olunur. Bu isə öz növbəsində, bazarın tam təmin edilməsini və kənd təsərrüfatı məhsullarının aşağı qiymətlərinə səbəb olmaqla itkilərin artmasını şərtləndirir.

Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində idxaləvəzetmə kənd təsərrüfatının inkişafının ən əhəmiyyətli istiqamətlərindən biridir. Son illərdə investisiya qoyuluşu məsələsi kənd təsərrüfatının inkişafı üçün əsas məhdudiyyətlərdən biridir. Ümumilikdə əlverişli vəziyyətə baxmayaraq, kənd təsərrüfatı müəssisələrinin və təsərrüfatların əksəriyyətinin aşağı gəlirliliyi bizə əhəmiyyətli investisiyaların axını üçün ümidlənməyə imkan vermir. Ancaq investorlar şirkətlərin subsidiyalı kreditlər, əsasən heyvandarlıq, istixana tərəvəzçilik, toxum istehsalı, habelə ixracata yönəldilmiş məhsulların (pomidor, alma, fındıq) alınması üçün aidiyyatı sahələrə maraq göstərə bilər. Kənd təsərrüfatının inkişafında investorların rolu bazarda baş verən proseslərdən və ona tə-

sir edən amillərin daxili dövlət tənzimlənməsindən asılılığı ilə bağlıdır. Hazırda idxaləvəzləyici istehsalın təmin edilməsi kənd təsərrüfatı məhsulları istehsalında yaranmış iqtisadi-sosial problemlərin fərqliliyi və onların həll olma istiqamətlərinin sistemli şəkildə müəyyən edilməsini şərtləndirir.

Kənd təsərrüfatı məhsulları bazarının iqtisadi problemləri həm uzunmüddətli, həm də qısamüddətli ola bilər. Uzunmüddətli problemlər kənd təsərrüfatında qiymətlərin və kənd təsərrüfatı istehsalçılarının gəlirlərinin iqtisadiyyatın digər sahələri ilə müqayisədə qiymətlər və gəlirlər meyllərindən uzaqlaşmasına səbəb olmuşdur. Qısa müddətli problemlər müxtəlif illərdə təsərrüfat gəlirlərinin ekstremal qeyri-sabitliyi ilə əlaqədardır.

Uzunmüddətli problemlər. Uzunmüddətli dövrdə təsərrüfat probleminin yaranma səbəblərinə aşağıdakılar aiddir:

1. Kənd təsərrüfatı məhsullarına olan tələbatın qiymət elastikliyinin olmaması;
2. Kənd təsərrüfatı məhsullarının tələb və təklif əyriləri vaxt keçdikcə dəyişir;
3. Kənd təsərrüfatı resurslarının nisbi hərəkətsizliyi.

Kənd təsərrüfatı məhsulları üçün qeyri-elastik tələbat. Ən inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsullarının tələbatının elastikliyi azdır. Bütün təsərrüfat məhsulları üçün elastiklik əmsalı 0,20-dən 0,25-ə qədər qiymətləndirilir. Bu rəqəmlər göstərir ki, kənd təsərrüfatı məhsullarının qiymətləri istehlakçıların alışlarını yalnız 10% artırmaq üçün 40-50% -ə qədər aşağı düşmüşdür. İstehlakçılar, əlbəttə, alternativ mallarla müqayisədə əlavə kənd təsərrüfatı məhsullarını aşağı qiymətləndirirlər. Bu əsasən meyvə, tərəvəz və ət məhsullarında özünü göstərir. Bu zaman tələbin elastikliyini müəyyən edən əsas amil əvəzləyici məhsuldur. Bu, bir məhsulun qiymətinin düşdüyü zaman, istehlakçı digər məhsullar ilə əvəz etmək məcburiyyətindədir, hansının ki qiymətləri ehtimala görə azalmayıb. Alıcılıq qabiliyyəti yüksək olan istehlakçılarda

yemək üçün bu "əvəzedici təsir" çox mürəkkəbdir. Yəni, insanlar sadəcə müvafiq kənd təsərrüfatı məhsullarının qiymətlərinin azaldılmasına cavab olaraq, gündə üç-beş ya da altı dəfə gündəlik yeməklərə keçmirlər. Bir adamın digər məhsullara qida əvəz etməsi qabiliyyəti tamamilə təbii bioloji məhdudiyyətlərə tabedir.

Kənd təsərrüfatı məhsullarının təklifinin texniki tərəqqisi və sürətli artımı. Fermerlərin məhsullarına ödənilməmiş tələbat kifayət qədər zərərsizdir. Bununla bərabər, bu da onların tələbatına görə kənd təsərrüfatı məhsullarının təklifinin artırılmasını nəzərdə tutur və təsərrüfat gəlirlərinin azaldılmasına təsir edir.

Yaranmış vəziyyətə təklif tərəfindən baxsaq görərik ki, elmi və texnoloji tərəqqinin sürətli inkişaf templəri kənd təsərrüfatı məhsullarının təklifinin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Texniki inkişaf bir neçə mənbəyə malikdir: təsərrüfatların faktiki olaraq tam elektrikləşdirilməsi və mexanizasiyalaş-dırılması; torpaqların əkilməsi və mühafizəsinin texnologiyasının təkmilləşdirilməsi; irriqasiya və suvarma sistemləri; təkmilləşdirilmiş gübrələr və herbisidlrin mövcudluğu; təkmilləşdirilmiş heyvan cinsləri və onlara qulluq və s. Bu texniki nailiyyətlərin əldə olunması və onların təsərrfüatlara tətbiqi rəqabətqabiliyyətli məhsul istehsalının həcminin artırılmasında çox əhəmiyyətlidir.

Kənd təsərrüfatı məhsullarına tələbin aşağı düşməsi. İnnovativ texnologiyaların tətbiqi ilə bazarda kənd təsərrüfatı məhsullarının təklifinin artması tələbin yüksəlməsinə şərait yaratmalıdır. Bunun səbəbi kənd təsərrüfatı məhsullarının tələbatını müəyyən edən iki əsas amildir - gəlir və əhali. Daha az inkişaf etmiş ölkələrdə istehlakçılar kənd təsərrüfatı məhsullarının satın alınmasına gəlirlərinin kifayət qədər böyük hissəsini ayırmalıdırlar, onlar sadəcə yaşamaq üçün geyim və ərzaq məhsullarını almalıdırlar. Onu da qeyd edək ki, gəlirlər minimum yaşayış səviyyəsindən yuxarı qalxdıqca və ərzaq məhsullarının əldə edilməsi problemi öz yerini kökəlmə prosesinə verir, o zaman istehlakçılarda ərzaq məhsullarına çəki-

lən xərclərin artım templəri də azalmağa doğru dəyişir. Nəticədə istehlakçının tələbatı tam ödənildikdən sonra onun düşüncəsi əkinçilikliyə, ümumilikdə kənd təsərrüfatına deyil, "yaxşı həyat tərzini" təmin edən sənayeyə yönəlir.

Ölkədə iqtisadi artım nisbi qıtlıq səviyyəsi ilə müqayisədə adambaşına düşən orta gəlirlərin əhəmiyyətli dərəcədə artmasına kömək edir. Nəticədə istehlakçıların gəlirlərinin artımı kənd təsərrüfatı məhsullarının xərclərinin aşağı nisbətdə artması ilə müşayiət olunur. Xüsusi terminologiyadan istifadə edərkən, kənd təsərrüfatı məhsullarına olan tələbat gəlirdə qeyri-effektivdir, yəni kənd təsərrüfatı məhsullarının əksəriyyətinə olan tələbat artan gəlirlərə tamamilə laqeyddir. Təxmini hesablamalar göstərir ki, adambaşına düşən real gəlirin 10% artması (vergilərdən sonra) kənd təsərrüfatı məhsullarının istehlakının maksimum 2% artmasına səbəb olur. Bəzi xüsusi kənd təsərrüfatı məhsullarının, məsələn, kartof və ya bəzi tərəvəz məhsulları digər məhsullara nisbətən öz xüsusiyyətlərinə görə satışı aşağı ola bilər, bu isə gəlirlərin artması ilə əlaqədar olaraq, həmin malların alınmasını həqiqətən də azalda bilər.

Resursların nisbi hərəkətsizliyi. Əvvəl qeyd edildiyi kimi, kənd təsərrüfatı yüksək rəqabətli sahədir; çox sayda müxtəlif firmalar, emal sahələri fəaliyyət göstərir, bunların hər biri çox yüksək standartlaşdırılmış məhsulların ümumi həcminin əhəmiyyətli bir hissəsini istehsal edirlər. Kənd təsərrüfatı məhsullarının qiymətlərinin və istehsalçıların gəlirlərinin azalması bu sahədən digər sahələrə əmək resurslarının böyük miqdarda axınına səbəb olur.

Problemin mahiyyəti ondan ibarətdir ki, başqa sahələrə nisbətən kənd təsərrüfatında böhran hadisələrinə görə kəndlilərin digər sənaye sahələrinə axını bir qayda olaraq uzun müddətli xarakter daşıyır. Eyni zamanda, istehsal sahəsinin bərpası da olduqca ləng gedən bir prosesdir ki, bu da sürətli inkişafa təsir edən amillərdən biridir. Real şəraitdə nisbi sabitliyin səbəbləri bir qədər fərqli olmasına baxmayaraq, rəqabət qabiliyyətli, eləcə də dövlət tənzim-

ləməsinin xüsusi çəkisi yüksək olan bazarlarda (marketlərdə, yarmarkalarda) əmək və istehsal resurslarının axınında kəskin dəyişikliklər yoxdur.

Beləliklə, kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı iqtisadiyyatı arasındakı bərabərsizlik tək bir tarazlıq balansının pozulmasının nəticəsi deyildir. Buna görə də, işçi qüvvəsi iqtisadiyyatın digər sahələrində yüksək gəlirli yerləri axtarmaq üçün kənd təsərrüfatını tərk edir, kənd təsərrüfatında mövcud olan problemlərin yaranma səbəblərinin vaxtında aradan qaldırılmaması uzunmüddətli dövrdə kəndlilərin gəlirlərinin azalması istiqamətində təsirini davam etdirir və bu da öz növbəsində aqrar sahədən insan resurslarının daha kütləvi şəkildə axını üçün şərait yaradır. Son illərdə kənd təsərrüfatı əhalisinin sayının azalmasına baxmayaraq, bəzi aqrar iqtisadçılar kənd təsərrüfatı sahəsində əməyin çox olması barədə fikirlər yürütməyə davam edir.

Qısa müddətli problemlər. Kənd təsərrüfatı məhsullarının qiymətlərində əhəmiyyətli illik dalğalanmalar və buna görə kənd təsərrüfatı istehsalçılarının gəlirləri qısa müddətli bir problemi əks etdirir. Qısa müddətdə bu qeyri-sabitlik kənd təsərrüfatı məhsullarına elastik olmayan tələbatın yaranmasının nəticəsidir

1. İstehsal həcminin dalğalanması;
2. Ərzaq üçün yerli və xarici tələbatın dəyişməsi.

İstehsal həcminin dalğalanması. Kənd təsərrüfatı məhsullarına olan tələbatının qeyri-qənaətbəxş olması və istehsal həcmində kiçik dəyişikliklər təsərrüfatın qiymətlərində və gəlirlərində nisbətən böyük dəyişikliklərə səbəb olur. Bir qayda olaraq illik məhsuldarlığın yüksək olması kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin aşağı düşməsinə gətirib çıxarır, çünki tələbat elastik deyil və satılan malların həcminin artması daha çox məhsulların qiymətinin mütənasib düşməsi ilə müşayiət edilir. Bu halda təsərrüfatın ümumi məhsulun satışından daxil olmaları azalır. Əsas səbəb məhsul bolluğu zamanı təklifin tələbi üstələməsidir. Məhsul-

darlığın aşağı olması isə tələbin təklifi üstələməsi ilə müşayət olunur. Bu halda təsərrüfatın ümumi məhsulun satışından daxil olmalar yüksəlir, çünki, məhsul qıtlığının yaranması onların satış qiymətlərinin yüksəlməsinə səbəb olur.

Daxili tələbatda olan dalğalanmalar. Qısamüddətli dövrdə kəndlilərin gəlirlərinin qeyri-sabitliyi kənd təsərrüfatı məhsullarının tələbatının dəyişməsi ilə bağlıdır. Kənd təsərrüfatı məhsullarına tələbatın qeyri-elastikliyi səbəbindən, tələbatın qısamüddətli dəyişməsi qiymətlər və gəlirlərdə nəzərəçarpan fərqlər meydana gətirir. Tələbin nisbətən az miqdarda azalması eyni miqdarda istehsal üçün təsərrüfatların gəlirlərinin azalmasına səbəb olur. Bunun əksinə, tələbatın artırılması eyni həcmdə təsərrüfat gəlirinin bərabər dərəcədə kəskin artmasına səbəb olacaqdır. Qiymət və gəlirlərin belə böyük dəyişiklikləri tələbatın qeyri-elastik olması ilə bağlıdır.

Xarici təlabatın qeyri-elastikliyi. İxrac-yönümlü aqrar sektoru olan ölkələrdə kənd təsərrüfatı istehsalçılarının rifahının yaxşılaşma səbəbi kənd təsərrüfatı ixracının artması ola bilər, ixrac bazarlarının dağılması isə kənd təsərrüfatı böhranının əsas səbəblərindən biri olacaqdır. Eyni şəkildə, Avropada və Yaponiyadakı gəlir dövriyyəsinin dəyişməsi, məsələn, ABŞ kənd təsərrüfatı məhsullarına olan tələbatını dəyişə bilər. Eyni təsir digər ölkələrin iqtisadi siyasətində dəyişikliklər edə bilər. Beynəlxalq siyasət də tələbin dəyişkənliyini artıra bilər. Müxtəlif ölkələr arasındakı siyasi əlaqələrdəki dəyişikliklər həm satışları artırır, həm də azaldır.

## 3.2. Yerli ərzaq məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri

Kənd təsərrüfatı məhsullarının, o cümlədən ərzaq məhsullarının istehsalının artırılmasının şərtlərindən biri də müvafiq məhsulların məhsuldarlığının artırılmasıdır. Məhsuldarlığın artırılmasının

əsas şərtlərindən biri əkinçilik mədəniyyətinin yetişdirilməsi üçün hər bir bitkinin daimi qayğısına qalır. Belə tədbirlər kompleksində əsas yeri məhsuldar əkinçilik mədəniyyəti tutur.

Sənaye sektorunun, o cümlədən investisiya hesabının artımı Kənd təsərrüfatı kənd iqtisadiyyatının inkişafı üçün ən mühüm vasitələrdən biridir. İnvestisiya ediləcək sahə və obyektlərin yeri və ən səmərəli əlaqə müəyyən edilərkən sənaye sektoru seçilərkən investisiyanın səmərəliliyi ön planda tutulmalı və bu mərhələdə hədəf kimi qarşılanmalıdır. Bu halda, təqdim olunan investisiya planından mənfəət gələcəkdə istehsal olunacaq.

Unudulmamalıdır ki, kapital dövriyyəsi nə qədər sürətli və sürətli olarsa, məhsuldarlıq da bir o qədər yüksək olarsa, inkişaf da bir o qədər səmərəli olar.

İnvestisiyaların səmərəliliyinin artırılmasına ümumi mənfəətin həcminin və xalis gəlirin artımının artırılması, istehsal xərclərinin azaldılması və əmək məhsuldarlığının artırılması hesabına əldə edilir. Beləliklə, xammal, material, enerji və xidmət xərclərini minimuma endirməklə istehsal xərclərini azaltmaqla xalis gəliri artırmaq olar. Xərclərin bu formalarında kənd əmtəə istehsalı, eləcə də bir sıra digər sənaye və Kənd təsir təşkilatları öz qiymətlərini və dərəcələrini təyin etmək üçün birlikdə işləyirlər. Belə ki, istehsal məsrəflərinin artması qiymətlərin artmasına, nəticədə xalis gəlirin azalmasına, qiymətlərin azalması isə əksinə, xalis artıma səbəb olur.

Xalis gəlirin artması kənd iqtisadiyyatına və sənaye istehsalına da təsir edir.

Qiymət bərabərliyi sahələr arasında mübadilə ekvivalentliyinin formalarından biridir və o, məhsulların qiymətlərinin nisbəti ilə xarakterizə olunur. Optimal dəyərlərin pozulması uyğunsuzluğa gətirib çıxarır. Qiymətlərin uyğunsuzluğu böhranın və onun kəndə təsirinin əsas səbəblərindəndir, məhsul istehsalının azalmasına və ya artmasına səbəb olur.

Məsələn, islahatlardan sonra və hazırda, eyni zamanda gələcəkdə kənd təsərrüfatı maşınlarının saz vəziyyətdə saxlanılması və bərpası üzrə xidmətlərin həcminin əsas payı təsərrüfat sahibləri tərəfindən həyata keçirilir. Kənd təsərrüfatı üçün mövcud olmuş vahid mühəndislik xidməti keçmiş bir dövlət sistemi kimi praktik olaraq aradan qaldırılmışdır. Buna görə də, kənd təsərrüfatı istehsalına xidmət göstərmək üçün inteqrasiya olunmuş, texniki cəhətdən təchiz edilmiş mühəndis infrastrukturunun formalaşdırılmasına və inkişafına sərmayə qoymaq lazımdır. Yəni, bahalı avadanlıqların yüksək səviyyədə istifadəsini təmin etmək, bu sahəyə investisiyaların səmərəliliyinin artırılmasına kömək edəcək bitkiçilik və heyvandarlıqda yüksək texnologiyalara sahib olmaq üçün bu xüsusilə vacibdir.

İqtisadiyyatın liberallaşdırılmasından sonra dövlətin kənd təsərrüfatı məhsullarının tədarükü sistemindən çıxması ilə kənd təsərrüfatı istehsalçıları vahid qiymət siyasəti və zəmanətli satışların olmaması ilə üzləşdi. Qeyri-sabit qiymətlər şəraitində təsərrüfatların istehsal planlaşdırması çətin idi. Məhsulların həddən artıq olması zamanı məhsulların qiyməti kəskin şəkildə azalır, istehsal xərclərini ödəmir, məhsul qıtlığı zamanı isə qiymət həddən artıq yüksəlirdi. Onu da qeyd edək ki, məhsulların hədd qiymətləri konkret olaraq müəyyən edilməsə də, istehlak zənbilinin ölçülərinə əsasən müqayisə etdikdə qeyd edilən nəticə alınır. Bitkiçilik məhsulları istehsalında məhsulun qiymət səviyyəsinin tənzimlənməməsi səbəbindən istehsal həcmlərinin azaldılması halları çox idi. Bu hal demək olar ki, bütün kənd təsərrüfatı məhsullarına aid idi.

Bu sahədə son 10 ildə xeyli irəliləyişlərin əldə edilməsinə baxmayaraq, müəyyən uyğunsuzluqlar hələ də qalmaqdadır.

Kənd təsərrüfatı məhsullarının qiymətləri son illərdə 2015-2018 ci illərdə bir neçə dəfə artmışdır. Məhsulların qiymət artımı əsasən qış və yaz mövsümündə baş verir. Yerli məhsulların kütləvi yığım dövründə isə məhsulun qiyməti kəskin aşağı düşür və əsas diqqət yetiriləsi məqam məhsulun qiymətinin həddən artıq düşməsi və həddən artıq qalxmasıdır. Yəni, birinci halda istehsalçı, ikinci halda isə istehlakçı zərər çəkir. Onu da nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı məhsulları istehsalçıları arasında müasir texnologiyalara malik təsərrüfatlar tərəfindən istixana şəraitində yetişdirilən tərəvəz məhsulları bazarlara dəyərindən bir neçə dəfə artıq qiymətlə təklif olunur. Aparılan təhlillər göstərir ki, daxili bazarda qiymətlərin düzgün tənzimlənməməsi kənd təsərrüfatının inkişafında ciddi problemlər yaradır, eyni zamanda bazar iqtisadiyyatı heç də əsas vermir ki, qiymətlər istəkdən asılı olaraq müəyyən edilməlidir. Yəni, birbaşa və ya dolayı müdaxilə və tənzimləmə olmalıdır.

Birbaşa müdaxilə və ya tənzimləmə özünü əsasən əhalinin ehtiyacı olan məhsulların qış və yaz mövsümündə ixracına müəyyən qadağalar qoyulmaqda və ya istehsal olunan məhsulun dəyərindən iki dəfədən çox olmaması ilə satışına nəzarət mexanizmi hazırlamaqda büruzə verir. Bunu izah etmək üçün kifayət edər ki, müqəddəs kitab olan Qurani Kərimdə deyildiyi kimi, məhsulun dəyərinin iki mislindən artıq satılması haram olduğunun göstərildiyini yada salaq. Yəni, istehlakçıların alıcılıq qabiliyyəti nəzərə alınmalıdır və bu qiymətlər də alıcılıq qabiliyyətinə uyğun tənzimlənməlidir. Bazarın seqmentləşdirilməsi bazar iqtisadiyyatının inkişafını şərtləndirən əsas amillərdəndir. Əhalinin alıcılıq qabiyliyyətinə görə qruplaşdırılması hazırda vacib olan şərtlərdəndir. Bazar iqtisadiyyatının tələblərinə uyğun daha münasib variant isə əhalinin gəlirlərinin artırılması və alıcılıq qabiliyyətinin yüksəldilməsidir. Bu isə özlüyündə iqtisadiyyatın çoxşaxəli inkişafını stimullaşdırır.

Dolayı müdaxilə və ya tənzimləmə. Dolayı tənzimləməyə əsasən kütləvi yığım dövründə daha çox zərurət yaranır. Yəni idxal olunan məhsullara gömrük tarifləri və rüsumları ilə qiymətlərin tənzimlənməsi, məhsulların satılmasında istehsalçılara dəstək verilməsi və uyğun ölkələrin bazarlarına ixracın stimullaşdırılması mexanizmlərinin hazırlanması ön plana çəkilir.

Hazırda kənd təsərrüfatı istehsalının inkişafını ləngidən səbəblərdən biri məhsulların satışı ilə olan problemlərin öz tam həllini tapmamasıdır. Kənd təsərrüfatı məhsullarının ticarətinin ənənəvi ticarət üsulları ilə aparılmasıdır ki, bu zaman ən az qazanan tərəf istehsalçı olur. Qeyd edək ki, kənd təsərrüfatı ticarətinin inkişaf etdirilməsi kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılmasında və ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Kənd təsərrüfatı ticarətinin ərzaq təhlükəsizliyinə və məhsul istehsalının artrılması arasındakı əlaqələrə gəldikdə isə qeyd olunmalıdır ki, onlar mürəkkəbdir və ərzaq təhlükəsizliyinin müxtəlif aspeklərinə qarşılıqlı təsir göstərən yolları vardır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi əsasən yerli istehsalın artırılması və idxaldan asılılıq səviyyəsinin azaldılamsı hesabına mümükündür. Odur ki, biz ticarətlə ərzaq təhlükəsizliyi arasındakı əlaqələri təhlil etməklə, ticarətin məhsul istehsalının artırılması məsələlərinə təsirini müəyyən etmiş olarıq. Ticarətin ərzaq təhlükəsizliyinə təsirini aşağıdakı şəkil 3.1-də verimiş sxem üzrə ifadə etmək olar.

Şəkil 3.1- də verilmiş sxemdə ticarətin ərzaq təhlükəsizliyi göstəricilərinə təsir edə biləcəyi müxtəlif dəyişənlərin sadələşdirilmiş bir təsvirini əks etdirir. Əslində iqtisadi kontekstdən və inkişafın sektoral tərkibindən təsirlənən ticarət ərzaq istehsalı, qiymətlər, məşğulluq və dövlət gəlirləri kimi əsas dəyişənlərə birbaşa təsir göstərir. Uzunmüddətli perspektivdə ticarət həmçinin rəqabət qabiliyyətinə, infrastrukturun inkişafına və marketinq kanallarının və paylayıcı şəbəkələrin genişlənməsinə təsir göstərir. Eyni zamanda, bu öz növbəsində dövlət və özəl investisiyaların stimullaşdırılma-




***Şəkil 3.1 Ticarətin ərzaq təhlükəsizliyinə təsiri mexanizmi.***

sına və yeni iştirakçıların bazarlara daxil olmasına təsir göstərir. Qeyd edək ki, birbaşa təsirlər ərzaq təhlükəsizliyi göstəricilərini üç əsas amil vasitəsilə dəyişdirir: cəmi ərzaq təklifi, ev təsərrüfatı gəlirləri və dövlət xidmətləri.

Ticarətin ərzaq təhlükəsizliyinə təsirləri. Ticarət ərzaq təhlükəsizliyinin dörd ölçüsünün hər birinə müsbət və mənfi təsir göstərə bilər, müxtəlif iqtisadi və sosial dəyişmələrə qısa, orta və uzun müddətli təsir göstərir. Bazarın əsasları - yerli ərzaq təchizatı, tələb və qiymətlər - idxal və ixracdakı böyük və ya kiçik dəyişikliklərdən dərhal təsirlənir. Qısamüddətli dövrdə sektorlar arasında heç bir amil dəyişikliyi baş vermir və ticarətin ilk növbədə istehlakçılara və istehsalçılara təsiri əsasən daxili bazarda istehsal olunan və istehlak edilən malların qiymətidir. Orta dövrdə dəyişiklik-

lərə cavab olaraq əmtəə qiymətləri dəyişir, əmək və kapital hərəkətləri, iqtisadi məşğulluq, bazarlar, gəlirlər və digər əsas dəyişənlər baxımından yeni tarazlığa doğru dəyişir. Ticarətin strukturuna, torpağın istifadəsinə, məhsuldarlığa, qidalanma modellərinə və digər əhəmiyyətli determinantlara olan dinamik təsiri, uzunmüddətli dövrdə başlanğıc təsirlərin həyata keçirilməsini, gücləndirilməsini və ya bərpasını tələb edə bilər (cədvəl 3.6).

Müxtəlif istiqamətlər üzrə qısa və uzun müddətli təsirlər ilə ərzaq təhlükəsizliyi üzərində ticarətin ümumi təsiri səfərbəredici ola bilər. Ticarətlə ərzaq təhlükəsizliyi arasında qarşılıqlı əlaqə kanallarının mürəkkəbliyi ölkə təcrübələrində böyük fərqlər yaradır və ümumi təsiri əsasən lazımi səmtə uyğunlaşdırır. Ticarətə açıqlığın müsbət və mənfi cəhətləri geniş aspektdən yalnız ölkənin resurs təminatı və müqayisəli üstünlükləri ilə deyil, iqtisadiyyatdakı kənd təsərrüfatının rolu və ölkənin inkişafının hazırki səviyyəsində istehsalın payı ilə bağlıdır.

Ancaq bu konsepsiyaların fərqli şərhləri, ticarətin bəzi mütəxəssislər tərəfindən təhdid kimi qəbul edildiyi və başqaları tərəfindən bir fürsət olaraq başa düşülməsinə səbəb olmuşdur. Ticarət ərzaq təhlükəsizliyi və qidalanmanın yaxşılaşdırılması üçün nə bir təhlükə, nə də bütün problemləri həll edəcək bir vasitə deyil, siyasi qərar qəbul edilməsində nəzərə alınmalı olan problemlər və risklər yaradan faktordur. Yəni, ticatət elmi əsaslarla inkişaf etdirilməsə onun fəsadları çox olur, əksinə elmi əsaslarla inkişaf etdirildikdə daxili bazar, xüsusən də yerli istehsalçıların mənafeləri qorunur, dövlət maraqları təmin edilir, büdcə xərcləri tənzimlənir və müvafiq düzgün qərarların qəbul edilməsinə imkan yaranır.

Bir sıra əsas amillər ərzaq təhlükəsizliyinin nəticələri ilə ticarətin qarşılıqlı əlaqəsinə təsir göstərir, təsirin müsbət və ya mənfi olub-olmadığını müəyyən edir. Bura aşağıdakıları aid etmək olar:

- daxili ərzaq bazarlarının fəaliyyət göstərməsi;

***Cədvəl 3.6***

***Ticarətin mümkün qısa və orta-uzun müddətli dövrdə ərzaq təhlükəsizliyinin 4 istiqaməti üzərində təsiri***

| Mövcud-luğu | Qısa müddətdə | Orta və uzun müddətdə |
|---|---|---|
| | Ticarət idxalı, mövcud ərzaq həcmini və müxtəlifliyi artırır. | Yüksək ixtisaslaşma ilə bağlı olaraq ərzaq istehsalının artması və məhsuldarlığın artırılması daha çox rəqabətə səbəb ola bilər. |
| | Ticarət ixracatın üstünlük təşkil etdiyi ölkələrdə məhsulların daxili bazarda təminatı azala bilər, yəni tələbatdan aşağı düşə bilər. | - İxracatın üstünlük təşkil etdiyi ölkələrdə əsas istehlak məhsullarının daxili mövcudluğu azalacaq;<br>- idxalın üstünlük təşkil etdiyi ölkələrdə və ərzaq idxal edən ölkələrdə isə bəzi istehsalçılar tərəfindən istehsalın məhdud-laşdırılmasına səbəb olur. |
| Əl çatanlığı | Qida məhsullarının və daxil olan məhsulların qiymətlərinin təsirinin ərzaq idxal edən ölkələr üçün azalması ehtimalı var. | Bazarın daha geniş olması səbəbindən gəlirlər rəqabətqabiliyyətli sektorlarda artacaq, artım və məşğulluq ixracın artımı və birbaşa xarici investisiyalarla dəstəklənəcəkdir. |
| | İxracatın üstünlük təşkil etdiyi ölkələrdə ixrac olunan məhsulların daxili qiymətləri artacaq. | İdxalla rəqabət edən sektorlardakı gəlirlər bəzi istehsalçıların kənd təsərrüfatından kənara çıxması ilə azalacaq. |
| Yararlılıq | Mövcud olan ərzaq müxtəlifliyi daha balanslı bir qidalanma modelini inkişaf etdirə bilər. | Beynəlxalq standartların daha diqqətli şəkildə tətbiq ediləcəyi halda ərzaq təhlükəsizliyi və keyfiyyəti yaxşılaşa bilər. |
| | Daha ucuz, yüksək kalorili və qida dəyəri az olan ərzaqın daha çox isthehlakı ola bilər. | Əmtəə ixracatının prioritetləşdirilməsi ənənəvi və yerli məhsullardan torpaq və resursları götürə bilər, hansı ki onlar ərzaq dəyəri baxımından üstündür. |
| Stabillik | İxrac yerli istehsal riskləri nəticəsində yaranan çatışmazlıqları azaldır. | Qlobal bazarlar siyasət və ya hava şəraiti ilə əlaqədar təhdidlərə daha az meyillidir. |
| | Ölkə ixrac məhdudiyyəti kimi ixracatçılar tərəfindən ticarət siyasətindəki dəyişik-liklərə qarşı daha müdafiəsiz ola bilər. | İnkişafın ilkin mərhələlərində olan sektorlar qiymət zərbələrinə və idxal artımlarına daha çox həssas ola bilər. |

*Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.*

- istehsalçıların dəyişən təşviqlərə cavab vermə qabiliyyəti və istəkləri;
- istehsalçıların səhmdarlar bazarlarında iştirak etməsi.

Daxili ərzaq bazarlarının fəaliyyət göstərməsi. Kənd təsərrüfatında rəqabət məsələləri, alıcılıq qabiliyyəti aşağı olan seqmentlərin satınalma gücü kənd təsərrüfatı istehsalının səviyyəsini müəyyən edən bütün əsas dəyişənlərə təsir edir. Bura aşağıdakılar daxildir:

- qiymətlər;
- materialların mövcudluğu;
- istehsal həcmi;
- kənd infrastrukturuna investisiyaların yatırılma səviyyəsi.

Şaquli inteqrasiya dərəcəsi və qiymət zəncirində müxtəlif maraqlı iştirakçılar tərəfindən tutulan ümumi dəyərin səhmləri də alıcılıq qabiliyyəti zəif olanların (yoxsulların) ərzaq təhlükəsizliyinə təsir göstərir. Öz növbəsində, qiymət zəncirlərinin strukturu, dövlət tənzimlənməsi, marketinq kanalında giriş maneələri və dövlət ticarət müəssisələrinin mövcudluğu bütün istehlakçılara və fermerlərə əhəmiyyətli təsir göstərərək, kənd təsərrüfatı bazarında rəqabətə rəvac verir.

İstehsalçıların dəyişən təşviqlərə cavab vermə qabiliyyəti və istəkləri. İnkişaf etməkdə olan ölkələrdə supermarketlərin yayılması və təchizat zəncirləri boyunca rəqabətin yüksək dərəcəsi istehsalçılar üzərində aşağı qiymətlərlə daha keyfiyyətli malların tədarükünə təzyiqi artır. Həcm, dəyər, keyfiyyət və uyğunluq standartlarına cavab vermək üçün təşkilati dəyişikliklər edilməsi bəzi kəndli təsərrüfatlarına və emalçı müəssisələrə də çətin ola bilər, onların təchizat zəncirlərinə uğurla daxil edilməsi ərzaq təhlükəsizliyi üçün dolayı və birbaşa təsirlər ilə texnologiya transferində, məhsuldarlığın yüksəldilməsi və məşğulluq artmasında mühüm rol oynaya bilər.

Kiçik fermerlərin kənd təsərrüfatı məhsulları bazarlarına sərbəst çıxışı ərzaq təhlükəsizliyinə əhəmiyyətli təsir göstərə bilər. Əldə edilməsi çətin olan və səmərəsiz resurslar müasir marketinq kanallarında iştirak etmək üçün bahalı ola bilər, ya da kiçik təsərrüfat və müəssisələrin satmaq istədiyi və ya satmağa hazır olduqları məhsulun miqdarını məhdudlaşdıra bilər. Kiçik təsərrüfat və müəssisələr, sabit qiymətlər, kredit əlyetərliyi, infrastrukturun genişləndirilməsi kimi müəyyən şərtlərin olması bazarda məhsulları münasib qiymətə satmağa imkan verəcək.

Ticarət siyasətinə müdaxilələr ticarət və ərzaq təhlükəsizliyi arasındakı əlaqələrə təsir edən müxtəlif amilləri nəzərə alınmalıdır. Bu amillərin nəzərə alınması istehsalçıların gəlirlərinin və mənfəətinin artmasına geniş imkanlar verir ki, bu da təsərrüfat və müəssisələrin intensiv inkişafını təmin edir.

Kənd təsərrüfatının inkişafı obyektiv iqtisadi qanunlarına uyğun olaraq həyata keçirilir. Kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün iki yol var - ekstensiv və intensiv.

Ekstensiv inkişaf - əlavə əmək qabiliyyətli işçi qüvvəsini cəlb etməklə, əkin sahəsini genişləndirməklə, heyvanların və quşların baş sayını artırmaqla, iqtisadi artımın kəmiyyət amillərinə əsaslanan istehsal həcminin artırılması, kapital qoyuluşları, yeni istehsal müəssisələrinin tikintisi və s. əhatə edir.

İntensiv inkişaf yolu istehsalın elmi və texnoloji tərəqqisinə, təbii, maddi və əmək resurslarının səmərəli istifadəsinə əsaslanır və bu, kənd təsərrüfatı torpaqlardan, su ehtiyatlarından, heyvandarlıq sahələrindən səmərəli istifadə etməyə imkan verir. Bu metodun imkanları məhdud deyildir. Kənd təsərrüfatı məhsullarının istehsalı təcrübəsində müxtəlif intensiv üsullarının birləşməsi mövcuddur.

Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, taxıl istehsalının iqtisadi səmərəliliyini 1 sentner taxılın satışından əldə edilən xalıs gəlirin miqdarı ilə ifadə olunur. Bir sentner taxılın sa-

tışından əldə olunan pul vəsaitinin maya dəyəri ilə tutuşdurlması taxılçılığın mənfəətli və ya zərərli olmasını aşkara çıxarır. Müstəqillik əldə etdikdən sonra iqtisadiyyatın liberallaşdırlması ilə bərabər milli və ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə ölkədə mövcud olan əkin sahəsinin 60-65%-i taxıl bitkilərinin əkin sahəsinin altına verilmişdir. Təsərrüfatların böyük hissəsi taxıl istehsalı ilə məşğuldur. Bu məqsədlə ayrı-ayrı təsərrüfatlarda taxıl istehsalının rentabellik səviyyəsini müəyyən etmişik. Qeyd edək ki, məhsuldarlığı 20 sentnerdən aşağı olan təsərrüfatlar zərərlə, məhsuldarlığı 25 sentnerdən yuxarı olan təsərrüfatlar isə mənfəət əldə etməklə yüksək rentabelli olurlar.

Rentabellik səviyyəsi yüksək olmayan təsərrüfatlarda, xüsusən dağətəyi ərazilərdə aqrotexniki qaydalar ciddi sürətdə pozulur, suvarma suyu çatmır, gəmiricilərə qarşı mübarizə zəifdir, mineral gübrələrlə tam təmin olunmur, alaq otlarının çoxluğu və son nəticədə məhsuldarlığın aşağı olmasına səbəb olur. Nəticədə əldə edilən taxılın məhsuldarlığının aşağı olması ilə bərabər keyfiyyət göstəriciləri də qeyri-qənaətbəxş olur. Bu, aşağıdakı səbəblərlə izah olunur:

- taxılın vaxtında suvarılmamasından dən kifayət qədər dolmur;
- taxılın alaq otları ilə daha çox zibilli olmasının qarşısı alınmır;
- su olmayan ərazilərdə bitkilər vaxtından tez solur;
- biçin vaxtı taxılın nəmlik faizi normadan aşağı olur.

Bütün bunlar taxılın keyfiyyətinə və sonda qiymətinə məhfi təsir edir ki, bu da yekunda rentabellik səviyyəsinin aşağı düşməsinə gətirib çıxarır. Ona görə də rentabelliyin yüksəldilməsi taxılçılığın ən əlverişli təbii-iqlim şəraiti olan rayonlarda daha çox yerləşdirilməsini, əkin sahələrinin su ilə təmin olunmasını və növbəli əkin sisteminin tətbiq edilməsini tələb edir.

Bazar iqtisadiyyatı şəraitində bütün kənd təsərrüfatı məhsulları istehsalının, o cümlədən taxıl istehsalının iqtisadi səmərəliliyi onun satılması yollarından və satış qiymətlərinin səviyyəsindən asılıdır. Ölkəmizdə "Dövlət Taxıl Fondu" yaradılmışdır və fond tərəfindən ölkədə istehsal olunan keyfiyyətli taxıl məhsullarının alınması həyata keçirilir. Qeyd edək ki, taxıl bazarının konyunkturuna müvafiq olaraq qiymət dəyişə bilər.

Dövlət Taxıl Fonduna tədarük olunan taxılın məqbul keyfiyyəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 105 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları" [4] 1 nömrəli qərarı ilə müəyyən edilir. Azərbaycan Respublikasında 7 iyul 2009-cu il tarixli göstəricilər aşağıdakı kimidir:

I. Taxılın naturası (litr bankalarda qramla):

buğda üçün - 750 q/l-dən az olmamalıdır

II. Alaq otlarının qarışığı (zibil) (faiz):

buğda üçün - 2 faizdən çox olmayaraq

III. Taxıl qarışığı (faiz):

buğda üçün - 5 faizdən çox olmayaraq

IV. Rütubət (faizlə) - bütün bitkilər üçün:

- 13,0 faizdən çox olmamaqla

V. Yapışqanlıq: 3-cü dərəcəli buğda üçün - ən azı 23 faiz.

- debriyaj keyfiyyət indeksi 65-75%

VI. Vitrifikasiya:

3-cü dərəcəli buğda üçün - ən azı 40%.

VII. Qoxu və dad - dənli bitkilərə xas olmayan və onların emal olunmuş məhsullarına (kerosin, benzin, sarımsaq və bu kimi maddələr) ötürülən bütün tərəvəz iyi, səməni, acı və ya digər qoxu və dadlara yol verilmir.

VIII. Sürmə ilə çirklənmiş taxıl - icazə verilmir

IX. Anbarda zərərvericilərin yoluxmasına icazə verilmir.

Qeyd edək ki, bu keyfiyyət göstəricilərinə cavab verməyən və məhsulun keyfiyyət göstəriciləri üzrə akkreditə olunmuş laboratoriyadan sertifikatı olmayan buğda məhsulları qəbul edilmir. Taxılın özüboşaldan maşınlarla gətirilməsi tövsiyə olunur.

Hazırda bu tələblərə cavab verən təsərrüfatların sayı nisbətən az olduğundan ölkəmizin buğda məhsulu üzrə idxaldan asılılıq səviyyəsi yüksəkdir. Belə ki, 2014-cü ildə idxaldan asılılıq səviyyəsi 45,9%, 2015-ci ildə 45,2%, 2016-cı ildə 47,1%, 2017-ci ildə isə 41,9%, 2018-ci ildə 36,2%, 2019-cu ildə isə 33,7% təşkil etmişdir. Bu onu göstərir ki, taxılın yeni subsidiyalaşdırma, tədarük və qiymətlər sistemi maddi həvəsləndirməni yüksəldir və taxılçılıq təsərrüfatlarının rentabelliyini təmin edir. Hazırda başlıca vəzifə keyfiyyətli toxumlardan istifadə, kimyalaşdırma, sahələrə tələb olunan səviyyədə mineral gübrələrin verilməsi, mexanikləşdirmə səviyyəsinin yüksəldilməsi və intesivləşdirmə yolu ilə taxıl istehsalının rentabelliyini yüksəltməkdir.

Ərzaq məhsulları sırasında xüsusi əhəmiyyət kəsb edən tərəvəz-bostan bitkilərinin istehsalı ilə demək olar ki, bütün iqtisadi rayonlarda məşğul olurlar. Lakin həmin bitkilərin əkin sahələri son dərəcə kiçik və dağınıq haldadır. Tərəvəz – bostan bitkiləri istehsalının olduqca kiçik və dağınıq olması burada istehsal proseslərini tam mexanikləşdirməyə, gübrələrdən geniş istifadə etməyə, aqrotexniki qaydalar əsasında əkinçilik mədəniyyətini yüksəltməyə imkan vermir. Bunun da nəticəsində məhsuldarlıq yüksəlmir, məhsulun maya dəyəri baha başa gəlir və tərəvəz – bostan məhsulları istehsalının iqtisadi səmərliliyi yüksəlmir. Tərəvəz – bostan məhsulları istehsalçıları məhsulu sahədən aralıq vasitəçilərinə satırlar və qiymət əsasən diqtə olunur ki, nəticədə istehsalçı ən az gəlir əldə edən tərəf olur. Bu da istehsalçıda kənd təsərrüfatına bir gəlirli sahə kimi olan marağının azalmasına gətirib çıxarır.

Tərəvəz-bostan məhsulları istehsalının iqtisadi səmərəliliyini yüksəltmək üçün birinci növbədə onu ən əlverişli torpaq-iqlim

şəraiti olan rayonlarda beəcirilməsinin və kooperasiya münasibətlərini inkişaf etdirməklə təmərküzləşməsini təmin etmək lazımdır. Bunun üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi tələb olunur. Eyni zamanda tərəvəzçiliyin yüksək inkişaf etdiyi rayonlarda müasir tələblərə cavab verən çox çeşidli emal sahələrinin inkişaf etdirilməsi də məqsədəuyğundur. Emal müəssisələrinin tərəvəz sahələrinə nisbətən yaxın yerdə yerləşdirilməsi istehsalçı ilə emalçı arasındakı məsafəni minimuma endirir, daşınma xərclərini aşağı salır, məhsul sahədən emala xarab olmadan, əzilmədən tez çatır və ən əsası da bazar istehsalçıya yaxın olmaqla məhsulun satışı problemlərinin həllini asanlaşdırır.

Biz kənd təsərrüfatında istehsal olunan iki əsas ərzaq məhsulunun istehsalının iqtisadi səmərəliliyini yüksəltmə istiqamətlərini müəyyən etdik. Bu çox vacib olan məslələrdir. Bu məhsulların istehsalının düzgün təşkili taxıl məhsulları üzrə idxaldan asılılıq səviyyəsinin azalmasına, tərəvəz məhsulları üzrə çeşidli ixrac potensialının artırılmasına imkan verir. Lakin bu problemlərin öz həllini tapması məhsuldarlığın yüksək səviyyədə artmasını tam təmin etmir. Buna təsir edən digər amillərin də nəzərə alınması lazımdır. Bu, istehsal resursları ilə təminat səviyyəsinin yüksəldilməsi, sahədən məhsuldarlığın artırılması, suvarma sisteminin müasir səviyyədə qurulması və suvarma suyu ilə təminatın yüksəldilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, informasiya-məsləhət xidmətinin səmərəli təşkili məsələlərinə də diqqət yetirmək tələb olunur.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


***Rəsmi sənədlər və statistik materiallar***

1. Azərbaycanın statistik göstəriciləri, ARDSK, 2020.
2. Azərbaycanın kənd təsərrüfatı, ARDSK, 2020.
3. Azərbaycanın milli hesabları, ARDSK, 2020.
4. Azərbaycanın xarici ticarəti, ARDSK, 2020.
5. Azərbaycanın ərzaq balansıarı, ARDSK, 2020.

***İngilis dilində***

6. Antamoshkina E.N. On the content and current trends in agrarian policy // Bulletin of the Volgograd State University. Ser. 3, Economy. Ecology. 2012, No. 1 (20), pp. 187-192.
7. Antamoshkina E.N. Agrarian policy and food safety of Russia // Economics and management of innovative technologies. No. 6, 2016. [Electronic resource]. URL: http://ekonomika.snauka.Ru/2013/06/2469 (accessed 05/26/2017).
8. Asanova A.A., Seitkozhieva M.U. Conceptual bases for increasing the competitiveness of the processing industry of the

agro-industrial complex of the Kyrgyz Republic, Vestnik KRSU. Volume 14. No. 8, 2014, pp. 9-12.

9. Aliyev R. State regulation of import and export in the agrarian sector of the Azerbaijan Republic. // APK: economics, management. No. 6, 2011, p. 79-83.
10. Andreeva M.V. The evolution of state support for agriculture: foreign experience, recommendations for Russia. Diss. economy Sciences, Yekaterinburg, 2014.
11. Antokhonova I.V. Comparative analysis of the gross regional product in the Republic of Buryatia. // Questions of statistics. Moscow, 2004, No. 9 p. 90-94.
12. Alekseev S.V. Legal regulation of entrepreneurial activity. Moscow, UNITI-Dana, 2004, 504 p.
13. Alieva A.G. Azerbaijan: food security and development of the agrarian sector, // Russian Entrepreneurship, No. 3 (201), 2012, pp. 179-183.
14. Anikina I.D., Gukova A.V., Chekalina A.A. Stimulation of innovative activity of enterprises in the region: the choice of financial instruments. Electronic scientific journal. Modern problems of science and education. No. 1, part 2, 2015.

15. Akhramovich V.S. Theoretical foundations for stimulating the export potential of the agro-industrial complex. // Agricultural Economics, No. 1, 2013, pp. 13-19.
16. Akimova Yu.A., Kochetkova S.A. European experience in regulating the development of the agrarian sector of the economy // International Journal of Applied and Fundamental Research, No. 12, 2015.
17. Antonova T. I. Management of the development of agriculture in the region based on the improvement of economic monitoring Diss. cand. economy Sciences, Volgograd, 2014, 176 p.
18. Askerov. P.F. Development of the control system of the agro-industrial complex: Ph.D. Sciences, Veliky Novgorod, 2012, 323 p.
19. Aralbaeva, GG Methodology and organization of monitoring of the regional socio-economic system: author. dis. Dr. Econ. Sciences, Orenburg, 2014, 38 p.
20. Abakarova R. Sh. The role of agrarian policy in ensuring food security in Russia. // Theory and practice of social development No. 11, 2015, pp. 104-107.
21. Borisov K.A. Scenarios for the strategic development of the agro-industrial complex of Russia in the conditions of the

WTO: a methodology for choosing the directions “specialization” and “import substitution”. // World Economy and International Economic Relations, No. 5(114), 2014, pp. 126-133.

22. Borisov A. Big Economic Dictionary // A. Borisov - M: Knizhny Mir, 2013, 860 p.
23. Borodin K.G. Modern economic theory of integration processes in the world economy. M, 2015.
24. Berikbolova U. D., Kazbaykyzy A., Zhanibekova A. World experience in increasing the export potential of the country // Young scientist. 2016, no.5.5, p. 44-47. URL https://moluch.ru/archive/109/26860/ (date of access: 04/04/2018).
25. Burets Yu.S. Evolution of innovation process management models // Bulletin of the Tomsk State University. Economy. 2014, No. 4, p. 125-139.
26. Vinnichek L., Efimov A. Methodology for assessing the mechanism of state regulation of agriculture. International Agricultural Journal, No. 6, 2015, p. 37-43.
27. Vasyutchenko I. N. Inertial diversification of agricultural exports in the regions of southern Russia: institutional aspect.

Abstract diss. cand. economy Sciences, Rostov-on-Don, 2012, 27 p.
28. Veliyev, A.G. The use of agricultural land and their economic efficiency, // Agrarian science. No. 5, 2010, pp. 20-22
29. Gabibbeyli A. Economic relations of the Republic of Azerbaijan with Great Britain and the United Kingdom of Northern Ireland. Baku, Nurlar, 2007, 216 p.
30. Galina V.K., Victoria B.M., Elena B.F. Perfection of the structure of the mechanism of state regulation of foreign economic activity in the agro-industrial complex. // Bulletin of the Voronezh State Agrarian University. 2016, No. 1 (48), pp. 193-200.
31. Gataulina E.A. Assessment of the budgetary efficiency of state support for agricultural organizations // Economics of agricultural and processing enterprises. 2011, No. 8, pp. 46-48.
32. Gaponenko Yu.V. The level of development of the export potential of the region and methodological aspects of its assessment, Vestn. Volgogr. state university Ser. 10, Innov. activity 2013. No. 2 (9), p. 16-20.

33. Gogolev I.M. Management of the competitiveness of the regional agro-complex / Abstract of the thesis. diss. . Dr. Econ. Sciences, Izhevsk, 2016, 35 p.
34. Gusakova E. P., Import substitution is a priority goal of the development of the agro-industrial complex // Fundamentals of Economics, Management and Law, No. 6 (18), 2014, pp. 8-11.
35. Galbraith, J. Economic theories and goals of society / J. Galbraith. M.: Progress, 1976. S. 152-156, 217.
36. Donnik I. M., Voronin B. A., Loretts O. G., Fateeva N. B. State agrarian policy in modern Russia, Agrarian Bulletin of the Urals, No. 9 (139), 2015, p. 74-79
37. World Development Report. Agriculture in the Service of Development, Review, International Bank for Reconstruction and Development // World Bank, 2015.
38. Eremeev V.I. Formation of the system of state management of agriculture (theory, methodology, practice): author. PhD thesis Sciences, M., 2012, 21 p.
39. Zarova E.V. Operational monitoring of the socio-economic development of the constituent entities of the Russian Federation in the system of state strategic planning // E. V.

Zarova, S. N. Musikhin // Questions of statistics, No. 4, 2013, p. 16-21.

40. Ivanovich K.R. Forms and tools of institutional transformations in the agro-industrial complex. Diss. cand. economy Sciences, Cherkessk, 2014, 174 p.
41. Inshakov O.V. The mechanism of social and market transformation and sustainable development of the agro-industrial complex of Russia. Volgograd, Volgu Publishing House, 2015, 450 p.
42. Kavizoda A. Problems of import substitution and the formation of export potential in the agro-industrial complex of Russia. Young scientist, No. 11, 2016. c. 584-586.
43. Kasymova E.I. Socio-economic aspects and trends in the development of entrepreneurship in the agricultural sector. agricultural science. No. 7, 2015, pp. 2-5.
44. Kasimov M. Azerbaijan in the system of international economic relations. Baku, 2009, 233 p.
45. Kandakova G.V., Malitskaya V.B., Falkovich E.B., Chirkova M.B. Bulletin of the Voronezh State Agrarian University. No. 1(48), 2016, p. 193-200.
46. Kenesbaeva D.Zh. Strategies for the economic development of the newly industrialized countries of Asia and the

possibility of their adaptation to the conditions of Kazakhstan: Abstract of the Cand. economy sciences:, Almaty, 2015, 28 p.

47. Kendyukh E.I. Ensuring the food security of the country on the basis of increasing the competitiveness of the agro-industrial complex: theory, methodology, practice (based on the materials of the Republic of Kazakhstan), diss. doc. economy Nauk., Novosibirsk, 2014, 466 p.
48. Keynes J. Selected Works. Per. from English. Moscow, 1993, 558 p.
49. Kogut A.E. Information bases of regional socio-economic monitoring. St. Petersburg: ISEP RAN, 2015, 97 p.
50. Klimova N.V. Export potential of agriculture in Russia. Scientific journal of KubGAU, No. 119 (05), 2016, p. 1-11.
51. Cluster approach to the development of the agro-industrial complex of the Omsk region // ed. ed. V.V. Karpova, V.V. Aleshchenko // Novosibirsk, publishing house of the Siberian Branch of the Russian Academy of Sciences, 2014, 416 p.
52. Kudrova N.A. Development of the economy of agro-industrial regions in the context of the implementation of the import substitution policy. Diss. doc. economy Sciences, Tambov, 2015, 327 p.

53. Kuliev R.M. Issues of rational use of agricultural land in Azerbaijan. // Land management, cadastre and land monitoring, No. 2, 2011, pp. 73-77.
54. Kuliev T.A. Peasant consumer cooperatives: improving education // Economics of agricultural and processing enterprises. No. 10, 2012, pp. 60-63.
55. Kurako L.P. Economic Encyclopedic Dictionary // L.P. Kurakov, V.L. Kurakov, A.L. Kurakov-M,: University and school, 2005, 1030 p.
56. Klimova N. V. Export potential of agriculture in Russia, Scientific journal of KubSAU, No. 119 (05), 2016, pp. 35-39.
57. Klintsevich R.I. Forms and tools of institutional transformations in the agro-industrial complex. Diss. cand. economy Sciences. Cher-kessk, 2014, 174 p.
58. Krasilnikova E.L. Evaluation of the use of the foreign economic potential of the regions. // Young scientist. 2012, no. 7, p. 87-90.
59. Mamai O.V. Methodological bases of innovative development of the agrarian sector of the regional economy. Monograph (under the editorship of Doctor of Economic Sciences, Prof. G. R. Khasaev). Samara: publishing house of the Samara State Economic University, 2009, 112 p.

60. Matokh S.G. Innovative development of agricultural production in the Republic of Belarus, Agrarian Economics, No. 7, 2014, pp. 11-15.
61. Mintusov V.K. Directions for improving the regulation of food imports in the Russian Federation. Diss. cand. economy Sciences, Moscow, 2016, 169 p.
62. Mikhailushkin P. V., Barannikov A. A. Modernization of agricultural production in Russia: innovative aspect // Young scientist. No. 8, 2012, pp. 334-335.
63. Maltseva V.A. Evolution of state support for agriculture Dissertation for the academic degree of Ph.D. economy Sciences. Ekaterinburg, 2014, 157 p.
64. Muratov N.V. Ensuring food security in Russia in the face of negative external economic impact. Sciences, Moscow, 2016, 178 p.
65. Mikhailushkin P.V. Ensuring food security is the basis of Russia's agrarian policy. Scientific journal of KubGAU, No. 88 (04), 2013, pp. 1-9.
66. Mikhailushkin P. V. Foreign trade agro-food policy as a fundamental element that ensures food security in Russia. Scientific journal of KubGAU, No. 95 (01), 2014, p. 1-17.

67. Mikhailova P.N., Naidanova E.B. The role of innovations in the economy of Russia and its regions, Internet journal "Nauko¬vedenie", Vol. 7, No. 4, 2015, pp. 1-6.
68. Mikhailyuk O.N. Forms of state support for the economic entities of the agro-industrial complex // Economics of agricultural and processing enterprises. 2009, No. 7, pp. 36-39.
69. Mustafayeva R.R. Issues of stimulating the growth of exports of agricultural products // Russian Journal of Entrepreneurship. No. 20 (242), 2013, p. 24-30
70. Miroedov, A.A. Information support as an evolution to a new quality of economic management of the region. M.: Statistics of Russia, 2009, 272 p.
71. Myakinnikova N.A. Ensuring food security in the context of globalization. Dissertation for the degree of Ph.D. Krasnodar, 2014, 169 p.
72. Malozemov S. I. Modern agrarian policy in Russia: definition of the essence, Bulletin of the ChitGU, No. 8 (65), 2010, pp. 70-75.
73. Miloserdov V.V., Miloserdov K.V. Agrarian policy of Russia - XX century. – M.: [b. i.], 2014, 543 p.

74. Nabiev T.T. State regulation of the agrarian sector of the economy of the Republic of Tajikistan in the context of integration processes. Abstract diss. doc. economy Sciences. Moscow, 2014, 48 p.
75. Nazarenko V.I. Theoretical foundations of agrarian policy in the West and in Russia. Monograph. Yekaterinburg, Publishing house of UrGSHA, 2010, 419 p.
76. Nasedkina T.I. Methodology of analytical justification of the development of agriculture on the basis of statistical monitoring. Dis. Dr. Econ. Nauk, M., 2011, 357 p.
77. Novruzova Z.R. Agriculture in Azerbaijan: perspectives of growth and price regulation // Russian Journal of Entrepreneurship. 2011, No. 7, pp. 169-173.
78. Oleinik O.S. Information support for the management of the development of the region. Dis. Dr. Econ. Nauk, Volgograd, 2013, 355 p.
79. Prebish R. Actual problems of socio-economic development of Latin America, No. 6, 1977.
80. Pshennik Yu. Import substitution marketing. http://www. /publication/2012_01_27_15636.html.
81. Potapova I.S. History of economic doctrines: Textbook. 3rd ed. – M.: MGIU, 2008. p.30.

82. Potapova I.S. History of economic doctrines: Textbook. 3rd ed. – M.: MGIU, 2008. p.126.
83. Porter M. International competition / M. Porter / Per. from English. Under the editorship of V.D. Shchetinina M.: International relations, 1993.
84. Radosteva E.M., Porvadov M.G. Fundamentals of agrarian policy, Textbook, 2015, 97 p.
85. Reimer V.V., Ulezko A.V., Tyutyunikov A.A. Innovative-tion-oriented development of the agro-industrial complex of the Far East. Monograph, Voronezh, 2016, 348 p.
86. Sergeev I.V. Economics of the organization. M.: Finance and statistics, 2015, 574p.
87. Sidorenko V., Mikhailushkin P., Presnyakov D. Modern problems and priorities of agrarian policy in Russia. International Agricultural Journal, No. 2, 2016. pp.6-9
88. Sarsembekova S.E. Export-oriented production in the system of world economic relations: questions of theory and practice. Textbook, Pavlodar, 2015, 108 p.
89. Samedzade Z.A. Stages of a long journey. Baku, "Nurlan", 2004, 936 p.
90. Suleimanov V.E. Models of agrarian policy and ways to increase the competitiveness of agricultural exports of the

Republic of Azerbaijan. // Russian Economic Internet Journal, No. 1, 2014, pp. 2-7.

91. Suchkova N.A., Import substitution in the food sector of Russia. M., 2009, 26s.
92. Smirnov O.I. Modernization without innovation is a dead end [Electronic resource]. Access mode http://www.ng.ru/.
93. Strategy for socio-economic development of the Volgograd region (2008–2025) / O. V. Inshakov [and others]; ed. O. V. Inshakova; RAS, Department of Societies. Sciences, Yuzh. economic development section. Volgograd, VolGU Publishing House, 2008, 356 p.
94. Sunshev A.A. Agro-food policy: problems and solutions. Stavropol, Service School, 2015, 232 p.
95. Taranov P. M. Russian agro-food system in the context of competitiveness and food security / // economics of agricultural and processing enterprises. 2016, No. 10, pp. 20–23.
96. Tenkovskaya L.I. Trends, state and prospects for the development of agriculture in the economic regions of Russia. Monograph. Perm, IPC "Prokrost", 2015, 188 p.

97. Timofeeva G.V., Antamoshkina E.N. Food security at the regional level: assessment methodology // Agricultural Economics of Russia, 2014, No. 4, p. 61-65.
98. Timofeeva G.V. Market transformations of the state regulation of the social development of the village. // Economics of agriculture in Russia. M., 2011. No. 10, pp. 75-83.
99. Explanatory dictionary of the Russian language with the inclusion of information about the origin of words / RAS, Institute of the Russian Language. V.V. Vinogradova; resp. ed. N. Yu. Shvedova. - M. : Azbukovnik, 2008, 1175 p.
100. Uzun V.Ya., Gataulina E.A., Saraikin V.A., Karlova N.A. Methods for assessing the impact of agrarian policy on the development of agriculture. M., 2014, 115 p.
101. Ushachev I.G. Economic growth and competitiveness of Russian agriculture. Materials of the III All-Russian Congress of Economists. M., 2009.
102. Fedyunina E.N., Vorobyov A.V. Features of the development of the system of land relations in the regional economy // Land management, cadastre and land monitoring. 2012, No. 5 (89), p. 6-12.

103. Khabalov T.Kh. Methods and tools of the state regulation of the development of the agro-industrial complex. Diss. Candidate of Economics, Nalchik, 2014, 208 p.

104. Shamkhalov F. I. State and economy: the basis of interaction. M.: Economics, 2nd ed., 2005, 727 p.

### *Rus dilində*

105. Эрлих П. Демографическая бомба. NY, Sierra Club and Ballantine Books, 1968. 206 стр.

106. Роджерс Дж. Продовольственная безопасность: от глобальной к универсальной. Экспресс развития, 1997, вып. 5, с. 31.

107. «Правила хранения и использования Государственного зернового фонда». Утвержден постановлением № 105 Кабинета Министров Азербайджанской Республики от 7 июля 2009 года.

108. «Государственная программа развития сельскохозяйственных кооперативов в Азербайджанской Республике на 2017-2022 годы». Баку, 2017.

109. Аббасов В.Х. Актуальные проблемы экономического регулирования в аграрной сфере. Монография, Баку, 2012, 424 с.
110. Абасов И.Д. Сельское хозяйство Азербайджана и стран мира. Издательство Восток-Запад, Баку, 2013, 732 с.
111. Асланов Х.А. Применение природных цеолитовых минералов в сельском хозяйстве вместе с удобрениями. Баку, 2015. 418 с.
112. Аташов Б.Х. Актуальные проблемы пищевой безопасности. Монография, Баку, "Вяз", 2005, 336 с.
113. Байрамов В. Программный документ по оценке процесса членства Азербайджана в ВТО. Центр экономического и социального развития, Баку, 2010.\
114. Большая экономическая энциклопедия. В 7 томах. Автор идеи и главный редактор академик З.А.Самедзаде. Баку, «Восток-Запад», 2012-2015 гг.
115. Ахмедов А.Т. Продовольственная безопасность является основой социальной защищенности населения. Баку, журнал «Аудит», 2017, №1, с. 41-52.
116. Гулиев Э.А. Глобальная продовольственная безопасность: реалии, вызовы и перспективы. Монография, Баку, издательство «Кооперация», 2018, 480 с.

117.Гулиев Э.А. Аграрная экономика. Учебник для вузов. Баку, 2015, издательство «Кооперасия», 320 с.

118.Гулиев Э.А. «Совершенствование направлений стимулирования производства сельскохозяйственной продукции в условиях рыночной экономики». I.e.n. автореферат диссертации, Баку, 2006, 26 с.

119.Гамбарова Р.М. Направления по национализации защиты внутреннего продовольственного рынка, и.у.ф.д. диссертация. автореф. Гянджа, 2015. 25 с.

120.Гафаров Н.С. Направления увеличения малого и среднего бизнеса в агропромышленном комплексе. Баку, 2007, 112 стр.

121.Гасанов А. Ф. Особенности ценового механизма в агропромышленном комплексе. Научные труды Аз.ЭТКТИ и ТИ №1, 2013 г., стр. 32-26.

122.Гасанлы М.Х. Оценка роли экономических механизмов в формировании показателей экономической безопасности. Институт Экономики НАНА, "Научные труды" №2, 2017, стр. 126-132.

123.Хазиев Ф.А. Приоритетные направления государственной поддержки сельскохозяйственного сектора в Азербайд-

жане. Институт Экономики НАНА, "Научные труды", №6, 2016 г., стр. 147-152.
124. Хакимова Ю.А. Сокращение межрегиональной разницы по уровню социально-экономического развития. Институт Экономики Национальной Академии Наук Азербайджана, «Научные труды», № 6, 2015, стр. 196-203.
125. Гусейнов М.С. Проблемы устойчивого развития аграрной отрасли. Монография, Баку, «Нурлан», 2006, 304 с.
126. Гусейнов Т.Н. Национальная модель экономического развития Азербайджана: теория и практика. Монография, Баку, «Вяз», 2015, 466 с.
127. Ибрагимов Э.Р. Экономические проблемы развития аграрного предпринимательства. Монография. Гянджа, 2010. 380 с.
128. Ибрагимов И.Х. Экономика аграрной отрасли: Монография, Баку, 2016, 653 с.
129. К. Маркс. Капитал, второй том 2, 1956, с. 171.
130. Мамедов А.И. Экономика сельского хозяйства. Учебник, Баку, 1992, 370с.
131. Мамедов З.С. Использование экономики природы. Баку, 2010. 229 с.

132. Гасанов Рашад, Исмаилаова Гульнар, Алиева Рафига. Механизмы формирования агропарков в Азербайджанской Республике в течение сельскохозяйственного года и усиление участия фермеров в этом процессе. Центр экономического и социального развития. Баку, 2015. 81 с.
133. Мурадов Ш.М. Человеческий потенциал: основные тенденции, реалии, проблемы. Баку, "Наука", 2004, 656 с.
134. Надиров А. А. Период независимости экономики Азербайджана, который постоянно растет. Монография, Баку, 2012, 359 с.
135. Салахов С.В. Проблемы государственного регулирования аграрной сферы. Монография, Баку, «Нурлан», 2004, 504 с.
136. Самадзаде З.А. Переходный период в экономике Азербайджана завершение: анализ и результаты. Проблемы формирования национальной модели развития. Баку, 2010. 982 с.
137. «Государственная программа социально-экономического развития регионов Азербайджанской Республики на 2019-2023 годы». Баку, 27 февраля 2019 года.

## İnternet resursları

138.http://www.agro.gov.az/

139.http://www.stat.gov.az/

140.www.president.az

141.www.economy.gov.az

142.www.maliyye.gov.az

143.www.e-qanun.az

144.www.agrolizing.gov.az

145. www.fao.org

**ELNUR QARA OĞLU ALLAHVERDİYEV**

**ETİBARLI ƏRZAQ TƏMİNATINDA İDXALƏVƏZLƏYİCİ İSTEHSALIN ARTIRILMASI**
***Monoqrafiya***

---

| | |
|---|---|
| Nəşriyyatın müdiri: | Əhməd Ziyəddinoğlu |
| Kompyuter tərtibatı: | Hacı İsmayılov |
| Korrektor: | Ramin Rəsulov |

Yığılmağa verilib: 25 may 2021
Çapa imzalanmış: 22 iyul 2021
Kağız formatı: 60x84, 1/16
Kağız növü: 80 qr. (ofset)
Fiziki çap vərəqi: 10 (246628 işarə)
Tirajı: 200

Kitab Azərbaycan Kooperasiya Universitetinin mətbəəsində çap olunmuşdur.
Ünvan: AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 93.